


# DAYANIQLI İNKİŞAF HAQQINDA HESABAT 2022 - 2023

# DAYANIQLI İNKİŞAF HAQQINDA HESABAT 2022 - 2023



"Bizim Xəzər Dəniz Gəmiçiliyinin Donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir. Bu sahədə işlərin müsbət istiqamətdə getməsi sevindirici haldır."

**Heydər Əliyev**

**Azərbaycan xalqının Ümummilli Lideri**



“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bu gün beynəlxalq tələblərə uyğun dəniz nəqliyyatı xidmətləri gerçəkləşdirməklə iqtisadiyyatımızın inkişafına dəyərli töhfələr verir”.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

# MÜNDƏRİCAT


8. Giriş

10 Müşahidə Şurası Sədrinin ön sözü
12 İdarə Heyəti Sədrinin ön sözü
14 Hesabatın xülasəsi
20 2022-2023-cü illərə ümumi baxış

22. ASCO haqqında

24 ASCO-nun tarixi
26 Gəmiçiliyin Dəyərləri, Missiyası və Strateji hədəfləri
30 Əsas fəaliyyət sahələri
36 Əməliyyat marşrutları
38 ASCO-nun təşkilati strukturu
40 Struktur vahidləri, törəmə və birgə müəssisələr

42. Dayanıqlı inkişaf

44 Hesabat haqqında
44 Əhəmiyyətli Mövzuların qiymətləndirilməsi
48 Maraqlı tərəflər və onlarla münasibətlər
50 Dayanıqlı inkişafın biznesə inteqrasiyası
51 Dayanıqlı İnkişaf Siyasəti
53 ESG - ekoloji, sosial, idarəetmə aspektləri
55 Qlobal Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə ASCO-nun öhdəliyi və verdiyi töhfələr
59 İqlim ilə əlaqəli korporativ idarəetmə sistemi (CCG)
59 COP-29 çərçivəsində işlər

64. Maliyyə və əməliyyat nəticələri

66 Maliyyə nəticələri
68 Əməliyyat nəticələri

78. Korporativ idarəetmə sistemi

80 Səhmdar, Müşahidə Şurası, İdarə Heyəti
82 Korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində işlər
85 Strateji idarəetmə
85 Şəffaflıq, Hesabatlılıq, Məlumatların açıqlanması
86 Mükafatlandırma sistemi
87 Satınalma sistemi
88 Daxili audit və nəzarət sistemi
90 Risklərin idarə olunması
92 Komplayens, Biznes etikası və nizam-intizam qaydaları
94 Korrupsiyaya qarşı tədbirlər
95 Gələcək planlar

96. İnsan resurslarının idarəedilməsi

98 İnsan resurslarının idarəedilməsi siyasəti
100 Təlim və təhsil
103 Əməkdaşlar və onlarla münasibət
105 Müxtəliflik və bərabər imkanlar, Gender bərabərliyi, İnsan haqları
109 Gələcək planlar

110. **Sosial fəaliyyət**

112 Maliyyə dəstəyi və xeyriyyəçilik
115 İşçilərin rifahı və sağlamlığına dəstək
118 Ölkədə idmanın inkişafına dəstək
119 Gənclərə dəstək
120 Ölkədə dənizçi peşəsinin təbliği
121 Gələcək planlar

122. **Sağlamlıq və əməyin təhlükəsizliyi**

124 Sağlamlıq və əməyin təhlükəsizliyinin idarə edilməsi
128 Qəza halları
130 Gələcək planlar

132. **Ətraf mühitin mühafizəsi**

134 Ətraf mühitə təsirin idarə edilməsi
135 - Tullantılar
138 - Su
139 - Enerji
142 - Emissiyalar
145 Yaşıl Enerji
146 Neft dağılmaları və fövqəladə tədbirlər
147 Gələcək planlar

148. **GRI standartları cədvəli**

156. **Müstəqil Kənar Auditorun Rəyi**

160. **İxtisarlar (abreviaturalar)**

# Giriş



# MÜŞAHİDƏ ŞURASININ SƏDRİNİN ÖN SÖZÜ

**Hörmətli Oxucu!**



Son illər mürəkkəb qlobal geosiyasi proseslərin yaratdığı risklərə rəğmən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti öz strateji milli hədəflərinə çatmaq üçün qətiyyətli addımlar atmış — 2020-ci ildə Vətən müharibəsində qazandığı parlaq Zəfərlə öz ərazilərini işğaldan azad etmiş, 2023-cü ildə isə bütün əraziləri üzərində suverenliyini bərpa etməklə tarixi missiyanı başa çatdırmışdır.

Ölkəmizin yerləşdiyi bölgədə meydana çıxmış yeni reallıqlar kontekstində, ələlxüsus da nəqliyyat qovşaqlarının şaxələndirilməsi təşəbbüslərinə əsaslanaraq Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin üzərindən keçəcək yeni nəqliyyat marşrutlarından biri kimi Zəngəzur dəhlizinin yaradılması istiqamətində qətiyyətli iradə nümayiş etdirməklə, bölgədə geniştutumlu daşınmalar üçün ölkəmizin tranzit-nəqliyyat imkanlarını daha da genişləndirir.

Zəngin tarixə və çoxillik dənizçilik ənənələrinə malik olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi (ASCO) Xəzər regionunun aparıcı gəmiçilik şirkəti kimi, Azərbaycan üzərindən keçən beynəlxalq tranzit-nəqliyyat dəhlizləri zəncirində Xəzərin Şərq və Qərbini birləşdirən halqanın ən mühüm təminatçısı kimi çıxış edir, ölkəmizin tranzit potensialının genişlənməsində, o cümlədən yeni nəqliyyat dəhlizlərinin yaradılması və şaxələndirilməsində fəal təşəbbüskarlıq göstərir, iqtisadiyyatımızın inkişafına dəyərli töhfələrini artırır.

Gəmiçiliyin dinamik inkişafı onun son kommersiya-maliyyə göstəricilərində əksini tapır. Yarandığı 2014-cü ildən etibarən ASCO-nun kapitalizasiyası 160% artaraq 2023-cü ilin sonuna 1.4 milyard manat təşkil etmişdir. Hesabat dövrü olan 2022-2023-cü illər ərzində ASCO illik fəaliyyətini mənfəətlə başa vurmağa nail olmuş və 2022-ci ildə Gəmiçiliyin fəaliyyətindən 65 milyon manat, 2023-cü ildə isə 44 milyon manat mənfəət əldə edilmişdir. ASCO-nun gəmiləri ilə 2022-ci ildə 7.5 milyon ton, 2023-cü ildə isə 9 milyon ton yük daşınmışdır. Ümumilikdə, əvvəlki hesabat dövrü olan 2021-ci il ilə müqayisədə 2023-cü ildə yükdaşıma həcmində 65% artım qeyd alınmışdır.

Ətraf mühitin mühafizəsinin təmin edilməsi istiqamətində görülən tədbirlər nəticəsində ASCO-da elektrik enerjisi sərfiyyatında 12%, təbii qaz sərfiyyatında isə 7% qənaət əldə edilmişdir.

2023-cü ildə ASCO-nun strateji inkişafı istiqamətində bir sıra mühüm və xüsusi əhəmiyyət kəsb edən qərarlar qəbul edilmiş, Azərbaycan İnvestisiya Holdinqi ilə sıx əlaqəli şəkildə ASCO-nun Müşahidə Şurası tərəfindən Gəmiçiliyin 2030-cu ilə kimi yenilənmiş Strategiyası, Donanmanın yenilənməsi və genişlənməsi planı, İnvestisiya və maliyyələşmə planı, borclanma sənədi təsdiqlənmişdir.

Strategiyaya uyğun olaraq Gəmiçiliyin donanmasının yenilənməsi məqsədilə daxili maliyyə imkanları və kredit resursları səfərbər edilərək yeni gəmilərin alışı və Bakı Gəmiqayırma Zavodunda (BGZ) tikintisi üzrə sifarişlərin yerləşdirilməsinə nail olunmuşdur.

Milli gəmiçilik şirkəti Azərbaycan gəmiçiliyinin tarixində ilk dəfə Xəzərdən kənar hövzələrdə böyük dedveytli – 115,000 tonluq "Aframax" tipli tankerlərlə neft yükdaşıma seqmentinə daxil olmuşdur. İritutumlu quru yük gəmiləri ilə yükdaşıma seqmentində ASCO-nun iştirakının təmin edilməsi məqsədi ilə, 40,000 tona qədər yükgötürmə qabiliyyətinə malik gəminin alınması hədəflənmişdir və bununla bağlı Avropa Yenidənqurma və İnkişaf Bankından (EBRD) müvafiq kredit cəlb edilmişdir.

ASCO Azərbaycanda yerli gəmiqayırma sənayesinin inkişafının dəstəklənməsi məqsədi ilə, Gəmiçiliyin donanması üçün tələb olunan yeni gəmilərin inşası üzrə sifarişləri BGZ-də yerləşdirməyə üstünlük verir. 2014-2023-cü illər ərzində ASCO-nun sifarişinə əsasən BGZ-də 10 gəmi inşa olunaraq Gəmiçiliyə təhvil verilmişdir və hazırda daha 11 gəminin inşası həyata keçirilir. Eyni zamanda, hazırda ASCO tərəfindən Zavodda əlavə gəmi sifarişlərinin yerləşdirilməsi üzrə danışıqlar aparılır.

2023-cü il ASCO üçün ölkəmizin qiymətli kağızlar bazarında ilk borc istiqrazlarının emissiyası ilə də əlamətdar olmuş, eyni zamanda ötən ilin avqust ayında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, ASCO özəl investisiyaların cəlb edilməsinə hazır hesab edilən dövlətə məxsus şirkətlər siyahısına daxil edilmişdir.

2022-2023-cü illər ərzində əldə olunan nailiyyətlər Gəmiçiliyin inkişafında yeni bir mərhələnin başlanğıcı hesab oluna bilər və bu strateji mərhələ ASCO-nun sağlam maliyyə vəziyyətinin təmin edilməsi, beynəlxalq prinsiplərə uyğun korporativ idarəetmə və hesabatlılıq sistemlərinin qurulması, fəaliyyət coğrafiyasının genişləndirilməsi, yükdaşımaların həcminin artırılması və digər mühüm çağırışları özündə ehtiva edir.

Sadalanan nailiyyətlərlə yanaşı, Gəmiçilik qarşısında dayanan strateji çağırışları tam dərk edir. Belə ki, son illər Xəzər dənizində suyun səviyyəsinin kəskin düşməsi ilə əlaqədar limanlardakı körpülərdə və limana aparan kanallarda suyun dərinliyinin azalması nəticəsində gəmilərin yükdaşıma potensialından tam istifadə olunmasında yaranan çətinliklər, qlobal miqyasda alternativ yanacaqlara keçid, Xəzərin Azərbaycan sektorunda xam neft hasilatı üzrə gözlənilən azalma nəticəsində ixtisaslaşmış gəmilərin neft-qaz yataqlarında kəşfiyyat, qazma-istismar işlərində göstərdiyi xidmətlər bazarının daralması, habelə ASCO-nun donanmasında olan gəmilərin "yaşlanması" səbəbindən donanmanın yenilənməsi zərurəti, "yaşıl enerji"yə keçid və digər amillər şirkətin bütün resurslarının daha optimal səfərbər edilməsini şərtləndirir və sözsüz ki, bütün bunların Gəmiçiliyin uzunmüddətli strateji planlarında nəzərə alınması labüddür.

Gələcək illərdə ASCO qəbul etdiyi strateji inkişaf xəttinə uyğun olaraq, yenilənən donanması ilə ənənəvi Xəzər hövzəsindəki fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlmiş səyləri ilə, Xəzərdən kənar su hövzələrində fəaliyyətini daha da genişləndirməklə rəqabətədavamlı və beynəlxalq standartlara uyğun dəniz nəqliyyatı xidmətləri göstərən çevik gəmiçilik şirkəti kimi öz mövqelərini daha da gücləndirib artırmaq əzmindədir.

**Hörmətlə,**
**Samir Şərifov**
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin**
**Müşahidə Şurasının Sədri**

# İDARƏ HEYƏTİNİN SƏDRİNİN ÖN SÖZÜ

**Hörmətli ASCO-nun tərəfdaşları və maraqlı tərəflər! Əziz Oxucu!**



Son illər ərzində, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə nəqliyyat sektorunda və onun mühüm tərkib hissəsi olan gəmiçilik sahəsində aparılan ciddi islahatlar sayəsində, bugün Azərbaycan dünya xəritəsində beynəlxalq nəqliyyat marşutları üzərində öz əlverişli tranzit mövqeyini möhkəmləndirmiş və regionda nəqliyyat-logistika qovşağına çevrilməyə müvəffəq olmuşdur. İqtisadi və sosial sahələrlə bərabər, siyasi arenada da xalqımızın tarixinə qızıl hərflərlə yazılan qələbələrə imza atılmışdır. Belə ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz tarixi ərazilərinin işğalına son qoymuşdursa, 2023-cü ilin aprel ayında Laçın istiqamətində dövlət sərhədimizdə sərhəd-buraxılış məntəqəsinin yerləşdirilməsi ilə ərazi bütövlüyümüz tam bərpa edilmişdir. 2023-cü ilin sentyabr ayında isə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan öz ərazisində qanunsuz məskunlaşmış terror dəstələrini 24 saat ərzində təslim olmağa məcbur edərək, dövlət suverenliyini tam təmin etmiş oldu.

Hesabat dövrü ASCO kollektivi üçün bir sıra korporativ uğurlarla yadda qalan olmuşdur. 2022-ci ildə ASCO-nun uzunmüddətli Strategiyası yenilənərək Gəmiçiliyin Müşahidə Şurası tərəfindən qəbul edildi, bu çərçivədə hesabat dövründə bir sıra yeni gəmilərin tikintisi və ya alınması işləri uğurla həyata keçirildi və bugün də bu istiqamətdə işlər təsdiqlənmiş strategiyaya uyğun davam etdirilir. 2023-cü ildə, Gəmiçilik, tarixində ilk dəfə qiymətli kağızlar buraxaraq, ASCO istiqrazlarını investorlar və əhali üçün açıq bazarda təqdim etdi ki, bunu da ASCO-nun uzunmüddətli hədəflərindən biri olan - Gəmiçiliyin səhmlərinin ilkin kütləvi təklifi hədəfinə aparan yolda atılan mühüm addım hesab edirik. Hesabat dövründə, ASCO-nun fəaliyyət coğrafiyasının genişləndirilməsi və onun Xəzərdən kənar hövzələrdə yükdaşıma potensialının daha da artırılması barədə ölkə başçısının müvafiq tapşırıqlarının icrası istiqamətində mühüm layihələr icra olunmuşdur. Belə ki, Azərbaycan dənizçiliyinin tarixində istismar edilən, eləcə də hal-hazırda milli donanmamızda mövcud ən böyük gəmilərdən təxminən 10 dəfə böyük olan “Aframax” tipli tankerlər, strateji partnyorumuz SOCAR ilə birlikdə 2023-cü ildə istismara verilmişdir. Azərbaycanın tarixi torpaqlarının – “Qarabağ”, “Şuşa” və “Zəngəzur” adlarını daşıyan, məhdudiyyətsiz üzmə imkanlarına malik olan və ölkəmizin milli bayrağı altında dünya sularında fəaliyyət göstərən bu gəmilərin istismara verilməsi ilə, ASCO və ümumilikdə Azərbaycanın gəmiçilik sahəsi yeni dövrə qədəm qoymuşdur. Qeyd olunanlarla bərabər, ümumilikdə 2023-cü il Azərbaycan dənizçiləri üçün çox əlamətdar bir il olmuşdur. Belə ki, “Heydər Əliyev İli” elan olunan 2023-cü ilə, həmçinin, inkişafında Ulu Öndərimizin xüsusi əməyi olan Azərbaycan gəmiçiliyinin 165 illik yubileyi və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı əsasında iki gəmiçilik şirkətinin birləşməsi ilə yenidən

təşkil edilən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin yaranmasının 10 illik yubileyi də təsadüf etmişdir. Bu əlamətdar və tarixi hadisələr ASCO kollektivi və dənizçilər tərəfindən, dərin hörmət, böyük şərəf və qürur hissi ilə qeyd edilmişdir.

Hesabat dövrü ərzində həmçinin, ASCO-da sosial, iqtisadi, ətraf mühitin qorunması, sağlamlıq və əməyin təhlükəsizliyi, insan resurslarının idarə edilməsi, korporativ idarəetmə, strukturun optimallaşdırılması sahələrində bir sıra əhəmiyyətli layihələr həyata keçirilmişdir. Hesab edirik ki, həyata keçirilən müvafiq işlərin nəticəsidir ki, Gəmiçilikdə sözügedən dövr ərzində müsbət maliyyə və əməliyyat nəticələri əldə olunmuşdur. Bundan əlavə, hesabat dövrü ərzində Gəmiçilikdə dayanıqlılıq prinsiplərinə uyğun fəaliyyətin təşkili, beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq gəmilərdən emissiyaların azaldılması və müxtəlif dekarbonizasiya təşəbbüslərinin icrası, eləcə də aidiyyəti sahələrdə müasir və innovativ sistemlərin tətbiqi istiqamətində də işlər və layihələr davam etdirilmişdir.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin 2022-2023-cü illəri əhatə edən növbəti, sayca beşinci Dayanıqlı inkişaf haqqında hesabatını böyük məmnuniyyət hissi ilə, Sizin diqqətinizə təqdim edirəm və Sizi maraqlandıran məlumatlarla hesabatın aidiyyəti bölmələrində tanış olmağa dəvət edirəm.

**Dərin hörmət və ehtiramla,**
**Rauf Vəliyev**
**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin**
**İdarə Heyətinin Sədri**

# HESABATIN XÜLASƏSİ

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO və ya Gəmiçilik) Dayanıqlı inkişaf haqqında hesabatı sosial, ekoloji və iqtisadi aspektləri əhatə etməklə, Gəmiçiliyin fəaliyyətinin nəticələrini əks etdirir. Sözügedən mövzular üzrə ətraflı məlumat hesabatın müvafiq bölmələrində təqdim olunur. Həmin istiqamətlər üzrə əsas nəticələri əks etdirən infoqrafik xülasə isə səhifə 20-də təqdim edilmişdir.

## Əsas maliyyə və əməliyyat nəticələri

Əvvəlki illərdə olduğu kimi, hesabat dövründə də ASCO illik fəaliyyətini mənfəətlə və müsbət maliyyə nəticələri ilə başa vurmağa nail olmuşdur. Belə ki, 2022-2023-cü illərdə Gəmiçiliyin mənfəəti müvafiq olaraq 65 milyon AZN və 44 milyon AZN təşkil etmiş, EBITDA göstəricisi müvafiq olaraq 190 milyon AZN və 157 milyon AZN olmuşdur. Gəmiçilik yarandığı dövrdən etibarən kapitalizasiyası 160% artmış və bu göstərici 2023-cü ildə 1.4 milyard AZN təşkil etmişdir.

Eyni zamanda, əməliyyat nəticələrində müsbət tendensiya müşahidə olunmuşdur. Belə ki, ASCO-nun gəmiləri ilə ümumi yükdaşıma həcmi 2021-ci il ilə müqayisədə 65%, 2022-ci il ilə müqayisədə isə 20% artaraq 2023-cü ildə 9 mln ton təşkil etmişdir. Əvvəlki hesabat dövrü olan 2021-ci il ilə müqayisədə tankerlərlə daşıma həcmində 158% artım, bərə gəmiləri ilə daşıma həcmində isə 33% artım qeydə alınmışdır. Eyni zamanda, 2023-cü ildə bərə gəmiləri ilə 72,849 ədəd vaqon və avtotexnika daşınmışdır ki, bu da 2021-ci il ilə müqayisədə 19% artım deməkdir.

ASCO tərəfindən mövcud yük həcmlərinin qorunması, eləcə də Xəzər üzərindən marşruta yeni yüklərin cəlb edilməsi məqsədi ilə, bir sıra yüklərin daşınmasına endirimli tariflər tətbiq edilmişdir. Eyni zamanda, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində Çin-Avropa istiqamətində konteyner və müxtəlif vaqon yüklərinin daşınmasına tətbiq olunan endirimlər hesabat dövründə də qüvvədə saxlanılmışdır.



Bundan əlavə, Xəzərdən kənar bazarlarda yükdaşıma fəaliyyətinin genişləndirilməsi istiqamətində mühüm layihələr icra edilmişdir. Belə ki, Aframax tipli gəmilərin alınması ilə, ASCO iri həcmli tanker gəmiləri ilə daşımalar bazarına daxil olmuş, bu məqsədlə Gəmiçiliyin tarixində ilk dəfə olaraq istiqrazlar tədavülə buraxılmışdır. Eləcə də, ASCO üçün Xəzərdən kənarda daha bir yeni seqment olan Handysize tipli quru yük gəmiləri bazarına daxil olmaq məqsədi ilə, müvafiq işlər aparılmış və sözügedən tip gəmilərin alışının maliyyələşdirilməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə əməkdaşlıq qurulmuşdur.

Hesabat dövründə, neft və qaz sənayesinə ixtisaslaşmış ofşor donanma tərəfindən göstərilən xidmətlər üzrə işlənmiş günlər 2022-ci ildə 37,439 gün, 2023-cü ildə isə 37,111 gün təşkil etmişdir. ASCO-nun əsas strateji partnyoru olan Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birgə, beynəlxalq nüfuzlu McKinsey şirkəti cəlb edilməklə, SOCAR-ın ixtisaslaşmış gəmilərə olan uzunmüddətli tələbatının müəyyən edilməsi üzrə layihə həyata keçirilmişdir. Layihə çərçivəsində SOCAR-ın uzunmüddətli tələbatına uyğun optimal donanmanın həcmi, bu tələbatı qarşılamaq üçün ilkin mərhələdə tikilməsi zəruri olan yeni gəmilər müəyyən edilmişdir. Hesabat dövründə ASCO-nun ixtisaslaşdırılmış gəmiləri Xəzərin Azərbaycan sektoru ilə yanaşı, bu sektordan kənarda həyata keçirilən müxtəlif layihələrə də cəlb edilmişdir.

Gəmiçiliyin strukturuna daxil olan həm “Bibiheybət” Gəmi Təmiri Zavodu (BGTZ), həm də “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu (ZGTTZ) tərəfindən göstərilən təmir xidmətlərinin sayında artım qeydə alınmışdır. Belə ki, 2021-ci il ilə müqayisədə 2023-cü ildə BGTZ-də təmir işlərinin sayında 46%, ZGTTZ-də isə 52% artım olmuşdur. Bundan əlavə, 2023-cü ildə ZGTTZ-də inşa edilən ilk gəmi istismara qəbul edilmişdir.

Donanmanın yenilənməsi istiqamətində, Bakı Gəmiqayırma Zavodunda inşa edilən “Zərifə Əliyeva” Ro-Pax/Bərə tipli gəmi və “Akademik Xoşbəxt Yusifzadə” tankeri 2022-ci ildə istismara verilmişdir. Bununla da, ASCO yarandığı dövrdən istifadəyə verilən yeni gəmilərin sayı 28 ədədə çatmışdır. Eyni zamanda, 2022-2023-cü illər ərzində 1 ədəd



Ro-Pax/Bərə tipli gəminin və 1 ədəd 8,000 ton dedveytli tankerin inşası üzrə BGZ-də əlavə yeni sifarişlər yerləşdirilmişdir. Ümumilikdə, hazırda BGZ-də 1 ədəd Ro-Pax/Bərə tipli gəminin və 2 ədəd tankerin tikintisi, ASCO-nun "Zığ" zavodunda isə 4 ədəd kiçik su tutumlu yedək katerinin tikintisi davam edir.

## Korporativ idarəetmə

Korporativ idarəetmə sahəsində hesabat dövründə baş verən əsas hadisələrdən biri Gəmiçiliyin 2030-cu ilə qədər Strategiyasının yenilənməsi və ASCO-nun Müşahidə Şurası tərəfindən konseptual nöqteyi-nəzərdən məqbul hesab edilməsi olmuşdur. Bundan əlavə, "Lloyd's Register" beynəlxalq təsnifat cəmiyyəti tərəfindən aparılan audit yoxlamalarının nəticələrinə əsasən, ASCO-ya ISO 37001 – "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartı üzrə uyğunluq sertifikatı təqdim edilmişdir. Həmçinin, 2022-ci ildə FitchRatings agentliyi tərəfindən ASCO-nun maliyyə vəziyyəti təhlil edilərək, müsbət kredit reytinqi təqdim edilmişdir. Qeyd edildiyi kimi, hesabat dövründə Handysize tipli gəmilərin alınmasının maliyyələşdirilməsi üçün, AYİB ilə əməkdaşlığa başlanılmışdır. Bu əməkdaşlıq çərçivəsində AYİB tərəfindən "Drewry", "DNV", "Clifford Chance" və digər beynəlxalq nüfuzlu məsləhətçi şirkətlər cəlb edilməklə, eləcə də AYİB-in müxtəlif ixtisaslaşmış ekspertləri tərəfindən ASCO-da bir sıra istiqamətlərdə geniş diaqnostikalar aparılmışdır. 2023-cü il ərzində bütün diaqnostika layihələri uğurla tamamlanmış, müsbət rəy əldə edilmiş və nəticədə



Handysize tipli gəmilərin alınması üçün ASCO-ya kreditin ayrılması AYİB-nin Direktorlar Şurası tərəfindən təsdiq edilmişdir. Qeyd edək ki, sözügedən kredit müqaviləsi 1 fevral 2024-cü il tarixində imzalanmışdır.

2023-cü ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq Sərəncam imzalanmış və hazırda bu Sərəncama uyğun olaraq, ASCO-da özəl investisiyaların cəlb edilməsi istiqamətində layihə icra edilir. Bu çərçivədə, ASCO-nun özəl investisiyaların cəlb edilməsinə hazırlığının qiymətləndirilməsi, özəl investisiyaların cəlb edilməsi üzrə uyğun mexanizmin seçilməsi məqsədi ilə, beynəlxalq nüfuzlu məsləhətçi şirkət Boston Consulting Group (BCG) və hüquq məsləhətçisi qismində Deloitte&Touche şirkəti cəlb edilmişdir. Layihənin 2024-cü ildə tamamlanması nəzərdə tutulmuşdur.

Hesabat dövründə həmçinin struktur optimallaşdırılması üzrə işlər davam etdiril-

mişdir. Belə ki, bəzi qeyri-profil sahələr aidiyyəti üzrə təhvil verilmiş, bəzi belə sahələr isə ləğv edilmişdir. Həmçinin, SAP ERP sisteminin PM – gəmi təmiri və texniki xidmətin planlaşdırılması modulu müvəffəqiyyətlə istifadəyə verilmiş, SAP sistemi çərçivəsində məlumat mübadiləsinin operativliyinin artırılması məqsədi ilə, SAP serverləri "S4 / HANA" sisteminə keçirilmişdir.

2022-ci ildə ASCO-nun əməkdaşları üçün elektron kabinet – "My ASCO" mobil tətbiqi istifadəyə verilmişdir. Bu mobil tətbiq əməkdaşlar üçün bir sıra xidmətlərin rəqəmsal platformaya keçirilərək istifadə rahatlığının və operativliyinin təmin edilməsinə, elektron xidmətlərin ASCO-da çalışan dənizçilər üçün əlçatanlığının artırılmasına xidmət edir. Mobil tətbiq vasitəsi ilə, ASCO-nun əməkdaşları üçün müxtəlif məlumatların, sənəd, çıxarış və arayışların əldə edilməsi, eləcə də sorğu, şikayət və təkliflərin göndərilməsi imkanı yaradılmışdır. Eyni zamanda, mobil tətbiq çərçivəsində korporativ sosial şəbəkə fəaliyyət göstərir.

## İnsan resursları

Hesabat dövrünün sonuna ASCO-nun işçi qüvvəsi 7,798 nəfər, o cümlədən üzən heyət 4,266 nəfər və sahil heyəti isə 3,532 nəfər təşkil etmişdir. Personal arasında qadınların sayı 644 nəfər olmuşdur ki, bu da ümumi işçilərin sayının 8%-ni təşkil etmişdir.

ASCO-da yerli dənizçi kadrların yetişdirilməsi, personalın fərdi və peşəkar inkişafının təmin edilməsi, gender bərabərliyi və sağlam korporativ iş mühitinin təmin edilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Bu istiqamətdə ASCO-da Gender məsələləri və xüsusi həssas qruplarla iş üzrə müvafiq və-



zifə təsis edilmişdir. Bundan əlavə, 2023-cü ildə ASCO-nun "Qısnama və zorakılığa qarşı mübarizə və ayrı-seçkiliyə yol verilməməsi Siyasəti" hazırlanaraq tətbiq edilmişdir. Ümumilikdə hesabat dövrü ərzində, ASCO-da irq, gender, din, siyasi baxış, yaş və əlilliyə görə ayrıseçkilik hadisəsi baş verməmişdir.

Personalın peşəkar keyfiyyətlərinin inkişaf etdirilməsi, bilik və bacarıqlarının artırılması məqsədi ilə, əməkdaşlar mütəmadi olaraq müxtəlif sahələr üzrə yerli və beynəlxalq təlimçilərin iştirakı ilə keçirilən təlimlərə cəlb olunurlar. Bu istiqamətdə hesabat dövründə ASCO-da strateji çeviklik, liderlik, idarəetmə, emosional zəka, ingilis dili kursları, ISO 37001 standartı üzrə Korrupsiyaya qarşı mübarizə idarəetmə sistemi, daxili audit və digər müxtəlif və fərqli mövzularda təlimlər təşkil edilmişdir.

## Sosial fəaliyyət

Korporativ sosial məsuliyyət və sosial sahədə fəaliyyət Gəmiçilik üçün xüsusi əhəmiyyət kəsb edir. Cəmiyyətin xüsusi həssas qrupdan olan üzvləri, şəhid ailələri, əmək qabiliyyətini itirmiş insanlar, aztəminatlı ailələr və kimsəsiz uşaqlar daim ASCO-nun diqqət mərkəzindədir və Gəmiçilik tərəfindən onlara mütəmadi olaraq yardımlar edilir. Eyni zamanda, 10 may 2023-cü il tarixində, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi günündə ASCO tərəfindən inşa edilmiş 5 binadan ibarət mənzil kompleksi uzun illər mənzil növbəsində duran, mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan dənizçilərin istifadəsinə verilmişdir. ASCO tərəfindən ölkədə idmanın təşviq etdirilməsi, idmana və sağlam həyat tərzinə marağın artırılması istiqamətində dəstəyin göstərilməsi, o cümlədən, ölkədə müxtəlif idman növlərinin inkişafına töhfə verilməsi məqsədilə, Gəmiçilik tərəfindən "Səbail" Peşəkar Futbol Klubuna və Azərbaycan Respublikası Yelkənli İdman Federasiyası İctimai Birliyinə sponsorluq edilir.




2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, ASCO-nun isə 165 illiyi qeyd edilmişdir. Bununla əlaqədar, müvafiq tədbirlər planı tərtib edilmiş və il ərzində silsilə tədbirlər həyata keçirilmişdir. Belə ki, bu çərçivədə müxtəlif mövzularda sərgilər, ağacəkmə və iməclik aksiyaları, idman yarışları, "Ulu Öndər Heydər Əliyev və Milli Gəmiçilik siyasəti" kitabının təqdimatı, Vətən Müharibəsində iştirak edən ASCO əməkdaşlarının "Heydər Əliyev" zirvəsinə səfəri, ADDA-da beynəlxalq elmi-texniki konfrans təşkil edilmişdir.

## Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi

Fəaliyyətin bütün istiqamətlərində istehsalat zamanı əməkdaşların təhlükəsizliyinin və sağlamlığının təmin edilməsi, əməliyyatlar nəticəsində ətraf mühitə təsirin minimuma endirilməsi ASCO-nun prioritet hədəflərindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər nəticəsində, hesabat dövrü ərzində istehsalatda ölüm halı baş verməmiş və ASCO-da ekoloji yönümlü hər hansı ciddi hadisə qeydə alınmamışdır. LTİ üzrə tezlik əmsalı (hər 1,000,000 işlənmiş saata görə) 2022-ci ildə 0.35, 2023-cü ildə 0.28 olmuşdur ki, bu da beynəlxalq təcrübə ilə müqayisədə müsbət nəticədir.

Eyni zamanda, Gəmiçiliyin personalı üçün könüllü tibbi sığorta müqaviləsi təmin olunmuşdur. Bu tibbi sığorta vasitəsilə ASCO-nun bütün əməkdaşları, eləcə də onların ailə üzvləri ölkənin müxtəlif klinika və xəstəxanalarında ödənişsiz və ya güzəştli şərtlərlə tibbi xidmətlərdən yararlanmaq imkanına sahibdirlər. Ətraf mühitin mühafizəsinin təmin edilməsi məqsədi ilə, ASCO-nun fəaliyyəti zamanı yaranan müxtəlif tullantıların yığılaraq təhvil verilməsi, su, təbii qaz və yanacaqdan istifadə zamanı səmərəliliyin təmin edilməsi, bununla da buraxılan emissiyaların minimuma endirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Bu istiqamətdə tədbirlərin koordinasiyasının təmin edilməsi və kompleks proqramların hazırlanması məqsədi ilə, ASCO-da “Dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə Direktor” vəzifəsi təsis edilmiş, aidiyyəti rəhbər şəxs və struktur bölmələrin əməkdaşlarından ibarət müvafiq əlaqələndirmə qrupu yaradılmışdır. Görülən tədbirlər nəticəsində ASCO-da elektrik enerjisi sərfiyyatında 12%, təbii qaz sərfiyyatında isə 7% qənaət əldə edilmişdir. Eyni zamanda, ASCO-nun fəaliyyəti nəticəsində mühərrik yanacağının istifadəsində 93% azalma qeydə alınmışdır.



# 2022-2023-cü illərə ümumi baxış

## ASCO-nun əsas fəaliyyət sahələri

- Yükdaşımalar
- Neft və qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətlərinin göstərilməsi
- Gəmi təmiri və tikintisi
- Təhsil və təlim

## Nəqliyyat donanmasının tərkibi

51 gemi

- **20 ədəd** Tanker gəmisi
- **14 ədəd** Quru yük gəmisi
- **17 ədəd** Bərə, Ro-Ro və Ro-Pax tipli gəmi

## İxtisaslaşmış ofşor donanmasının tərkibi

198 gemi

- **21 ədəd** Kran gəmisi
- **24 ədəd** Təchizat-yedək gəmisi
- **3 ədəd** Yedək gəmisi
- **8 ədəd** Liman-yedək gəmisi
- **23 ədəd** Sərnişin gəmisi
- **5 ədəd** Yanğınsöndürən gəmi
- **5 ədəd** Mühəndis-geoloji gəmi
- **2 ədəd** Sualtı borudüzən gəmi
- **10 ədəd** Dalğıc gəmisi
- **4 ədəd** Bunkerləmə gəmisi
- **12 ədəd** Maye, fekal və neftlə çirklənmiş sular daşıyan gəmi
- **5 ədəd** Dibdərinləşdirmə gəmiləri
- **5 ədəd** Barjalar
- **57 ədəd** Kiçik su tutumlu kater
- **8 ədəd** Yaxta
- **3 ədəd** Üzən emalatxana
- **3 ədəd** Digər gəmilər

## ASCO aşağıdakı sertifikatlara sahibdir və müvafiq konvensiyaların tələblərinə cavab verir

- **ISO 9001:2015** (Keyfiyyətin idarə edilməsi)
- **ISO 14001:2015** (Ekoloji idarəetmə)
- **ISO 50001:2011** (Enerji səmərəliliyinin idarə edilməsi)
- **ISO 45001:2018** (Sağlamlıq və təhlükəsizlik idarəetmə sistemi)
- **ISO 37001:2016** (Anti-korrupsiya idarəetmə sistemi)
- **ISM code 2018** (Təhlükəsizliyin beynəlxalq idarəetmə sistemi)
- **ISPS code 2003** (Gəmi və Liman vasitələrinin mühafizəsi haqqında beynəlxalq məcəllə)
- **SOLAS** (Dənizdə həyat təhlükəsizliyi üzrə beynəlxalq konvensiya)
- **MARPOL** (Dəniz çirklənməsi əleyhinə konvensiya)
- **STCW** (Təlimləndirmə standartları, Sertifikatlaşma və Növbəçəkmə üzrə Beynəlxalq Konvensiya)

### $CO_2$ Ekoloji idarəetmə

2021-ci il ilə müqayisədə 2023-cü ildə nəticələr:

- Təbii qaz sərfiyyatında: 7% azalma
- Elektrik enerjisinin sərfiyyatında: 12% azalma
- Mühərrik yanacağın istifadəsində: 93% azalma

### İnsan resursları

- 2022-ci ildə personalın sayı: 7,923 nəfər
- 2023-cü ildə personalın sayı: 7,798 nəfər

### Sağlamlıq

- LTI tezlik əmsalı:

  2021-ci ildə: 0.4

  2022-ci ildə: 0.35

  2023-cü ildə: 0.28

- 2021-2023-cü illər ərzində ölüm halları: 0

### Sosial sahə

2021-ci il ilə müqayisədə 2023-cü ildə nəticələr:

- Maddi yardım göstərilənlərin sayında: 32% artım

## Maliyyə nəticələri

Mənfəət (vergidən sonra):

2021-ci ildə 52 mln. AZN

2022-ci ildə 65 mln. AZN

2023-cü ildə 44 mln. AZN

İnvestisiya qoyuluşu:

2021-ci ildə 123 mln. AZN

2022-ci ildə 174 mln. AZN

2023-cü ildə 258 mln. AZN

ASCO-nun fəaliyyətə başlamasından etibarən kapitalizasiyada artım:

160 %

## Əməliyyat nəticələri

| Yükdaşımalar | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Tanker daşımaları, ton | 1,898,704 | 3,286,452 | 4,897,374 |
| Quru yük daşımaları, ton | 1,042,105 | 972,739 | 749,478 |
| Bərə gəmiləri ilə daşıma , ton | 2,527,233 | 3,259,509 | 3,363,538 |
| Cəmi | 5,468,042 | 7,518,700 | 9,010,390 |

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Daşınmış vaqonların sayı | 30,466 | 38,635 | 37,642 |
| Daşınmış avtotexnikanın (TİR) sayı | 30,893 | 35,290 | 35,207 |

İxtisaslaşmış ofşor donanması tərəfindən işlənmiş günlər:

2021-ci ildə 37,802 gün

2022-ci ildə 37,439 gün

2023-cü ildə 37,111 gün

Zavodlar tərəfindən həyata keçirilmiş gəmi təmiri işlərinin sayı:

2021-ci ildə 763 təmir işi

2022-ci ildə 901 təmir işi

2023-cü ildə 1,146 təmir işi

# ASCO HAQQINDA



# ASCO-NUN TARİXİ

Azərbaycan gəmiçiliyinin hüquqi əsası 1858-ci ildə "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulmuşdur. Gəmiçilik sahəsində 165 illik zəngin təcrübəyə və qədim tarixə malik olan ASCO Xəzər dənizində ən böyük daimi donanmaya sahibdir.

**1858**

"Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin əsasının qoyulması




**1866**

"Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsinin qoyulması



**1873**

Dünyada ilk neftdaşıyan "Aleksandr" barjının Xəzərdə istismara verilməsi



**1878**



Dünyada ilk tanker "Zərdüşt"ün Xəzərdə istismara verilməsi

**1881**

Gəmilərin dənizçi kadrlarla təmin edilməsi üçün Bakı Dənizçilik siniflərinin fəaliyyətə



**1903**

İlk daxili yanma mühərrikli "Vandal" gəmisinin Xəzər dənizində istismara verilməsi



**1908**

İlk reversivli iki mühərriklə çalışan "Delo" gəmisinin Xəzər dənizində istismara verilməsi

**1949**

"Azərdənizneft" birliyinin tərkibində "Üzən vasitələr" idarəsinin yaradılması ilə Xəzər Dəniz Neft Donanmasının təməlinin qoyulması

**1960**

Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilərin dünya sularına çıxması

**1962**



Xəzərdə ilk bərə keçidinin inşası (Türkmənbaşı) və bərə gəmilərin fəaliyyətə başlaması



## 1969-1987

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə hər il 20-30 gəmi olmaqla, ümumilikdə 400-dən çox gəminin tikintisi və donanmanın sürətli inkişaf dövrü

## 1975-1985



Nəqliyyat donanması üçün yeni tankerlərin, universal quru-yük gəmilərinin və bərələrin alınması və tikintisi

## 1997-2010

Xəzərdən kənarda fəaliyyət göstərən gəmilərin Xəzərə gətirilməsi

## 2003-2011



Tanker donanmasının yenilənməsi

## 2004



Xəzərdə ən böyük 13,000 ton dedveytə malik ilk tankerin (“Prezident Heydər Əliyev” tankeri) istismara verilməsi

## 2005-2012



Bərə donanmasının yenilənməsi

## 2013

Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilməsi ilə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin yaradılması

## 2014-2023



Donanmaların yenilənməsi (28 ədəd yeni gəminin istifadəyə verilməsi)

## 2014

Xəzərdən kənarda fəaliyyətin bərpa edilməsi

## 2018

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rebrendinqi və fəaliyyətini ASCO adı altında davam etdirməsi

## 2019



Azərbaycanda inşa edilən ilk tankerin (“Laçın”) istismara verilməsi



ASCO istiqrazlarının tədavülə buraxılması

ASCO-nun Zığ Gəmi Təmiri Və Tikintisi Zavodunda inşa edilən ilk gəminin (“ASCO-1”) istismara verilməsi

## 2021



Azərbaycanda inşa edilən ilk Ro-Pax/Bərə tipli gəminin (“Azərbaycan”) istismara verilməsi

Xəzərdə ilk gəmi-muzey, dünyada isə ilk tanker-muzeyin (“Suraxanı”) istifadəyə verilməsi



## 2023

“Aframax” tipli tankerlərin (“Qarabağ”, “Şuşa” və “Zəngəzur”) istismara verilməsi





# GƏMİÇİLİYİN DƏYƏRLƏRİ, MİSSİYASI VƏ STRATEJİ HƏDƏFLƏRİ

Slogan :

## “Avropa və Asiya arasında Sizin ən qısa körpünüz”

## Dəyərlər :

- Keyfiyyətli xidmət
- Etibarlı tərəfdaş
- Təhlükəsizlik və ətraf mühit
- Dayanıqlı inkişaf
- Şəffaflıq
- Ədalətlilik və peşəkarlıq

## Missiya :

Azərbaycan üzərindən tranzit yükdaşımalarda və respublikamızın strateji neft-qaz layihələrində ölkənin gəmiçilik xidmətlərinə olan tələbatını təmin etmək, dövlətin bu sahələrdə siyasətinə və Azərbaycanın regional nəqliyyat-logistika qovşağına çevrilməsinə töhvə vermək

## Gələcəyə baxış:

Səmərəli fəaliyyət göstərən, dayanıqlı inkişafını və əməliyyatların təhlükəsizliyini təmin edən müasir gəmiçilik şirkətinin qurulması, Xəzərdə dövlət siyasətinin dəstəklənməsi ilə bərabər Xəzərdən kənarda beynəlxalq gəmiçilik fəaliyyətinin genişləndirilməsi

## Strateji hədəflər:

Hədəf 1: Nəqliyyat-ticarət donanmasının yenilənməsi, Azərbaycanın tranzit strategiyasına töhvə verilməsi

Hədəf 2: İxtisaslaşmış ofşor donanmasının yenilənməsi və Xəzər dənizinin Azərbaycan sektorunda lider mövqenin qorunması

Hədəf 3: Xəzərdən kənar hövzələrdə fəaliyyətin genişləndirilməsi

Hədəf 4: Ekoloji və sosial idarəetmə (ESG) sahəsində qabaqcıl təşəbbüslərinin tətbiq edilməsi

Hədəf 5: Rəqəmsal transformasiya və optimal təşkilati struktur

Hədəf 6: Maliyyə stabilliyi və Səhmdara dəyərin yaradılması


KARABAKH
TUG



# ƏSAS FƏALİYYƏT SAHƏLƏRİ

**ASCO-nun əsas fəaliyyət sahələrinə aşağıdakı istiqamətlər aiddir:**



**Yükdaşımalar**



**Neft və qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətlərinin**



**Gəmi təmiri və tikintisi**



**Təhsil və təlim**

## Yükdaşımalar

ASCO tərəfindən həm Xəzər dənizində, həm də Xəzərdən kənar hövzələrdə - əsasən Qara və Aralıq dənizi hövzələrində müxtəlif növ yüklərin daşınması xidmətləri təqdim edilir. Bu xidmətlər ASCO-nun strukturunda fəaliyyət göstərən Dəniz Nəqliyyat Donanmasına (bundan sonra nəqliyyat donanması) məxsus gəmilər tərəfindən həyata keçirilir. Gəmiçiliyin nəqliyyat donanmasına tankerlər, universal quru yük gəmiləri, bərələr, Ro-Ro və Ro-Pax tipli gəmilər daxildir. Aşağıdakı cədvəldə ASCO-nun nəqliyyat donanmasının tərkibi təqdim edilmişdir.

**Nəqliyyat donanmasının tərkibi, ədəd:**

| Gəmi tipi | Say |
|---|---|
| Tankerlər | 20 |
| Universal quru yük gəmiləri | 14 |
| Bərələr, Ro-Ro və Ro-Pax tipli gəmilər | 17 |
| Cəmi | 51 |



Xəzərdə ASCO-nun tanker gəmiləri ilə əsasən Qazaxıstan və Türkmənistan limanlarından Azərbaycan limanları istiqamətində xam neft və neft məhsullarının daşınması təmin olunur. Eyni zamanda, ASCO-nun tankerləri Xəzərdən kənar hövzələrdə - Qara və Aralıq dənizi hövzələrində maye yüklərin daşınmasında iştirak edir. Hazırda, ASCO-nun Xəzərdən kənar hövzələrdə 2 ədəd, Xəzər dənizində isə 18 ədəd tanker gəmisi istismar edilir.

Gəmiçiliyin universal quru yük gəmiləri Xəzər dənizində, eləcə də Xəzərdən kənar hövzələrdə taxıl, buğda, arpa, qarğıdalı, kəpək, ağac və taxta məmulatları, metal məmulatları, gübrə, tikinti materialları, konteynerlər və digər müxtəlif növ quru yüklərin daşınmasında iştirak edir. Hazırda, ASCO Xəzər dənizində 10 ədəd, Xəzərdən kənar hövzələrdə isə 4 ədəd quru yük gəmisi istismar edir.

ASCO-nun donanmasında olan Bərələr, Ro-Ro və Ro-Pax tipli gəmilər Xəzər dənizində müntəzəm xətti səfərlər həyata keçirməklə, Azərbaycan ilə Qazaxıstan və Türkmənistan limanları arasında dəmir yolu vaqonlarının, konteynerlərin, yük maşınlarının (TİR), digər avtotexnikanın, eləcə də sərnişinlərin daşınmasını təmin edirlər.

## Neft və qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətlərin göstərilməsi

Gəmiçiliyin strukturunda fəaliyyət göstərən Xəzər Dəniz Neft Donanması (bundan sonra ixtisaslaşmış ofşor donanması) neft və qaz hasilatının bütün proseslərində, o cümlədən dəniz özülləri və estakadalarının tikilməsi, coğrafi-geoloji tədqiqatların həyata keçirilməsi, sualtı neft-qaz boru kəmərlərinin çəkilməsi və istismar zamanı onların təmiri, dənizdəki neft obyektlərinin yanğından mühafizəsi, neftçilərin iş yerlərinə çatdırılması, həmçinin müxtəlif növ yüklərin (yanacaq-sürtkü materialları, içməli su, metanol, mal-material, avadanlıq, metal konstruksiyalar və s.) daşınması kimi kompleks xidmətlər təqdim edir. ASCO-nun ixtisaslaşmış ofşor donanmasında fəaliyyət göstərən 200-ə yaxın müxtəlif təyinatlı gəmi Xəzər dənizində, xüsusən də Xəzərin Azərbaycan sektorunda həyata ke-



çirilən bir çox strateji əhəmiyyətli neft-qaz layihələrinə, o cümlədən "Neft Daşları", "Nəriman Nərimanov", "28 may", "Abşeron", "Şah-Dəniz", "Bahar-Qum-Dəniz", "Azəri-Çıraq-Günəşli", "Ümid-Babək" və "Qarabağ" kimi layihələrə xidmət göstərir. Eyni zamanda, ixtisaslaşmış ofşor donanmasına ASCO-nun donanmasının daxili tələbatını təmin edən, o cümlədən gəmilərin limana giriş-çıxışı zamanı liman-yedəkləmə, gəmilərin yanacaqla təmin olunması, daxili təchizat və təminat kimi xidmətləri göstərən gəmilər də daxildir. İxtisaslaşmış ofşor donanmasının tərkibi aşağıdakı cədvəldə təqdim olunmuşdur.

**İxtisaslaşmış ofşor donanmasının tərkibi, ədəd:**

| Gəmi tipi | Say |
|---|---|
| Kran gəmiləri | 21 |
| Təchizat-yedək gəmiləri | 24 |
| Yedək gəmiləri | 3 |
| Liman-yedək gəmiləri | 8 |
| Sərnişin gəmiləri | 23 |
| Yanğınsöndürən gəmilər | 5 |
| Mühəndis-geoloji gəmilər | 5 |
| Sualtı borudüzən gəmilər | 2 |
| Dalğıc gəmiləri | 10 |
| Bunkerləmə gəmiləri | 4 |
| Maye, fekal və neftlə çirklənmiş sular daşıyan gəmilər | 12 |
| Dibdərinləşdirmə gəmiləri | 5 |
| Barjlar | 5 |
| Kiçik su tutumlu katerlər | 57 |
| Yaxtalar | 8 |
| Üzən emalatxanalar | 3 |
| Digər | 3 |
| **Yekun** | **198** |

## Gəmi təmiri və tikintisi

Gəmiçiliyin strukturuna daxil olan "Bibiheybət Gəmi Təmiri Zavodu" və "Zığ Gəmi Təmiri və Tikintisi Zavodu" sadəcə ASCO-nun donanmasında olan gəmilərin, eləcə də Xəzər dənizində fəaliyyət göstərən digər gəmiçilik şirkətlərinə məxsus bütün növ gəmilərin yüksək keyfiyyətlə təmirini həyata keçirir. Qeyd olunan zavodlarda aşağıdakı xidmətlər təqdim olunur:

- Əsaslı, tərsanə, cari və səfərlərarası naviqasiya təmir işlərinin həyata keçirilməsi;
- Zığ zavodunda kiçik su tutumlu xidmət katerlərinin tikintisi;
- Gəmi sistem və qurğularının, elektrik və radionaviqasiya avadanlıqlarının, mühərriklərin, cihazların quraşdırılması və sazlanması;
- Dalğıc işləri çərçivəsində su altında mühəndislik və hidro-texniki işlərin aparılması;
- Gəmilərin doka qaldırılaraq sualtı gövdə, sükan və vintlərinin yoxlanılması, onların təmizlənməsi və rənglənməsi;
- Hava ilə doldurulan xilasetmə sallarının, hidrostatik ayırıcı qurğuların, fərdi xilasetmə vasitələrinin yoxlanılması və təmiri;
- ASV tipli izolyasiya edən nəfəs aparatlarına texniki xidmət göstərilməsi və həmin aparatların təmiri;
- Müxtəlif növ ehtiyat hissələri, xüsusi boyalar və texniki vasitələrin hazırlanması.




## ASCO-nun strukturuna daxil olan Gəmi Təmiri Zavodlarındakı təmir tərsanələri

| Gəmi Təmiri Zavodunun adı | Tərsanənin adı | Tərsanənin qaldırma imkanı (ton) |
|---|---|---|
| Zığ Gəmi Təmiri və Tikintisi Zavodu | **Neptun** | **8,000** |
| | **Üzən tərsanə № 061** | **6,000** |
| Bibiheybət Gəmi Təmiri Zavodu | **Dok № 901** | **15,000** |
| | **Dok № 351** | **6,000** |
| | **Dok № 953** | **5,000** |
| | **Dok № 856** | **4,500** |

## Gəmiçilik sahəsində təhsil və təlim

ASCO-nun tabeliyində dənizçi kadrların hazırlanmasını təmin edən aşağıdakı müəssisələr fəaliyyət göstərir:

- Azərbaycan Dövlət Dəniz Akademiyası
- Təlim Tədris Mərkəzi
- Azərbaycan Dənizçilik Kolleci

ASCO-nun strukturuna daxil olan, dənizçilik təhsilinin verilməsi üzrə 140 ildən çox təcrübəyə malik olan Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA və ya Akademiya) Azərbaycanda dənizçi peşəsinin inkişaf etdirilməsini və yüksək ixtisaslı yerli dənizçi kadrların hazırlanmasını təmin edir. Diplomu dünyanın 170-dən çox ölkəsi tərəfindən tanınan Akademiya, bu gün Beynəlxalq Dənizçilik Ali Məktəbləri Assosiasiyasının və MDB ölkələrinin dənizçilik ali məktəblərinin Tədris-Metodiki Şurasının üzvüdür, Xəzəryanı dövlətlərin Ali Məktəbləri Assosiasiyasının fəal iştirakçısı və dünyanın 11 ölkəsinin 18 universiteti ilə ikitərəfli əməkdaşlıq edən ali təhsil müəssisəsidir. Akademiyada təhsilin bütün pillələrində (bakalavr, magistratura, doktorantura) müasir standartlara cavab verən yüksək keyfiyyətli tədris sistemi yaradılmışdır. Hazırda, ADDA-da “Dəniz naviqasiyası mühəndisliyi”, “Gəmiqayırma və gəmi təmiri mühəndisliyi”, “Gəmi energetik



qurğularının istismarı mühəndisliyi" və "Elektrik və elektronika mühəndisliyi" ixtisasları üzrə tədris həyata keçirilir. Akademiyada azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində də tədris aparılır.

ADDA-nın nəzdində fəaliyyət göstərən dənizçilərin və dənizdə işləyən heyətin peşəkarlıq səviyyəsinin artırılması, onların beynəlxalq konvensiya və standartlara uyğun sertifikatlaşdırılmasını təmin edən Təlim Tədris Mərkəzi (TTM) fəaliyyət göstərir. TTM-də azərbaycan, rus və ingilis dillərində keçirilən təlimlər Dövlət Dəniz və Liman Agentliyi tərəfindən akkreditasiya olunmuşdur və Amerika Gəmiçilik Bürosu (American Bureau of Shipping - ABS), The Nautical İnstitute və Bureau Veritas təşkilatları tərəfindən sertifikatlaşdırılmışdır. Dünyada müasir dinamik mövqe saxlama (DP2) simulyatoru üzrə "DP Induction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri olan TTM Xəzər regionunda bu sahədə fəaliyyət göstərən yeganə təşkilatdır.

Azərbaycan Dənizçilik Kolleci (ADK və ya Kollec) ADDA-nın nəzdində fəaliyyət göstərən və orta ixtisas təhsili təqdim edən təhsil müəssisəsidir. Kollecdə gəmi sürücülüyü, gəmi energetik qurğularının istismarı və elektrik təchizatı ixtisasları üzrə mütəxəssislər hazırlanır.



# ƏMƏLİYYAT MARŞRUTLARI

165 illik zəngin təcrübəyə malik olan ASCO yükdaşıma xidmətlərini həm Xəzər dənizində, həm də Xəzərdən kənar hövzələrdə, neft-qaz sənayesinə ixtisaslaşmış ofşor xidmətləri isə yalnız Xəzər hövzəsində təqdim edir.

**Xəzər dənizindən kənarda yükdaşıma marşrutları (Tanker və Quru yük gəmiləri):**





Xəzərdə tankerlərlə daşıma marşrutları:






Xəzərdə quru yük gəmiləri ilə daşıma marşrutları:






Bərə, Ro-Ro və Ro-Pax tipli gəmilərlə daşıma marşrutları:






İxtisaslaşmış ofşor donanmasının əsas əməliyyat sahəsi:



# ASCO-nun TƏŞKİLATİ STRUKTURU

- Müşahidə Şurasının üzvləri

- Sədrin birinci müavini Mübariz Cabbarov
  - Birinci müavinin müşaviri
  - İstismar-kommersiya departamenti
  - Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamenti
  - Layihələrin idarəedilməsi departamenti
  - Dəniz Nəqliyyat Donanması
  - Xəzər Dəniz Neft Donanması
  - "ASCO Turkey Gemi işletmeciliyi" Anonim Şirketi
  - "Xəzər Dəniz Gəmiçiliyi" MMC
  - ASCO Shipmanagement AFEZCO
- Sədr müavini Cəlal Fərəcli
  - Sədr müavininin müşaviri (vergi məsələləri üzrə)
  - Maliyyə və uçot departamenti
  - İqtisadi təhlil və proqnozlaşdırma departamenti
- Sədr müavini Cəbrayıl Mahmudlu
  - Satınalmalar departamenti
  - Sosial inkişaf və nəqliyyat departamenti (Sosial sahə üzrə)
  - Əsaslı tikinti və təmir şöbəsi
  - İstehsalat Xidmətləri İdarəsi
  - "Dənizçi təmir-tikinti" MMC
  - "Dənizçi" Mənzil-tikinti kooperativi
  - "Yaxt Klub" MMC
- Sədr müavini Nəzrəddin Əhmədzadə
  - Məxfi rejim və hərbi səfərbərlik şöbəsi
  - Sosial inkişaf və nəqliyyat departamenti (Nəqliyyat sahəsi üzrə)
  - "ASCO Nəqliyyat" MMC



Müşahidə Şurasının Sədri Samir Şərifov
Strategiya və investisiyalar komitəsi
Təyinat və mükafatlandırma komitəsi
Audit komitəsi
Korporativ katib
İdarə Heyətinin Sədri Rauf Vəliyev
Texniki direktor Nurməhəmməd Talıbov
Sədr müavini Tariyel Mirzəyev
Sədr müavini Zaur Nağıyev
Dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə direktor Ələkbər Əzizli
Daxili audit departamenti (Müşahidə şurasının tabeliyində)
Texniki direktorun texniki innovasiyalar və yeni texnologiyalar üzrə müavini
Donanmanın texniki istismar departament
Mexanika və energetika üzrə baş mütəxəssis
Texniki şöbə
Rabitə və elektro-radionaviqasiya şöbəsi
“Bibiheybət” Gəmi Təmiri Zavodu
“Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu
“ASCO Mühəndislik” MMC
“Xəzər Dəniz Mühəndisliyi bürosu” MMC
Strateji inkişaf və investisiya layihələri departamenti
İnformasiya texnologiyaları departamenti
SA Maritime AFEZCO
Hüquq departamenti
İnsan resurslarının idarəedilməsi departamenti
İctimaiyyətlə əlaqələr departamenti
Azerbaijan Caspian Shipping Limited (Malta)
Azərbaycan Dövlət Dəniz Akademiyası
Təlim Tədris Mərkəzi
Azərbaycan Dənizçilik kolleci
Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamenti
Dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə direktorun gender məsələləri və xüsusi həssas qruplarla iş üzrə müavini
Sədrin baş müşaviri
Sədrin müşavirləri Sədrin köməkçiləri Korporativ katib
Daxili nəzarət departamenti
Risklərin idarə edilməsi departamenti
İctimaiyyətlə əlaqələr departamenti
İnzibati işlər departamenti
Müşahidə Şurası
İdarə Heyəti
Departament/Şöbələr
Struktur idarələr
Hüquqi şəxs statuslu müəssisələr
Xarici törəmə və birgə müəssisələr

## STRUKTUR VAHİDLƏRİ, TÖRƏMƏ VƏ BİRGƏ MÜƏSSİSƏLƏR

Gəmiçilik yarandığı vaxtdan etibarən səmərəli idarəetmə və çevik biznes qərarlarının qəbul edilməsinə imkan verən effektiv idarəetmə strukturlarının yaradılmasına və daima inkişaf etdirilməsinə özəl diqqət ayırır. Bu məqsədlə, ASCO-nun balansında yer alan və əsas fəaliyyət sahəsi ilə əlaqəsi olmayan qeyri-profil struktur vahidlərinin Gəmiçiliyin strukturundan çıxarılması və təyinatına uyğun təşkilatlara təhvil verilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, 2014-cü ildən etibarən mənzil kommunal təsərrüfatı, dənizçilərin mədəniyyət evi, “Dənizçi” yardımçı kənd təsərrüfatı müəssisəsi, torpaq əraziləri kimi kənd təsərrüfatında istifadə olunan sahələr, Mərkəzi Dənizçilər Xəstəxanası, Dənizçilər Poliklinikası, “Yay” uşaq bağçası və Buzovna qəsəbəsində yerləşən pansionat, Tikiş sahəsi kimi strukturlar müvafiq qurumlara təhvil verilmişdir. Hazırda, digər qeyri-profil sahələrin təhvil verilməsi üzrə işlər davam etdirilir.

Eyni zamanda, hesabat dövründə ASCO-da struktur optimallaşdırılması üzrə işlər davam etdirilmişdir. Belə ki, ASCO-nun Müşahidə Şurasının qərarı ilə, “ASCO Logistics” və “ASCO Mühafizə” törəmə müəssisələrinin “ASCO Nəqliyyat” MMC-yə, “ASCO Tankers Gemi İşletmeciliği A.Ş”-nin isə “ASCO Turkey Gemi İşletmeciliği A.Ş”-yə qoşulması yolu ilə fəaliyyətlərinə xitam verilmişdir. Bundan əlavə, “Xəzər Dəniz Nəqliyyat Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutu” çevrilmə yolu ilə məhdud məsuliyyətli cəmiyyət təşkilati-hüquqi formasında, “ASCO Mühəndislik” adı altında yenidən təşkil edilmişdir.

Aşağıdakı cədvəldə ASCO-nun strukturuna daxil olan struktur vahidləri, o cümlədən törəmə və birgə müəssisələr haqqında ətraflı məlumat təqdim edilmişdir.



| ASCO-nun struktura daxil olan qurumun adı | Fəaliyyət sahəsi/Qısa profili | Təşkilati-hüquqi forması |
|---|---|---|
| Xəzər Dəniz Neft Donanması | Neft-qaz sənayəsinə ixtisaslaşmış ofşor xidmətləri təqdim edir. | Hüquqi şəxs statusuna malik olmayan idarə (təşkilat) |
| Dəniz Nəqliyyat Donanması | Beynəlxalq yük və sərnişin daşıma xidmətləri təqdim edir. | Hüquqi şəxs statusuna malik olmayan idarə (təşkilat) |
| Bibiheybət Gəmi Təmiri Zavodu | Müxtəlif növ gəmilərə təmir xidmətləri göstərir. | Hüquqi şəxs statusuna malik olmayan idarə (təşkilat) |
| Zığ Gəmi Təmiri və Tikintisi Zavodu | Müxtəlif növ gəmilərə təmir xidmətləri göstərir, eləcə də kiçik su tutumlu gəmilərin inşasını həyata keçirir. | Hüquqi şəxs statusuna malik olmayan idarə (təşkilat) |
| İstehsalat Xidmətləri İdarəsi | Dənizçilərə istehsalat və sosial xidmətlər göstərir. | Hüquqi şəxs statusuna malik olmayan idarə (təşkilat) |
| Azərbaycan Dövlət Dəniz Akademiyası | Gəmiçilik ixtisaslarını tədris edən ölkəmizdə yeganə ali təhsil müəssisəsidir. | Publik hüquqi şəxs |
| ADDA Təlim Tədris Mərkəzi | Beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq dənizçilərə icbari və əlavə təlimlərin təşkilini həyata keçirir. | Hüquqi şəxs statusuna malik olmayan idarə (təşkilat) |
| ADDA Azərbaycan Dənizçilik Kolleci | Gəmiçilik ixtisaslarını tədris edən ölkəmizdə yeganə orta-ixtisas təhsil müəssisəsidir. Sıravi heyət hazırlığı üçün təlim-tədris aparır. | Publik hüquqi şəxs |
| ASCO Turkey Gemi İşletmeciliği A.Ş | Bu törəmə müəssisə 2017-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərində təsis edilmişdir və ASCO-nun Xəzərdən kənar hövzələrdə üzən quru yük və tanker gəmilərinin səmərəli istismarının təşkil edilməsinə və yükdaşımalar zamanı meydana çıxan məsələlərin operativ həll olunmasına xidmət edir. | Türkiyə Respublikasında təsis edilmiş Səhmdar Cəmiyyəti |
| Azerbaijan Caspian Shipping Limited | 2016-cı ildə Malta Respublikasında təsis edilmişdir və ASCO-nun Xəzərdən kənarda istismar olunan gəmilərinin Avropa İttifaqı ərazilərində fəaliyyətinə dəstək göstərir. | Malta Respublikasında təsis edilmiş Məhdud Məsuliyyətli Cəmiyyət |
| ASCO Mühəndislik | Gəmi tikintisi və modernizasiyası üçün layihə-smeta sənədlərinin tərtib edilməsini, habelə gəmiçilik sahəsində elmi-tədqiqat işlərini həyata keçirir. | Məhdud Məsuliyyətli Cəmiyyət |
| Dənizçi Təmir-Tikinti | ASCO-nun tikinti xidmətlərinə olan tələbatın ödənilməsinə xidmət edir. | Məhdud Məsuliyyətli Cəmiyyət |
| "Dənizçi" Mənzil-Tikinti Kooperativi | Uzun illər mənzil növbəsində dayanan əməkdaşların mənzil şəraitinin yaxşılaşdırılması üçün onların mənzil ilə təmin olunma prosesinin idarəedilməsini təmin edir. | Mənzil Tikintisi Kooperativi |
| ASCO Nəqliyyat | ASCO-ya məxsus minik, yük və xüsusi texnikaya aid nəqliyyat vasitələrinin vahid mərkəzdən istismarına xidmət edir. | Məhdud Məsuliyyətli Cəmiyyət |
| Yaxt Klub | Dənizçilərə və ASCO-nun qonaqlarına mehmanxana və iaşə xidmətlərinin göstərilməsini, habelə yaxta və yelkənlərin körpüdə saxlanmasını həyata keçirir. | Məhdud Məsuliyyətli Cəmiyyət |
| SA Maritime AFEZCO | Aframax tipli tankerlərin alınması və istismar edilməsi məqsədi ilə, ASCO və SOCAR tərəfindən yaradılmış birgə müəssisədir. | Ələt Azad İqtisadi Zonasının rezidenti |
| ASCO Shipmanagement AFEZCO | Xəzərdən kənar hövzələrdə fəaliyyət göstərən gəmilərin texniki idarəetməsini həyata keçirir | Ələt Azad İqtisadi Zonasının rezidenti |
| Xəzər Dəniz Gəmiçiliyi | 2015-ci ildə Rusiya Federasiyasının Həştərxan şəhərində fəaliyyətə başlamışdır və ASCO-ya məxsus gəmilərin Volqa-Don və Volqa-Balt kanalları vasitəsilə Xəzərdən kənar hövzələrə operativ çıxışını təmin edir. | Rusiya Federasiyasında təsis edilmiş Məhdud Məsuliyyətli Cəmiyyət |
| Xəzər Dəniz Mühəndisliyi Bürosu | Layihə-konstruktor işləri sahəsində dünyada nüfuzlu Odessa Dəniz Mühəndisliyi Bürosu ilə ASCO arasında 2016-cı ildə yaradılmışdır. Gəmi layihələndirilməsi sahəsində təcrübə mübadiləsinə xidmət edir. | Məhdud Məsuliyyətli Cəmiyyət |

# DAYANIQLI İNKİŞAF



## HESABAT HAQQINDA

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin 2022-2023-cü illəri əhatə edən Dayanıqlı inkişaf haqqında hesabatı Global Reporting Initiative - GRI hesabatlılıq standartlarına əsaslanaraq, sosial, ekoloji və iqtisadi aspektləri əhatə edərək hazırlanmışdır. GRI standartlarına əsaslanan açıqlamalar cədvəli hesabatın 148-ci səhifəsində yer almışdır. Hesabat 2022-2023-cü illər ərzində ASCO-nun bütün struktur bölmələri və törəmə müəssisələri tərəfindən yerinə yetirilmiş işləri əks etdirir. Hesabatda qeyd olunan indikatorlar və cədvəllər yuxarıda sadalanan müxtəlif aspektləri əhatə edir və əvvəlki hesabat dövrü ilə müqayisə məqsədi ilə, 2021-ci il üzrə məlumatlar da təqdim olunmuşdur. Hesabatda, hər hansı bir indikator üzrə məlumat müəyyən bir struktur vahidi üzrə təqdim edildikdə və ya audit nəticəsində 2021-ci il göstəricilərində dəyişiklik zərurəti yarandıqda, bu barədə müvafiq indikator və cədvəllərin altında məlumatlandırıcı qeyd təqdim olunmuşdur. Əlavə olaraq, hesabatın müxtəlif bölmələrində növbəti hesabat dövründə həyata keçirilməsi planlaşdırılan işlər haqqında məlumatlar da təqdim edilmişdir.

ASCO-nun daxili nəzarət tədbirləri, dayanıqlı inkişaf haqqında hesabatın tərtibat prosesi və müstəqil kənar auditorlar tərəfindən həyata keçirilən yoxlamalar hesabatda əks olunan məlumatların doğruluğuna dair əminlik verir. Cari hesabat beynəlxalq audit şirkəti Deloitte tərəfindən audit olunmuş və Müstəqil Əminlik Hesabatı hesabatın 156-cı səhifəsində öz əksini tapmışdır.

## ƏHƏMİYYƏTLİ MÖVZULARIN QİYMƏTLƏNDİRİLMƏSİ

Hesabat hazırlanarkən ASCO-nun fəaliyyəti ilə bağlı Gəmiçiliyin tərəfdaşlarının, müştərilərinin, əməkdaşlarının, təchizatçılarının, eləcə də ictimaiyyət və media nümayəndələrinin təklif və fikirlərinin öyrənilməsi və hesabatda əks edilməsinə xüsusi əhəmiyyət verilir. Bu məqsədlə, onlayn sorğu keçirilmişdir. Onlayn sorğu ASCO-nun rəsmi internet səhifəsində və sosial şəbəkələrdəki rəsmi hesablarda dərc edilmişdir. Həm yerli, həm də xarici maraqlı tərəflərin fikirlərinin öyrənilməsi məqsədi ilə, sözügedən sorğu azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində də hazırlanmışdır. Əlavə olaraq, 2021-2023-cü illər üzrə sosial, ekoloji və iqtisadi aspektlər üzrə bütün müvafiq göstəricilər ətraflı təhlil edilmiş və Gəmiçiliyin bu sahələrdə məsul əməkdaşları ilə müsahibələr aparılmışdır. Keçirilən onlayn sorğu və müsahibələr əsasında, Gəmiçiliyin fəaliyyətində maraqlı tərəflər üçün əhəmiyyət daşıyan bir sıra məlumatlar təyin edilmiş və “Əhəmiyyətlilik Cədvəli” tərtib olunmuşdur. Yuxarıda qeyd olunan onlayn sorğunun nəticələri üzrə xülasə növbəti səhifələrdə təqdim olunmuşdur.

## ASCO-nun "Əhəmiyyətlilik Cədvəli"

| Mövzular | Mənfi təsir: Ciddilik | Mənfi təsir: Ehtimal | Mənfi təsir: İnsan hüquqları | Müsbət təsir: Vaciblik | Müsbət təsir: Ehtimal |
|---|---|---|---|---|---|
| **Ətraf mühit və iqlim dəyişikliyi** | | | | | |
| Emissiyalar | Qırmızı | Yaşıl | Qırmızı | Yaşıl | Yaşıl |
| Enerji istehlakı | Sarı | Yaşıl | Yaşıl | Sarı | Sarı |
| Su istehlakı | Qırmızı | Sarı | Sarı | Sarı | Sarı |
| Biomüxtəliflik | Qırmızı | Yaşıl | Qırmızı | Yaşıl | Sarı |
| Tullantılar və tullantılar | Sarı | Yaşıl | Qırmızı | Sarı | Yaşıl |
| Ekoloji qanun və qaydalara uyğunluq | Qırmızı | Yaşıl | Qırmızı | Sarı | Yaşıl |
| Təchizatçının ətraf mühitin qiymətləndirilməsi | Sarı | Yaşıl | Sarı | Yaşıl | Sarı |
| **Sosial** | | | | | |
| İşçilər və rəhbərlik arasında münasibətlər | Sarı | Yaşıl | Sarı | Sarı | Sarı |
| İş yerində sağlamlıq ölçüləri | Qırmızı | Yaşıl | Qırmızı | Yaşıl | Yaşıl |
| Əməyin mühafizəsi və təhlükəsizliyi | Qırmızı | Yaşıl | Qırmızı | Yaşıl | Yaşıl |
| Təlim və təhsil | Sarı | Yaşıl | Sarı | Sarı | Sarı |
| İnsan hüquqları praktikaları | Sarı | Yaşıl | Qırmızı | Yaşıl | Sarı |
| Müxtəliflik və bərabər imkanlar | Yaşıl | Yaşıl | Qırmızı | Sarı | Sarı |
| Uşaq və məcburi əmək | Qırmızı | Yaşıl | Qırmızı | Yaşıl | Yaşıl |
| Təchizatçının sosial qiymətləndirilməsi | Sarı | Sarı | Qırmızı | Sarı | Yaşıl |
| Sosial Məsuliyyət | Sarı | Yaşıl | Yaşıl | Sarı | Yaşıl |
| **İdarəetmə** | | | | | |
| ASCO-nun strategiyası | Qırmızı | Yaşıl | Yaşıl | Yaşıl | Yaşıl |
| Uyğunluğun idarə edilməsi | Sarı | Yaşıl | Sarı | Sarı | Sarı |
| Risklərin idarə edilməsi | Sarı | Yaşıl | Yaşıl | Sarı | Sarı |
| Biznes etikası | Sarı | Yaşıl | Sarı | Sarı | Sarı |
| Korrupsiyaya qarşı mübarizə | Qırmızı | Yaşıl | Sarı | Yaşıl | Sarı |
| Təchizat zənciri | Qırmızı | Yaşıl | Yaşıl | Yaşıl | Sarı |
| Rəqəmsallaşma və informasiya təhlükəsizliyi | Sarı | Sarı | Yaşıl | Sarı | Sarı |
| **İqtisadiyyat** | | | | | |
| Əməliyyat performansı | Qırmızı | Yaşıl | Yaşıl | Yaşıl | Sarı |
| İqtisadi nəticələr | Qırmızı | Yaşıl | Yaşıl | Yaşıl | Sarı |
| Bazarlar və əməliyyat bölgələri | Qırmızı | Sarı | Yaşıl | Yaşıl | Sarı |
| Müştəri məmnuniyyəti | Sarı | Yaşıl | Yaşıl | Sarı | Sarı |

| Ciddilik | |
|---|---|
| Qırmızı | Son dərəcə ağır |
| Sarı | Ağır |
| Yaşıl | Ağır deyil |

| Ehtimal | |
|---|---|
| Qırmızı | Çox güman |
| Sarı | Ehtimal olunan |
| Yaşıl | Ehtimal olunmayan |

| İnsan hüquqları | |
|---|---|
| Qırmızı | Yüksək |
| Sarı | Orta |
| Yaşıl | Aşağı |

| Vaciblik | |
|---|---|
| Yaşıl | Çox əlamətdar |
| Sarı | Əhəmiyyətli |
| Qırmızı | Əhəmiyyətli deyil |

### Zəhmət olmazsa, hansı maraqlı tərəflər qrubuna aid olduğunuzu qeyd edin



### Şirkətin ümumi fəaliyyəti üzrə hansı mövzular Sizin üçün əhəmiyyətlidir?




### İqtisadi fəaliyyəti üzrə hansı mövzular Sizin üçün əhəmiyyətlidir?



### Ekoloji fəaliyyət üzrə hansı mövzular Sizin üçün əhəmiyyətlidir?




- Enerji istifadəsi
- Suyun istifadəsi
- Biomüxtəliflilik
- Emissiyalar
- Tullantılar
- Ətraf mühitin qorunmasına dair qanunlar ve normativ aktlar ilə uyğunluq
- Təchizatçıların ekoloji fəaliyətinin qiymətləndirilməsi
- Digər

### Sosial fəaliyyət üzrə hansı mövzular Sizin üçün əhəmiyyətlidir?




- Məşğulluq
- Şirkətin əməkdaşları və rəhbərlik arasında münasibətlər
- Əməyin təhlükəsizliyi və sağlamlıq
- Təlim və tədris
- Müxtəliflik və bərabər imkanlar
- Assosiasiya azadlığı və kollektiv müqavilələr
- Məcburi və ya uşaq əməyi
- Yerli əhali
- İnsan hüquqlarının qorunması
- Təchizatçıların sosial fəaliyyətinin qiymətləndirilməsi
- İctimai siyasət
- Müştəri təhlükəsizliyi və sağlamlığı
- Digər

## MARAQLI TƏRƏFLƏR VƏ ONLARLA MÜNASİBƏTLƏR

Hesabatda maraqlı tərəflər ifadəsi ASCO və onun fəaliyyət istiqamətləri, nəticələri ilə maraqlanan bir sıra qurum və insanları təmsil edir və onlar daxili və xarici olmaqla iki yerə bölünür.

ASCO bütün səhmləri dövlətə məxsus olan səhmdar cəmiyyətidir və Azərbaycan dövləti Gəmiçiliyin yeganə səhmdarı olaraq onun əsas maraqlı tərəflərindən biridir. ASCO öz fəaliyyətini səhmdarının – Azərbaycan dövlətinin gəmiçilik sahəsində uzunmüddətli baxışına və gözləntilərinə uyğun olaraq təşkil edir. Gəmiçiliyin fəaliyyətinə ümumi nəzarəti icra edən orqan kimi ASCO-nun Müşahidə Şurası çıxış edir. Gəmiçiliyin Müşahidə Şurası tərəfindən ASCO-nun fəaliyyəti üzrə strateji əhəmiyyətli qərarlar verilir. Eyni zamanda, ASCO Azərbaycan İnvestisiya Holdinqinin (AİH) portfel şirkətlərindən biridir və ASCO-nun Ümumi Yığıncağının müəyyən səlahiyyətləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla AİH-in Müşahidə Şurası tərəfindən həyata keçirilir. Həmçinin, Müşahidə Şurasının müvafiq qərarlarının həyata keçirilməsi, sənədlərin razılaşdırılması və müvafiq hesabatların təqdim edilməsi istiqamətində AİH ilə sıx əməkdaşlıq edilir. ASCO-nun Müşahidə Şurası və Azərbaycan İnvestisiya Holdinqi haqqında daha ətraflı məlumat hazırki hesabatın "Korporativ idarəetmə" bölməsində təqdim olunmuşdur.

**Ümumilikdə, Gəmiçiliyin maraqlı tərəflərinə aşağıdakı qruplar daxildir:**

- Səhmdar
- Müşahidə Şurası
- Azərbaycan İnvestisiya Holdinqi
- Dövlət qurumları
- ASCO-nun əməkdaşları
- Dənizçi tələbələr
- Müştərilər
- Limanlar
- Agentlər
- Brokerlər
- Logistika şirkətləri
- Digər gəmiçilik şirkətləri
- Sığortaçılar
- Təchizatçılar
- Beynəlxalq təşkilatlar
- Tənzimləyici orqanlar
- Maliyyə institutları
- İctimaiyyət
- Media
- Qeyri-hökumət təşkilatları



ASCO həmçinin digər dövlət qurumları ilə ikitərəfli qaydada, eləcə də hökumətlər arası komissiyalar və müxtəlif işçi qruplar çərçivəsində sıx əməkdaşlıq edir. Gəmiçiliyin hazırki əməkdaşları və gələcəyin dənizçiləri - Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri ASCO-nun əsas maraqlı tərəflərindən biridir. Əməkdaşlar və tələbələr ilə daha açıq və məhsuldar dialoqun qurulmasına, Gəmiçiliyin fəaliyyətində onların rəylərinin nəzərə alınmasına, onların ASCO-nun fəaliyyət nəticələri barədə mütəmadi məlumatlandırılmasına ASCO tərəfindən xüsusi əhəmiyyət verilir. Bu istiqamətdə, müxtəlif mövzularda sorğular keçirilir, ASCO-nun rəhbərliyinin iştirakı ilə bir sıra korporativ tədbirlər, iclaslar və görüşlər, eləcə də ADDA-da açıq qapı günləri və digər bu kimi tədbirlər təşkil edilir.

ASCO-nun fəaliyyət istiqamətinə uyğun olaraq, şirkətin müştəriləri, digər gəmiçilik şirkətləri, limanlar, agentlər, brokerlər, logistika şirkətləri Gəmiçiliyin digər əsas maraqlı tərəfləri kimi çıxış edir. ASCO qeyd edilən maraqlı tərəflərlə sadəcə ikitərəfli kommersiya fəaliyyəti əsasında deyil, həm də beynəlxalq təşkilatlar, o cümlədən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, TRACECA, "Qara dəniz – Xəzər dənizi" marşrutu çərçivəsində də sıx əməkdaşlıq edir. Bu maraqlı tərəflərlə kommunikasiya vasitələrinə əsasən rəsmi məktublar, elektron poçt üzərindən yazışmalar, telefon və ya onlayn görüşmələr, işgüzar iclaslar və görüşlər daxildir.

ASCO-nun əsas maraqlı tərəflərindən biri kimi çıxış edən təchizatçılar Gəmiçiliyin fəaliyyətində önəmli paya sahibdir. Gəmiçilikdə təchizatçılar ilə münasibətlərə dair ətraflı məlumat "Satınalma sistemi" bölməsində təqdim edilmişdir.

Fəaliyyətini ölkə qanunvericiliyinin və beynəlxalq konvensiyaların tələblərinə uyğun təşkil edən ASCO-nun Dövlət Dəniz və Liman Agentliyi, Beynəlxalq Dənizçilik Təşkilatı (IMO) və müxtəlif dənizçilik təsnifat cəmiyyətləri kimi gəmiçilik sahəsində nizamlayıcı qurumlar ilə sıx əməkdaşlıq əlaqələri mövcuddur.





Bu tənzimləyici orqanlar tərəfindən gəmiçilik sahəsində müvafiq tələblərə uyğun mütəmadi yoxlamalar həyata keçirilir.

Bundan əlavə, ASCO yerli və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığa xüsusi diqqət ayırır. Bu məqsədlə, mütəmadi görüşlər keçirilir, ASCO-nun strategiyasına uyğun investisiya planları və potensial əməkdaşlıq imkanları barədə müzakirələr aparılır.

İctimaiyyət ilə səmərəli və şəffaf əlaqələrin qurulması Gəmiçilik üçün mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə mövcud kommunikasiya vasitələri və görülən işlər barədə ətraflı məlumat "Şəffaflıq, hesabatlılıq və məlumatların açıqlanması" bölməsində təqdim edilmişdir.

## DAYANIQLI İNKİŞAFIN BİZNESƏ İNTEQRASİYASI

Dayanıqlı inkişaf prinsiplərinin cari fəaliyyətdə tətbiq edilməsi, onların əməkdaşlar, müştərilər, təchizatçılar və digər maraqlı tərəflər arasında təşviq edilməsi Gəmiçilikdə diqqət mərkəzində saxlanılır və bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir. ASCO-da dayanıqlılıq sahəsində vahid yanaşmanı təmin edən Dayanıqlı İnkişaf Siyasəti hazırlanmışdır və 2019-cu ildə Gəmiçiliyin İdarə heyəti tərəfindən təsdiq edilmişdir. Dayanıqlı İnkişaf Siyasəti Gəmiçiliyin qısa, orta və uzunmüddətli perspektivə yönəlmiş Strategiyasında nəzərə alınır və sözügedən strategiya çərçivəsində icra olunaraq, dayanıqlı inkişaf prinsiplərinin cari fəaliyyətə inteqrasiyası təmin edilir.

## DAYANIQLI İNKİŞAF SİYASƏTİ

**Siyasətin məqsədi**

Əsas biznes-kommersiya fəaliyyətinin yerinə yetirilməsi ilə bərabər ətraf mühitin mühafizəsinin, məhdud resurslardan səmərəli istifadə olunmanın, dayanıqlı inkişaf prinsiplərinin ümumi dəyər zəncirinə inteqrasiyasının, korporativ sosial məsuliyyətin, eləcə də dayanıqlılıq prinsiplərinə uyğun şəkildə Gəmiçiliyin cəmiyyətə və səhmdara uzunmüddətli fayda gətirməsininin təmin edilməsi.

**Siyasətin əhatə dairəsi**

Gəmiçiliyin dayanıqlı inkişaf siyasəti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin bütün struktur vahidlərini, hər növ kommersiya və qeyri-kommersiya fəaliyyətini, eləcə də daxili və xarici olmaqla, bütün birbaşa və dolayı maraqlı tərəflərlə münasibətləri əhatə edir.

**Dayanıqlı inkişaf hədəfimiz**

Biz bütün dəyər zənciri boyu dayanıqlı inkişaf prinsiplərinə riayət etməyi qarşımıza məqsəd qoymuşuq. Fəaliyyətimizdə təbiətin və insan kapitalının əhəmiyyətini dərk edirik və bu istiqamətdə ola biləcək hər hansı mənfi təsirin minimuma endirilməsi davamlı və uzun müddətli hədəfimizdir.

**Dayanıqlı inkişaf prinsiplərimiz:**

ASCO-nun Dayanıqlı İnkişaf Siyasəti ekoloji, sosial və iqtisadi olmaqla 3 aspekti əhatə edir.




**Ekoloji-İqtisadi**

Enerji səmərəliliyi, Təbii resurslardan qənaətli istifadə olunması, İnvestisiyalar, Resursların qənaətinə həvəsləndirmə mexanizmləri

**Sosial-Ekoloji**

Ekoloji və sosial qanunvericiliyin tələblərinə riayət olunması, Məhdud yerli və qlobal təbii resurslardan məsuliyyətli istifadə, Ədalətli idarəetmə

**Sosial-İqtisadi**

Biznes etikası, Ədalətli rəqabət və ticarət, İşçilərin hüquqları və rifahı

| Ekoloji aspektdə dayanıqlı inkişaf prinsiplərimiz: | Sosial aspektdə dayanıqlı inkişaf prinsiplərimiz: | İqtisadi aspektdə dayanıqlı inkişaf prinsiplərimiz: |
|---|---|---|
| ·Ətraf mühitin mühafizəsi<br>·Qəza hallarının qarşısının alınması<br>·Tullantı və emissiyaların səmərəli idarə olunması<br>·Ekosistemlərə mənfi antropogen təsirin minimuma endirilməsi<br>·Biomüxtəlifliyin qorunması<br>·Təmiz və içməli su resurslarından səmərəli istifadə olunması<br>·Enerji resurslarından qənaətlə istifadə olunması<br>·Fəaliyyətin beynəlxalq standartların tələblərinə uyğun təşkil edilməsi<br>·İnnovasiyaların dəstəklənməsi yolu ilə ətraf mühitin mühafizəsi üzrə daha əlverişli və mütərəqqi texnika və texnologiyaların tətbiqi | ·İnsan resurslarının səmərəli idarə edilməsi<br>·Sağlamlıq və əməyin təhlükəsizliyinin təmin edilməsi<br>·Şəffaflığın təmin edilməsi<br>·Bərabər imkanların yaradılması<br>·Personalın rifahının davamlı yaxşılaşdırılması<br>·Təlim və təhsil<br>·Müasir çağırışlara hazır olan kadrların yetişdirilməsi<br>·Ölkədə dənizçilik peşəsinin təbliği<br>·Söz azadlığının, sərbəst fikir və mövqenin bildirilməsinin təmin edilməsi<br>·İnklyuziv komandanın formalaşdırılması<br>·Ədalətli qərarların qəbul edilməsi<br>·İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi<br>·Biznes etikası<br>·Kimsəsiz uşaqlara, maddi durumu ağır ailələrə, məcburi qaçqın və köçkünlərə, əmək qabiliyyətini itirmiş şəxslərə yardımların edilməsi<br>·Gənclərə dəstəyin göstərilməsi<br>·Ölkədə müxtəlif sosial xarakterli layihlərin dəstəklənməsi<br>·Personalın məmnunluğunun və Gəmiçiliyə bağlılığının gücləndirilməsi | ·Səhmdar və cəmiyyət üçün uzunmüddətli perspektivə yönəlmiş iqtisadi dəyərin yaradılması<br>·Səmərəli fəaliyyət göstərən və dayanıqlı inkişafını təmin edən müasir gəmiçilik şirkətinin qurulması<br>·Beynəlxalq korporativ idarəetmə sisteminin tətbiq edilməsi<br>·Donanmanın davamlı yenilənməsi<br>·Yüksək keyfiyyətli xidmətlərin göstərilməsi<br>·Müştəri məmnuniyyətinin təmin edilməsi<br>·Etibarlı tərəfdaş imicinin qorunub saxlanılması<br>·Xərclərin optimallaşdırılması və izafi xərclərin aradan qaldırılması<br>·Gəlirlərdən səmərəli istifadə olunması<br>·Risklərin səmərəli idarə olunması<br>·Biznes fəaliyyətinin genişləndirilməsi və şaxələndirilməsi<br>·Yerli təchizatçı, yerli istehsal və xidmətlərin dəstəklənməsi |

## ESG - EKOLOJİ, SOSİAL, İDARƏETMƏ ASPEKTLƏRİ

Müasir dövrdə şirkətlərin reytinqini və fəaliyyətinin əhatə etdiyi sahələri qiymətləndirərkən yeni və əhəmiyyətli anlayışlardan biri olan Ekoloji Sosial İdarəetmə (ESG) faktoru da prioritet olaraq nəzərə alınır. Bununla bağlı, müxtəlif şirkətlər artıq ESG sistemini öz bizneslərinə inteqrasiya etməyə başlamışlar ki, bu da şirkətlərin ətraf mühit və sosial faktorları nəzərə alaraq bu sahədə daha həssas və faktiki addımlar atdığının göstəricisidir. Gəmiçilik şirkəti kimi ətraf mühitə təsiri və işçi sayı nəzərə alınaraq, ASCO tərəfindən sosial, sağlamlıq, əməyin mühafizəsi, ekologiya, sanitariya, təmiz enerji, innovasiya, təhsil, bərabərlik və digər aspektləri əhatə edən dayanıqlı inkişaf siyasətinin müəyyən edilməsi, siyasətə uyğun icra planlarının hazırlanması, monitorinqinin aparılması, emissiyaların idarə olunması, habelə ASCO-nun fəaliyyətində ətraf mühitin qorunması, sağlamlıq və texniki təhlükəsizlik üzrə kompleks proqramların hazırlanması və icrasına diqqət daha da artırılmış və qeyd edilən məsələlərlə bağlı olaraq Dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə direktor vəzifəsi təsis edilmişdir. Eyni zamanda, yuxarıda göstərilən məsələlərin icrası ilə bağlı əlaqələndirmə işlərinin daha səmərəli təşkil edilməsi, müasir tələblər nəzərə alınmaqla dayanıqlı inkişaf siyasətinin davamlı yenilənməsi məqsədilə aidiyyəti rəhbər şəxs və struktur bölmələrin əməkdaşlarından ibarət müvafiq əlaqələndirmə qrupu (ESG qrupu) təşkil olunmuşdur.



ESG qrupu tərəfindən emissiyalar və sosial faktorlar üzrə bütün tələblər və faktiki göstəricilər nəzərə alınaraq onların qiymətləndirilməsi, mümkün, real hədəflərin təyin edilməsi və bu istiqamətdə təkliflərin işlənib hazırlanması, ESG üzrə tədbirlər planının tərtib edilməsi və mütəmadi yenilənməsi həyata keçirilir. Qrupun mütəmadi təşkil edilən iclaslarında aidiyyəti mövzular üzrə müzakirələr aparılır, rəy və təkliflər dəyərləndirilərək ESG üzrə Tədbirlər Planına əlavə və düzəlişlər edilir. Sözügedən Tədbirlər Planında aşağıdakı əsas istiqamətlər üzrə tədbirlər daxildir:

- Emissiyaların azaldılması məqsədi ilə, gəmilərdə konstruktiv dəyişikliklərin və innovasiyaların tətbiqi,
- Gəmilərdə yanacaq səmərəliliyi istiqamətində fəal iştirak edən gəmi heyəti üzvlərinin mükafatlandırılması,
- Ekoloji cəhətdən təmiz olan elektrik nəqliyyat vasitələrinə tədricən keçid edilməsi,
- Şirkət daxilində elektrik mühərrikli avtomobillərin təşviqi məqsədilə enerji doldurma stansiyalarının alınması,
- Alternativ enerji mənbəyi kimi günəş panellərinin istifadəsinin pilot layihə şəklində tətbiqi,
- Şirkətdaxili su istehlakının optimallaşdırılması,
- Şirkətin işçilərinə sosial dəstəyin təkmilləşdirilməsi,
- Emissiyaların rəqəmsal panelə çıxarılaraq izlənməsi sisteminin yaradılması,
- Emissiyaların inventarlaşdırılması ilə bağlı ISO14060 və digər standartların tətbiqi, müvafiq sertifikatlaşdırılmanın aparılmasının təmin olunması və s.

ESG, dayanıqlılıq və emissiyaların idarəedilməsi üzrə kənar məsləhətçi şirkətlərlə mütəmadi danışıqlar aparılır və hesabat dövründə bu istiqamətdə bir neçə şirkətlə əməkdaşlıq qurulmuşdur. Belə ki, Amerika Gəmiçilik Bürosu (ABS) ilə istixana effekti yaradan qazların (İEYQ) inventarlaşdırılması və müvafiq ISO sertifikatının alınması məqsədilə müqavilə bağlanmış, EY şirkəti ilə Ekoloji Sosial İdarəetmə ilə bağlı məsləhət xidmətlərinin göstərilməsi və ESG anlayışı üzrə əməkdaşların maarifləndirilməsini təmin etmək məqsədi ilə, təlimlər təşkil edilməsi istiqamətində əməkdaşlıq qurulmuşdur. Eyni zamanda, Hesabat dövründə Gəmiçiliyin İdarəetmə Sisteminə ESG ilə bağlı yeni prosedurlar və formalar əlavə edilmişdir.



## QLOBAL DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN İCRASI ÜZRƏ ASCO-NUN ÖHDƏLİYİ VƏ VERDİYİ TÖHFƏLƏR

2015-ci il sentyabr ayında keçirilən Birləşmiş Millətlər Təşkilatının dayanıqlı inkişaf üzrə beynəlxalq sammitində dünya dövlətləri birgə 17 Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) qəbul etmişdir. Sözügedən Dayanıqlı İnkişaf Məqsədləri 2016-cı ilin yanvar ayından etibarən qüvvəyə minmiş və onların 2030-cu ilədək icra edilməsi razılaşdırılmışdır. Azərbaycan Respublikası da həmin təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulan ölkələrdən biridir və DİM-lərdən yaranan müvafiq öhdəlikləri qəbul etmişdir. Bütün səhmləri Azərbaycan dövlətinə məxsus olan, Xəzər dənizində və Xəzərdən kənar hövzələrdə beynəlxalq fəaliyyət göstərən gəmiçilik şirkəti olaraq, ASCO öz dayanıqlı inkişaf siyasəti çərçivəsində DİM-lərin icrasını nəzərə alır və Azərbaycan Respublikasının bu istiqamətdə təyin etdiyi hədəflərə çatmaqda öz töhfəsini verir.

**Qlobal Dayanıqlı İnkişaf Məqsədləri:**



MƏQSƏD 1 və 2:

ASCO-nun əməkdaşlarına ölkədə minimum əmək haqqından daha yüksək, rəqabətə davamlı, məişət və zəruri xərcləri əhatə edən əmək haqqı ödənilir. Əlavə olaraq, Gəmiçiliyin maddi yardımın verilməsi haqqında Əsasnaməsinə uyğun olaraq, məişət şəraiti qənaətbəxş olmayan, maddi dəstəyə ehtiyacı olan işçi heyəti və digər vətəndaşlara maddi yardımlar göstərilir. (daha ətraflı səh.112-113)

MƏQSƏD 3:

Əməkdaşların sağlam və təhlükəsiz iş şəraiti ilə təmin olunması Gəmiçilik üçün prioritet məsələlərdəndir. ASCO-nun bütün sahil və üzən heyəti davamlı olaraq tibbi yoxlamalardan keçirilir. Bundan əlavə, ASCO tərəfindən əməkdaşlara və onların ailə üzvlərinə tibbi sığorta tətbiq edilir. (daha ətraflı səh.124-125)

MƏQSƏD 4:

Əməkdaşların davamlı olaraq peşə və fərdi inkişaf təlimlərinə cəlb olunması ASCO-nun daim diqqət mərkəzindədir. Əlavə olaraq, ASCO-nun nəzdində ölkədə gəmiçilik sahəsində yüksək bilik və bacarıqlara sahib olan, peşəkar, yerli dənizçi kadrların yetişdirilməsinə xidmət edən Azərbaycan Dövlət Dəniz Akademiyası (ADDA) fəaliyyət göstərir. (daha ətraflı səh.75-76)

MƏQSƏD 5 və 10:

ASCO-da cinsindən, irqindən, dinindən asılı olmayaraq hər bir əməkdaş karyera inkişafı və peşəkar fəaliyyəti ilə bağlı bərabər imkanlar ilə təmin olunmuşdur. Gəmiçilikdə kişi əməkdaşlarla yanaşı, qadın əməkdaşlar həm sıravi, həm də rəhbər vəzifələrdə çalışır. Onlara hər hansı ayrı-seçkiliyə məruz qalmadan, yalnız onların tutduğu vəzifə, dərəcə, iş təcrübəsi və əmək fəaliyyəti nəticələri kimi faktorlara əsasən əmək-haqqı müəyyən edilir. Bundan əlavə, Gəmiçilikdə Azərbaycan Respublikasının qanunvericiliyinin tələbləri ilə yanaşı, Avropa Konvensiyasının insan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında müvafiq tələbləri də tam təmin edilir. (daha ətraflı səh.92, 105)

MƏQSƏD 6:

İçməli su ehtiyatlarının getdikcə tükənməsi qlobal ekoloji problemdir və Azərbaycanda da içməli su ehtiyatarı məhduddur. Ölkəmizdə su ehtiyatlarının qorunması üçün, Gəmiçilik olaraq içməli su sərfiyyatına, gəmilər və sahil obyektlərində ondan qənaətlə istifadə edilməsinə nəzarət edilir. Bundan əlavə, gəmiçilik fəaliyyəti zamanı su hövzələrinə dəyə biləcək potensial mənfi təsirlərin öncədən qarşısının alınması və ekoloji tarazlığın qorunması üçün ASCO tərəfindən bir sıra tədbirlər həyata keçirilir. (daha ətraflı səh.138)

MƏQSƏD 7 və 9:

Müasir dövrdə gəmiçilik də daxil olmaqla, əksər sahələrdə təmiz və bərpa olunan enerji mənbələrinə, onlardan istifadəyə böyük tələb vardır. Bu tip yenilik və innovasiyaların gəmiçilikdə istifadə imkanları ASCO-nun Elmi-Texniki Şurası, Texniki direktorun texniki innovasiyalar və yeni texnologiyalar üzrə müavini, eyni zamanda Azərbaycan Dövlət Dəniz Akademiyasında təsis edilən İnnovasiyalar Laboratoriyası tərəfindən beynəlxalq təcrübəyə əsaslanaraq ətraflı şəkildə araşdırılır. Əlavə olaraq, yeni gəmilərin alınması və ya tikintisi zamanı müasir avadanlıqlarla təchiz edilmiş, optimal enerji sərfiyyatına malik, enerji səmərəliliyi üzrə müasir texnologiyaları özündə ehtiva edən gəmi layihələrinə üstünlük verilir. (daha ətraflı səh.145)

MƏQSƏD 8:

Əməkdaşların iş şəraitinin vəziyyəti və iş yerlərinin təhlükəsizliyi ASCO tərəfindən davamlı olaraq qiymətləndirilir və bu sahədə ISO 45001 standartı üzrə tələblər nəzərə alınır (daha ətraflı səh.124). Fəaliyyətinin ilk dövründən etibarən ASCO hər hesabat ilini mənfəətlə tamamlayır və iqtisadi vəziyyətin dayanıqlılığının təmin edilməsi istiqamətində davamlı işlər görür. (daha ətraflı səh.66)

MƏQSƏD 11:

Fəaliyyət sferası çərçivəsində ASCO-nun bu DİM-ə birbaşa təsiri yoxdur, lakin öz əməliyyat coğrafiyasında yaratdığı iş yerləri və dəyər ilə ASCO dolayı yolla bu DİM-ə dəstək olur.

MƏQSƏD 12:

İstehsal və istehlak mərhələlərində maddi, təbii, insan, maliyyə və digər resurslardan qənaətlə və məsuliyyətlə istifadə Gəmiçiliyin fəaliyyətində böyük önəm daşıyır. Bu baxımdan, istehlak və istehsalın keyfiyyətinə hər hansı mənfi təsirin olmaması şərti ilə, resurslardan optimal istifadəyə xüsusi diqqət ayrılır.

MƏQSƏD 13:

İqlim dəyişikliliyinə qarşı mübarizə çərçivəsində ASCO-da emissiyaların həcminin aşağı səviyyələrdə saxlanması istiqamətində davamlı işlər həyata keçirilir. Hesabat dövründə də aparılan bu işlər nəticəsində ASCO emissiyaların həcmini minimum səviyyədə saxlanılmasına nail olunmuşdur. (daha ətraflı səh.142)

MƏQSƏD 14 və 15:

Gəmiçilik fəaliyyəti zamanı dəniz və torpaq ekosistemlərinə dəyə biləcək hər hansı mənfi texniki və antropogen təsirin qarşısının alınması məqsədilə, ASCO-da dəniz səthinin neft dağılmalarından mühafizəsi, gəmilərdə yaranan maye və bərk tullantıların idarə edilməsi, ballast sularından istifadə, quruda istehsalat işlərinin təşkili üzrə müvafiq beynəlxalq standart və sertifikatların tələblərinə uyğun idarəetmə sistemi yaradılmışdır. (daha ətraflı səh. 135, 138, 146)

MƏQSƏD 16:

ASCO-da istər əməkdaşlarla münasibətlərdə, istərsə də qərarların qəbul edilməsində ədalət prinsipi daim rəhbər tutulur. Beynəlxalq dayanıqlılıq və biznes etikası prinsiplərinə zidd olan, o cümlədən uşaq və ya məcburi əməkdən istifadə edən, korrupsiya, insan haqlarının pozulması və digər bu kimi mənfi hallara yol verən bütün növ tərəflərlə əməkdaşlıqların qurulmasından imtina edilir. (daha ətraflı səh. 92, 94, 95)

MƏQSƏD 17:

Bütün Dayanıqlı İnkişaf Məqsədlərinin tam icrasına yalnız müxtəlif şirkətlər, təşkilatlar və hökümətlər arasında birgə əməkdaşlıq, o cümlədən təcrübə və bilik mübadiləsi vasitəsi ilə nail olmaq mümkündür. Bu səbəbdən, ASCO fəaliyyəti çərçivəsində istər yerli, istərsə də xarici tərəfdaşlarla müxtəlif əməkdaşlıqlar qurur və konfrans, seminar, dəyirmi masa və s. bu kimi tədbirlərə qoşulmaqla, təcrübə mübadilələrində iştirak edir. Hesabatın daxilində siz ASCO-nun müxtəlif maraqlı tərəflərlə olan münasibətləri haqqında məlumatlarla tanış ola bilərsiniz.

## İQLİM İLƏ ƏLAQƏLİ KORPORATİV İDARƏETMƏ (CLIMATE CORPORATE GOVERNANCE - CCG)

Hazırda iqlim dəyişikliyinin iqtisadiyyata və bizneslərə təsirləri, habelə maliyyə və biznes qərarlarının qəbulu zamanı iqlim dəyişikliyinin təsirləri haqqında məlumatın nəzərə alınması zərurəti barədə məlumatlılıq artmaqdadır. Şirkətlər öz biznes əməliyyatlarını aşağı karbonlu yollarla ("LCP") və iqlimə davamlı yollarla ("CRP") həyata keçirməyə dair Maliyyə Sabitliyi Şurasının İqlimlə bağlı Maliyyə Açıqlamaları üzrə İşçi Qrupu ("TCFD"), Maliyyə Sisteminin Yaşıllaşdırılması Şəbəkəsi ("NGFS"), Aİ-nin Davamlı Maliyyə Fəaliyyət Planı və bir sıra milli tənzimləyici və nəzarət orqanları tərəfindən bu istiqamətdə hazırlanmış qaydalarına və təlimatlarına uyğun olaraq yeniləməlidirlər.

Gəmiçilik sektoru iqlim şəraitinə və iqlim dəyişikliyinin fiziki təsirlərinə həssaslığına, həmçinin istixana qazı emissiyalarına verdiyi töhfələrə görə iqlim dəyişikliyinin təsirinə məruz qalan əsas sahələrdəndir.

Buna görə də, ASCO 2015-ci il Paris Sazişinin məqsədlərinə uyğun olaraq, öz biznes modellərini və əməliyyatlarını aşağı karbon və iqlimə davamlı yollarla həyata keçirmək üçün tədbirlər görür. ASCO iqlim dəyişikliyinin proqnozlaşdırılan təsirlərinə həssas olan Xəzər dənizi regionunda biznes əməliyyatları apardığı üçün (məsələn, əhəmiyyətli gəlirləri neft və qaz sektorundan asılı olan əməliyyatlardan gəlir) bu tədbirlər şirkətin prioritetləri sırasındadır. ASCO davamlılıq da daxil olmaqla, daxili korporativ idarəetmə sistemini təkmilləşdirməkdə maraqlıdır və buna görə də korporativ idarəetmə və iqlimlə bağlı fəaliyyət üçün risklərin qiymətləndirilməsi sahəsində tədbirlər görməkdədir.

ASCO üçün İqlim dəyişmələri ilə əlaqədar olan risklərə Beynəlxalq Dəniz Təşkilatı tərəfindən emissiyalarla əlaqədar ildən ilə sərtləşən tələblər, Xəzər dənizinin səviyyəsinin azalması nəticəsində naviqasiya şəraitinin mürəkkəbləşməsi, gəmiçilik sahəsində yeni texnoloqiyalara uğursuz investisiya, şirkətin əsas gəlir mənbələrindən birinin neft-qaz sektoru ilə bağlılığı, küləkli hava şəraiti olan günlərin artması və s. kimi risklər müəyyənləşdirilərək qiymətləndirilməkdədir. 2024-cü ildə ASCO ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlıq çərçivəsində iqlim ilə əlaqəli korporativ idarəetmə (CCG) üzrə layihənin icra edilməsi nəzərdə tutulmuşdur.

COP29
Baku
Azerbaijan

## "COP29" ÇƏRÇİVƏSİNDƏ İŞLƏR

Azərbaycan Respublikası 1995-ci ildən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulmuşdur. Həmçinin, 18 iyul 2000-ci ildə isə istilik effekti yaradan qazların azaldılmasına dair öhdəliklərin ehtiva olunduğu Kioto Protokolu Azer-

baycan tərəfindən ratifikasiya edilmiş, 2016-cı il aprelin 22-də isə BMT-nin iqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasının imzalanma mərasimində iştirak etməklə sənədə qoşulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində qlobal iqlim dəyişikliklərinin miqyası nəzərə alınaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yerin verilməsi, təmiz enerji mənbələrindən istifadəsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviq edilməsi qəti vəzifə olaraq müəyyən edilmişdir. Azərbaycanda yüksək keyfiyyətli ekoloji mühitə və "yaşıl enerji" məkanına nail olmaq üçün ötən dövrdə, xüsusən ərazi bütövlüyümüzün bərpa olunduğu son 3 il ərzində iqtisadi artımla ekoloji mühitin tarazlığının təmin olunması, ölkədə ümumi ərazilərdə yaşıllıqların payının artırılması istiqamətində konkret addımlar atılmışdır.

Bu gün dünyanı narahat edən qlobal problemlərdən biri də iqlim dəyişmələridir. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox narahat etməkdədir. Ölkəmiz də qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır və beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.



Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35% , 2050-ci ilə qədər isə 40% azaldılmasını hədəf kimi götürmüşdür.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30%-ə çatdırılmasını hədəfləyir.

Gəmiçilik sahəsində də, Azərbaycan Respublikası iqlim dəyişmələri ilə mübarizədə öz töhfəsini verməkdədir. Belə ki, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış qurumu olan Beynəlxalq Dəniz Təşkilatının "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" Beynəlxalq Konvensiyasına (MARPOL) qoşulub.

Konvensiyanın "Havanın gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" VI Əlavəsinə əsasən 2012-ci ildən başlayaraq yeni tikilən gəmilər üçün Enerji Səmərəliliyinin Konstruktiv Əmsalına (Energy Efficiency Design İndex) və ümumi tutumu 400 ton və yuxarı olan bütün gəmilərdə "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"nın olmasına dair tələblər qüvvəyə minmişdir, 2018-ci ildən başlayaraq isə ümumi tutumu 5000 tondan yuxarı olan gəmilərdə yanacaq sərfiyyatı haqqında məlumatların toplanmasına dair tələb qüvvəyə minmişdir və "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"na bu məlumatların toplanmasının metodologiyasını əhatə edən II hissə əlavə olunmuşdur.

Beynəlxalq Dəniz Təşkilatı tərəfindən 2018-ci ilin aprel ayında gəmilərdən istixana qazlarının emissiyalarının azaldılması üzrə strateji hədəfləri müəyyən edən, o cümlədən beynəlxalq gəmiçilik fəaliyyəti nəticəsində havaya atılan tullantıların illik miqdarının 2008-ci illə müqayisədə 2050-ci ilədək ən azı 50% azaldılması üzrə məqsədyönlü tədbirləri əhatə edən "Gəmilərdən istixana qazlarının emissiyalarının azaldılmasına dair Beynəlxalq Dəniz Təşkilatının İlkin Strategiyası" qəbul edilmişdir. İlkin Strategiya Beynəlxalq Dəniz Təşkilatının Üzv Dövlətləri üçün gəmilərdən istixana qazlarının emissiyalarının azaldılması üzrə ümumi prinsipləri, həmçinin qısamüddətli, ortamüddətli və uzunmüddətli hədəfləri əhatə edən tədbirlər planını özündə ehtiva edir. İlkin Strategiyaya uyğun olaraq, 2023-cü ildən başlayaraq ümumi tutumu 400 ton və daha çox olan gəmilər üçün Mövcud Gəmilərin Enerji Səmərəliliyi Əmsalına (Energy Efficiency Existing Ship İndex) dair tələblər tətbiq edilməyə başlamışdır. Eyni zamanda, ümumi tutumu 5000 ton və daha çox olan gəmilər üzrə Enerji Səmərəliliyi Əmsalı (EEXI) əsasında karbon qazının ayrılmasının intensivliyinin azaldılmasına dair texniki tələblər, o cümlədən illik istismar nəticəsində Karbon qazının intensivliyi Göstəricisi (CII) və onun hesablanma metodologiyasını əhatə edən "Gəminin enerji emissiyalarını

idarə olunması planı"na bu məlumatların toplanmasının metodologiyasını əhatə edən III hissə əlavə olunmuşdur. Beynəlxalq Dəniz Təşkilatının yuxarıda qeyd edilən istixana qazlarının emissiyalarını azaltmaq istiqamətində gəbul edilmiş tələblərini davamlı olaraq icra edərək, ASCO iqlim dəyişmələri ilə mübarizə sahəsində öz töhfəsini verməkdədir.
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Su resursları, enerji, meşə, kənd təsərrüfatı, turizm, səhiyyə sektoru və sahilyanı zonaları Azərbaycanda iqlim dəyişikliyinə həssasdır. Bu problemə qarşı mübarizədə diqqətin artması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 25 dekabr 2023-cü il tarixdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir. Digər tərəfdən dövlət başçımızın 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi bütün il ərzində bu sahədə fəaliyyətimizi genişləndirəcəyimizdən və ətraf mühitin qorunması istiqamətində görüləcək işlərin xeyli dərəcədə intensivləşəcəyindən xəbər verir. ASCO tərəfindən də COP29 hazırlıq çərçivəsində 2024-cü ildə ölkəmizdə ekologiya sahəsi üzrə bəzi önəmli tədbirlər təşkil ediləcək və müvafiq layihələr həyata keçiriləcəkdir. ASCO tərəfindən həmin tədbirin keçirilməsinə, ətraf mühitin qorunması işinin daha effektiv qurulması, bu məsələlərlə bağlı ASCO-nun vahid yanaşmasının, təklif və tövsiyələrinin formalaşdırılmasını təmin etmək məqsədilə COP29 tədbirinin təşkili prosesinə ASCO tərəfindən töhfə verilməsi imkanları araşdırılmaqla, ətraf mühitin qorunması, təhlükəsizliyin təmini, abadlıq işlərinin aparılması istiqamətində ASCO-nun daxili tədbirlərinin müəyyən edilməsi və həmin tədbirlərin icrasının daha operativ, planlı şəkildə idarə edilməsinə nail olunması məqsədilə komissiya yaradılmışdır. Bu istiqamətdə abadlıq, təhlükəsizlik və ekologiya məsələləri ilə bağlı tədbirlər planı işlənib hazırlanmışdır. Tədbirlər planında, təhlükəsiz icra və bununla bağlı risk qiymətləndirilməsi, ekoloji tarazlığın qorunması, görüləcək işlərlə əlaqədar xərclər, metal tullantılarının təkrar emala göndərilməsi, silinmiş üzən vasitələrin akvatoriyadan uzaqlaşdırılması, tələb olunan təmir-tikinti işləri və mal-material tələbatı barədə məsələlər əks olunmuşdur.



# MALİYYƏ VƏ ƏMƏLİYYAT NƏTİCƏLƏRİ


PROTECT THE ENVIRONMENT
CONSERVE ENERGY
Susa
SAFETY

# MALİYYƏ NƏTİCƏLƏRİ

ASCO tərəfindən dayanıqlı inkişaf dinamikasına malik olan maliyyə vəziyyətinin qorunub saxlanılması, bu istiqamətində xərclərə nəzarətin gücləndirilməsinə və maliyyə resurslarının qənaətlə istifadəsinə, eləcə də gəlirlərin artırılması imkanlarının araşdırılmasına xüsusi diqqət yetirilir. Gəmiçilikdə xərclərin optimallaşdırılması, izafi xərclərin aradan qaldırılması, gəlirlərin səmərəli bölgüsü və istifadəsi, eləcə də yeni yük axınlarının cəlb edilməsi və layihələrin əldə olunması kimi davamlı tədbirlər həyata keçirilir. Bu tədbirlərin nəticəsində 2014-2023-cü illər ərzində hər il fəaliyyətini mənfəətlə başa vurmağa nail olmuşdur.

ASCO yarandığı dövrdən etibarən həri il olduğu kimi, hesabat dövrü ərzində də Gəmiçilik fəaliyyətini mənfəətlə başa vurmuşdur və ASCO-nun mənfəəti müvafiq olaraq, 2022-ci ildə 65 milyon AZN, 2023-cü ildə isə 44 milyon AZN təşkil etmişdir. Bundan əlavə, EBİTDA göstəricisi 2022-ci ildə 190 milyon AZN, 2023-cü ildə 157 milyon AZN səviyyəsində olmuş, EBİTDA marjası isə müvafiq olaraq 33% və 30% təşkil etmişdir. Gəmiçiliyin borclanma səviyyəsi də beynəlxalq miqyasda fəaliyyət göstərən bir çox şirkətlər, o cümlədən gəmiçilik şirkətləri ilə müqayisədə çox aşağı səviyyədə saxlanılmış və 2022 və 2023-cü illər ərzində borcun kapitala nisbəti müvafiq olaraq 1% və 12% olmuşdur. Eyni zamanda, ASCO yarandığı dövrdən etibarən Gəmiçiliyin kapitalizasiyası 160% artmış və 1.4 milyard AZN təşkil etmişdir.

Aşağıdakı cədvəldə ASCO-nun audit olunmuş maliyyə hesabatlarından götürülmüş əsas maliyyə nəticələri təqdim olunmuşdur:

**2021-2023-cü illər ərzində maliyyə nəticələri (IFRS üzrə), min manat:**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Gəlirlər | 459,133 | 570,071 | 524,195 |
| Satışların maya dəyəri | (306,069) | (369,444) | (375,113) |
| Əməliyyat fəaliyyətindən mənfəət | 68,290 | 93,295 | 59,222 |
| Mənfəət vergisindən əvvəl mənfəət | 66,555 | 92,073 | 56,362 |
| Mənfəət vergisi xərci | (14,763) | (26,632) | (12,677) |
| İl üzrə mənfəət | 51,792 | 65,441 | 43,685 |

**ASCO-nun gəlirlilik göstəriciləri, mln AZN**



Xəzərdə aparıcı mövqenin qorunması və Xəzərdən kənar bazarlarda yükdaşıma fəaliyyətinin genişləndirilməsi məqsədi ilə, ASCO tərəfindən yeni müxtəlif tipli gəmilərin tikintisi və alınmasına iri həcmli investisiya qoyuluşları həyata keçirilir. Aşağıdakı cədvəldə 2021-2023-cü illər ərzində ASCO tərəfindən həyata keçirilən investisiya qoyuluşları barədə məlumat təqdim olunmuşdur.

**2021-2023-cü illər ərzində Gəmiçilikdə investisiya qoyuluşları, min manat**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| İnvestisiya qoyuluşu, min AZN | 123,023 | 174,125 | 258,109 |
| o cümlədən: | | | |
| Əsas vəsaitlərin alınması və əsaslı təmiri | 121,794 | 173,548 | 257,104 |
| Qeyri-maddi aktivlərin alınması | 1,229 | 577 | 1,005 |




ASCO ölkənin iri gəmiçilik şirkəti olaraq, vergi öhdəliklərinin qanunvericiliyin tələblərinə uyğun və vaxtında yerinə yetirilməsinə xüsusi əhəmiyyət verir. ASCO, vergi qanunvericiliyinin tələbləri, qanunvericiliyə edilmiş əlavə və dəyişiklərin tətbiqi, təqdim olunmuş bəyannamələrin yoxlanılması, vergi planlaşdırılması kimi məsələlər üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə sıx əməkdaşlıq edir. Aşağıdakı cədvəldə 2021-2023-cü illər ərzində ASCO tərəfindən ödənilən vergilər barədə məlumat təqdim edilmişdir.

**2021-2023-cü illər ərzində ASCO tərəfindən vergi ödənişləri, min manat**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Mənfəət vergisi | 11,379 | 13,155 | 14,479 |
| Əmlak vergisi | 5,446 | 6,877 | 8,704 |
| Əlavə dəyər vergisi | 1,780 | 6,814 | 1,644 |
| Muzdlu ödəmə mənbəyində vergi | 1,654 | 18,875 | 21,540 |
| Torpaq vergisi | 215 | 191 | 191 |
| Digər vergi və ödənişlər | 552 | 1,455 | 804 |
| **Cəmi:** | **21,026** | **47,367** | **47,362** |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə, Bakı Gəmiqayırma Zavodunun Azərbaycan İnvestisiya Şirkətinə məxsus səhmlərinin və istiqrazların ASCO tərəfindən alınması məqsədi ilə, 2023-cü ilin dekabr ayında Gəmiçiliyin nizamnamə kapitalının artırılmasına 226 milyon AZN vəsait ayrılmışdır.

## ƏMƏLİYYAT NƏTİCƏLƏRİ

### Yükdaşımalar

ASCO tərəfindən davamlı olaraq yükdaşıma bazarları, Azərbaycan üzərindən keçən yükdaşıma marşrutlarının digər marşrutlarla müqayisədə rəqabət qabiliyyəti, Xəzər üzərindən keçən marşrutlara əlavə yüklərin cəlb edilməsi imkanları araşdırılır və müvafiq olaraq potensial yeni yüklərin cəlb edilməsi üçün endirimli tariflər tətbiq edilir. Bu məqsədlə, hesabat dövründə Qazaxıstan və Türkmənistan istiqamətlərində daşınan bir sıra yüklərə, o cümlədən avtotexnika, neft məhsulları, paraksilol, benzol, Azərbaycanda istehsal olunmuş qida məhsulları, soyuducu vaqonları müşayiət edən maşın şöbəsi və digər yüklərə endirimlər tətbiq edilmişdir. Eyni zamanda, ASCO tərəfindən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində Çin-Avropa istiqamətində konteyner və müxtəlif vaqon yüklərinin daşınmasına tətbiq olunan endirimlər hesabat dövründə də qüvvədə saxlanılmışdır.

Aşağıda 2021-2023-cü illər ərzində ASCO-nun gəmiləri ilə daşınan yüklərin həcmi, o cümlədən daşınan vaqon və avtotexnikanın (TİR) sayı barədə məlumat təqdim edilmişdir.

**Yük növləri üzrə yükdaşıma həcmi, mln t**




**2021-2023-cü illər ərzində vaqon və avtotexnika daşınması, ədəd**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Daşınmış vaqonların sayı | 30,466 | 38,635 | 37,642 |
| Daşınmış avtotexnikanın (TİR) sayı | 30,893 | 35,290 | 35,207 |




Regionda mövcud geo-siyasi vəziyyət hesabat dövrü ərzində Xəzər üzərindən yükdaşıma həcmlərinə də təsir göstərmişdir. Belə ki, Qazaxıstan tərəfindən xam neft və neft məhsullarının ixracının alternativ marşrutlara yönəldilməsi imkanları araşdırılır və 2023-cü ildən etibarən Qazaxıstandan qərb istiqamətində ixrac edilən xam neft həcmlərinin bir qismi Azərbaycan üzərindən marşruta yönəldilmişdir. Növbəti illərdə bu həcmlərin artırılması nəzərdə tutulmuşdur. Hazırda, Xəzərdən kənar hövzələrdə ASCO-nun 2 ədəd tanker və 4 ədəd quru yük gəmisi istismar olunur. Eyni zamanda, Xəzərdən kənarda fəaliyyətin genişləndirilməsi planları çərçivəsində, ASCO-nun bu hövzələrdə yükdaşıma potensialını artırmaq və daha böyük dedveytli gəmilərlə daşıma seqmentinə daxil olmaq məqsədi ilə, 2023-cü ildə SOCAR və ASCO tərəfindən paritet əsaslarla “SA Maritime” birgə müəssisəsi təsis edilərək Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçirilmişdir.

“SA Maritime” AFEZCO birgə müəssisəsi tərəfindən hər birinin yükgötürmə qabiliyyəti təxminən 115,000 ton olan “Qarabağ”, “Şuşa” və “Zəngəzur” adlı 3 ədəd “Aframax” tipli tanker alınaraq istismara verilmişdir. Bu gəmilərin texniki idarəetməsi isə ASCO-nun 100% törəmə müəssisəsi olan və gəmilərin beynəlxalq tələblərə uyğun idarə edilməsini təmin edən “ASCO Ship Management AFEZCO” şirkəti tərəfindən həyata keçirilir. Sözügedən gəmilərin alınması üzrə ASCO-nun payının maliyyələşdirilməsi Gəmiçilik tərəfindən yerli bazarda uğurla tədavülə buraxılan “ASCO istiqrazları”ndan cəlb olunan vəsait hesabına həyata keçirilmişdir.

Belə ki, 2022-ci ilin dekabr ayında, Gəmiçiliyin tarixində ilk dəfə olaraq, ASCO tərəfindən istiqrazlar tədavülə buraxılmışdır. Ümumi dəyəri 100,000,000 ABŞ dolları, hər birinin nominal dəyəri 1,000 ABŞ dolları olan, 5 il müddətli, 6% dərəcəli "ASCO istiqrazları" müvəffəqiyyətlə tədavülə buraxılmışdır.

## Neft sənayesinə göstərilən ixtisaslaşmış ofşor xidmətləri

Aşağıdakı cədvəldə, 2021-2023-cü illər ərzində ASCO-nun ixtisaslaşmış ofşor donanmasındakı gəmilər tərəfindən işlənmiş günlər barədə məlumat təqdim olunmuşdur.

**İxtisaslaşmış neft donanmasının əməliyyat nəticələri, işlənmiş günlərin sayı:**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Cəmi işlənmiş günlər | 37,802 | 37,439 | 37,111 |

OPEC təşkilatı çərçivəsində neft hasilatının azaldılması üzrə respublikamız tərəfindən götürülən öhdəliyin icrası çərçivəsində, bəzi dəniz neft-qaz yataqlarında hasilat azaldılmış və müvafiq olaraq ixtisaslaşmış ofşor xidmətlərinə olan tələbat nisbətən azalmışdır.

2023-cü ildə SOCAR və ASCO tərəfindən beynəlxalq nüfuzlu məsləhətçi şirkət "McKinsey&Company" cəlb edilməklə, SOCAR-ın ixtisaslaşmış ofşor gəmilərinə olan uzunmüddətli optimal tələbatının qiymətləndirilməsi üzrə birgə layihə həyata keçirilmişdir. Sözügedən layihə çərçivəsində SOCAR tərəfindən ("Azneft" İB, "UBOC", "Bahar Energy Əməliyyat Şirkəti" və "JOCAP" şirkətləri daxil olmaqla) uzunmüddətli perspektivdə ASCO-nun ixtisaslaşmış ofşor gəmilərinə tələbat müəyyən edilmişdir. Eyni zamanda, layihə çərçivəsində həm



SOCAR, həm də ASCO üçün mümkün risklər nəzərə alınmaqla, gəmilərin yeniləri ilə əvəz edilməsi və bir sıra mövcud gəmilərin təmir edilərək istismar müddətinin uzadılması məsələlərinə də baxılır.

Eyni zamanda, ASCO-nun ixtisaslaşmış ofşor gəmiləri Xəzər dənizinin Azərbaycan sektoru ilə yanaşı, digər sektorlarda həyata keçirilən layihələrdə iştirak etmişdir. Belə ki, Xəzərin Rusiya sektorunda yerləşən "Filanovski" yatağının ətrafında həyata keçirilən dibdərinləşdirmə işlərinə ASCO-nun müvafiq gəmiləri cəlb olunmuşdur və bu işlər 2022-ci ildə tamamlanmışdır.

### Gəmi təmiri və tikintisi

ASCO-nun strukturuna daxil olan "Bibiheybət" Gəmi Təmiri Zavodu və "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda 2021-2023-cü illər ərzində həyata keçirilən gəmi təmiri işləri barədə məlumat aşağıdakı cədvəldə təqdim edilmişdir.

**Gəmi təmiri üzrə nəticələr, təmir sayı:**

| Təmirin növü | BGTZ | | | ZGTTZ | | |
|---|---|---|---|---|---|---|
| | 2021 | 2022 | 2023 | 2021 | 2022 | 2023 |
| Klass təmiri | 18 | 25 | 17 | 7 | 13 | 7 |
| Dok təmiri | 35 | 43 | 42 | 18 | 12 | 11 |
| Cari təmir | 10 | 22 | 16 | 13 | 8 | 9 |
| Qəza təmiri | 3 | 9 | 2 | 0 | 0 | 0 |
| Səfərlərarası naviqasiya təmiri | 159 | 201 | 247 | 479 | 536 | 760 |
| Tərsanə xidməti | 21 | 32 | 35 | 0 | 0 | 0 |
| **Cəmi:** | **246** | **332** | **359** | **517** | **569** | **787** |





Hesabat dövü ərzində, "Bibiheybət" və "Zığ" zavodları tərəfindən ASCO-nun donanmalarında istismar olunan gəmilərlə yanaşı Xəzər dənizində fəaliyyət göstərən digər gəmiçilik şirkətlərinə məxsus gəmilərə də gəmi təmiri xidmətləri göstərilmişdir. Qeyd edək ki, 2022-ci ildə sözügedən zavodlar tərəfindən kənar gəmiçilik şirkətlərinə məxsus 48 gəmiyə, 2023-cü ildə isə 49 gəmiyə gəmi təmiri və tərsanə xidmətləri təqdim edilmişdir.

### Donanmanın yenilənməsi

ASCO-nun Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılması və onun yükdaşıma potensialının dayanıqlılığının təmin olunması məqsədi ilə, donanmasının müasir standartlara, yük sahibləri və aparıcı neft-qaz şirkətlərinin tələblərinə cavab verən səviyyədə saxlanılması, istismar müddətini başa vurmuş gəmilərin mərhələli şəkildə yenilənməsi, bazardakı tələbata uyğun olaraq yeni gəmilərin tikilməsi mühüm strateji əhəmiyyət kəsb edir. Bu istiqamətdə, 2022-ci ildə ASCO-nun sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda (BGZ) inşa edilmiş 1 ədəd 56 vaqon və ya 50 yük maşını (TİR), eləcə də 100 nəfər sərnişin tutumlu Ro-Pax/Bərə tipli "Zərifə Əliyeva" gəmisi və 1 ədəd 8,000 ton yükgötürmə qabiliyyətinə malik "Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verilmişdir.

ASCO-nun strukturuna daxil olan "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda inşa olunan 6 ədəd kiçik su tutumlu katerlərdən birincisi - "ASCO-1" kateri 2023-cü ilin may ayında istismara verilmişdir. Daha sonra, həmin ilin noyabr ayında isə eyni tipli ikinci gəminin - "Tərtərçay" gəmisinin inşası tamamlanmışdır. Hazırda, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda 4 ədəd kiçik su tutumlu katerin tutumlu katerin inşası üzrə işlər davam etdirilir və bu gəmilərin mərhələli şəkildə istismara verilməsi planlaşdırılır.




Donanmanın yenilənməsi üzrə işlərin davamı olaraq, ASCO tərəfindən BGZ-də 2022-ci ildə 1 ədəd Ro-Pax/Bərə tipli gəminin, 2023-cü ildə isə 1 ədəd 8,000 tonluq tankerin tikintisi üzrə sifarişi yerləşdirilmişdir. Bununla yanaşı, hazırda növbəti 8,000 tonluq tankerin tikintisi üzrə işlər yekunlaşmaq üzrədir və bu gəminin 2024-cü ildə istismara verilməsi nəzərdə tutulmuşdur.

Bundan sonra, ASCO tərəfindən BGZ-də 3 ədədi sərnişin, 1 ədədi böyük dalğıc gəmisi olmaqla, ümumilikdə 4 yeni gəminin sifarişi yerləşdirilmişdir. Hazırda, 3 ədəd kiçik dalğıc gəmisi üçündə tariflər müəyyən edildikdən sonra BGZ-də inşa edilməsi üçün sifariş verilməsi nəzərdə tutulmuşdur.

ASCO-nun Xəzərdən kənar bazarlarda fəaliyyətinin genişləndirilməsi çərçivəsində, bu hövzələrdə iri tutumlu quru yük gəmiləri seqmentinə daxil olmaq məqsədi ilə, Handysize tipli quru yük gəmilərinin alınması nəzərdə tutulmuşdur. Bu gəmilər hazırda ASCO-nun donanmasında olan quru yük gəmilərindən təxmini 7-9 dəfə daha çox tutuma malikdir. Handysize tipli gəmilərin alışının maliyyələşdirilməsi məqsədi ilə, ASCO tərəfindən Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə əməkdaşlığa başlanılmışdır. Belə ki, 2022-ci ilin sentyabr ayında ASCO, Azərbaycan İnvestisiya Holdinqi (AİH) və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında dövlət zəmanəti olmadan, 100 mln ABŞ dollarına kimi kreditin ayrılması barədə Mandat məktubu imzalanmışdır. Daha sonra, mandat məktubuna uyğun olaraq, AYİB tərəfindən “Drewry”, “DNV”, “Clifford Chance” və digər beynəlxalq nüfuzlu məsləhətçi şirkətlər cəlb edilməklə, eləcə də AYİB-in müxtəlif ixtisaslaşmış




ekspertləri tərəfindən ASCO-da fərqli istiqamətlərdə geniş diaqnostikalar aparılmışdır. ASCO-da aparılan diaqnostikalar maliyyə vəziyyəti və maliyyə idarəetməsi, Xəzər və Xəzərdən kənarda kommersiya fəaliyyəti və əməliyyatların idarə olunması, Gəmiçiliyin fəaliyyətinin mövcud beynəlxalq sanksiyalara uyğunluğu, təchizat və satınalmalar, tətbiq olunmuş korporativ idarəetmə sistemi, hüquq, texniki idarəetmə, ətraf mühitin mühafizəsi və sosial sahələri əhatə etmişdir. 2023-cü il ərzində AYİB tərəfindən Gəmiçilikdə aparılan bütün diaqnostika layihələri uğurla tamamlanmış və müsbət rəy əldə edilmişdir. Nəticədə, Handysize tipli gəmilərin alınması üçün ASCO-ya kreditin ayrılması AYİB-in Direktorlar Şurası tərəfindən təsdiq edilmişdir və 2024-cü ilin fevral ayında ASCO ilə AYİB arasında ümumi dəyəri 60 mln ABŞ dolları olan kredit müqaviləsi imzalanmışdır. Gəmilərin alınmasının 70%-nin AYİB-in ayırdığı kredit vəsaiti, 30%-nin ASCO-nun daxili imkanları hesabına maliyyələşməsini nəzərdə tutan müqavilə 2 tranşdan ibarətdir. Hər tranş üzrə kredit həcmi 21 milyon, ASCO-nun daxili imkanları hesabına maliyyələşmə isə 9 milyon olmaqla, hər iki tranş üzrə ümumi məbləğ 60 milyon ABŞ dolları təşkil edir. İlk Handysize tipli gəmi 2024-cü ilin may ayında istismara verilmişdir.

Bundan əlavə, ASCO tərəfindən Aframax tipli gəminin alınaraq istismara verilməsi nəzərdə tutulmuşdur ki, bu gəminin alınmasının maliyyələşdirilməsi məqsədi ilə, 2023-cü ilin dekabr ayında ASCO-nun ümumi dəyəri 50,000,000 (əlli milyon) ABŞ dolları olan növbəti istiqrazları müvəffəqiyyətlə tədavülə buraxılmışdır. Aframax tipli tankerin 2024-cü ildə alınaraq istismara verilməsi planlaşdırılır.

Qeyd edilənlərdən əlavə, Gəmiçiliyin Müşahidə Şurası tərəfindən təsdiq edilmiş investisiya planına uyğun olaraq, növbəti illər ərzində ASCO-nun nəqliyyat donanması üçün tanker və quru yük gəmilərinin BGZ-də tikintisi, Xəzərdən kənar hövzələrdə fəaliyyətin genişləndirilməsi çərçivəsində Aframax tipli tankerin alınması, nəzərdə tutulmuşdur.

Ümumilikdə, donanmanın yenilənməsi istiqamətində, 2014-cü ildən etibarən 28 ədəd yeni gəmi, o cümlədən nəqliyyat donanması üçün 8 ədəd quru yük gəmisi, 4 ədəd tanker və 2 ədəd Ro-Pax/Bərə tipli gəmi, ixtisaslaşmış ofşor donanması üçün isə 1 ədəd lövbər daşıyan təchizat-yedək gəmisi, 7 ədəd təchizat gəmisi, 1 ədəd liman-yedək gəmisi, 3 ədəd sərnişin gəmisi və 2 ədəd kiçik su tutumlu kater gəmisi istismara verilmişdir.

**Təhsil və təlim**

Gəmiçiliyin yüksək ixtisaslı, müasir texnika ilə işləməyi bacaran, peşəkar, gənc kadrlara olan tələbatı ASCO-nun tərkibində fəaliyyət göstərən Azərbaycan Dövlət Dəniz Akademiyası tərəfindən təmin olunur. ADDA-da tələbə buraxılışının Gəmiçiliyin yeni kadrlara olan tələbatı ilə uzlaşdırılması məqsədi ilə, tələbə buraxılışında kəmiyyətə deyil, keyfiyyətə üstünlük verilir. Bu istiqamətdə aparılan işlərin nəticəsində Akademiyaya minimum qəbul balı yüksəlmişdir. Belə ki, hesabat dövrünə düşən üç təhsil ilində qəbul imtahanında 34 nəfər 500-dən yuxarı, 2 nəfər isə 600-dən yuxarı bal toplayan tələbə ADDA-da ali təhsil almağı seçmişdir. Eyni zamanda, yerli abituriyentlərlə yanaşı, xarici ölkələrdən də ADDA-da təhsilə maraq artmışdır və hesabat dövründə Misir, Sudan və İraq vətəndaş-



ları olmaqla 40 nəfər tələbə Akademiyaya qəbul olmuşdur. Hesabat dövrünün sonu, 31 dekabr 2023-cü il tarixinə ADDA-da bakalavr pilləsində təhsil alan tələbələrin sayı 858 nəfər, magistr pilləsi üzrə təhsil alan tələbələrin sayı isə 52 nəfər təşkil etmişdir. Azərbaycan Dövlət Dəniz Akademiyasının digər ali texniki təhsil və elmi-tədqiqat müəssisələri ilə əlaqələri daim genişlənməkdədir. 2022-ci ildə ADDA ilə milli Aerokosmik Agentliyinin "Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutu" arasında birgə əməkdaşlığa dair müqavilə imzalanmışdır. Müqavilə çərçivəsində ADDA-nın "Tətbiqi mexanika" kafedrası ilə Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutu tərəfindən kadr hazırlığı və elmi-tədqiqat sahəsində birgə işlərin görülməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, 2023-cü ildə ADDA-da "Gəmi mühəndisi-2023" texnologiya sərgisi keçirilmişdir. Sərgidə Akademiyanın kafedraları, eləcə də "ASCO Mühəndislik" MMC, Dəniz Nəqliyyat Donanması, Xəzər Dəniz Neft Donanması, "Bibiheybət" Gəmi Təmiri Zavodu, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu özlərinin elmi və texniki yaradıcılıq fəaliyyətinin məhsulları, fundamental və tətbiqi tədqiqatlar, o cümlədən texnoloji yeniliklər və innovasiyalarla çıxış ediblər. Sərgi, elmi-texniki və tətbiqi yaradıcılığı, gənclərin biznes ideyalarını dəstəkləmək və inkişaf etdirmək, eləcə də Akademiyada startap hərəkatının genişləndirilməsi və "TEKNOFEST" texnologiya sərgisində iştiraka hazırlıq məqsədi ilə təşkil edilmişdir.





# KORPORATİV İDARƏETMƏ SİSTEMİ



# SƏHMDAR, MÜŞAHİDƏ ŞURASI VƏ İDARƏ HEYƏTİ

ASCO 100% səhmləri dövlətə məxsus gəmiçilik şirkətidir. ASCO-nun Ümumi Yığıncağının müstəsna səlahiyyətləri Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqi tərəfindən həyata keçirilir:

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri:

- ASCO-nun yenidən təşkili və ləğvi
- Müşahidə Şurasının və icra orqanının rəhbərlərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi,

Azərbaycan İnvestisiya Holdinqinin Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırmaqla həyata keçirdiyi səlahiyyətlər:

- ASCO-nun nizamnaməsinin, strukturunun, eləcə də illik hesabatlarının, maliyyə hesabatlarının və dividend siyasətinin təsdiq edilməsi,
- Nizamnamə kapitalının miqdarının müəyyən edilməsi,
- Mənfəət və zərərin bölüşdürülməsi,
- Qiymətli kağızların buraxılması üzrə qərar qəbulu,
- Xüsusi əhəmiyyətli əqdin, eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5%-indən çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərarın qəbul edilməsi

Gəmiçiliyin fəaliyyətinə ümumi nəzarəti isə ASCO-nun Müşahidə Şurası icra edir. Gəmiçiliyin Müşahidə Şurası və İdarə Heyətinin tərkibi Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə təyin edilmişdir. ASCO-nun Müşahidə Şurasının tərkibi aşağıda təqdim edilmişdir:

- Samir Şərifov – Müşahidə Şurasının sədri, Azərbaycan Respublikasının maliyyə naziri,
- Rəhman Hümmətov – Müşahidə Şurasının üzvü, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini,
- Mətin Eynullayev – Müşahidə Şurasının üzvü, Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi,
- Xəyyam Məmmədov – Müşahidə Şurasının üzvü, Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini,
- Vüqar Məcidli – Müşahidə Şurasının üzvü, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri.

Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar daxildir:

- ASCO-nun uzunmüddətli inkişaf strategiyasının təsdiq edilməsi
- Xərclər və gəlirlər smetasının təsdiq edilməsi və onun icrasına nəzarətin həyata keçirilməsi,
- Gəmiçiliyin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasətlərin, daxili qaydaların, habelə filial və nümayəndəliklərin əsasnamələrinin təsdiq edilməsi,
- Müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri ASCO-nun aktivlərinin 5%-dək hissəsini təşkil edən əqdlərin təsdiq edilməsi,
- Müşahidə Şurası yanında müxtəlif komitələrinin yaradılması, onların əsasnamələrinin təsdiq edilməsi, rəhbərlərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi,
- Mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla ASCO-nun aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılığın verilməsi və digər.

ASCO-nun İdarə Heyətinin tərkibi aşağıdakı kimidir:

- Rauf Vəliyev – İdarə Heyətinin sədri
- Mübariz Cabbarov – İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin birinci müavini
- Cəlal Fərəcli – İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin müavini
- Cəbrayıl Mahmudlu – İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin müavini
- Nəzrəddin Əhmədzadə – İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin müavini
- Zaur Nağıyev – İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin müavini
- Tariyel Mirzəyev – İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin müavini

**Ümumilikdə, ASCO-nun korporativ idarəetmə strukturunun qrafik təsviri aşağıda təqdim edilmişdir:**



## KORPORATİV İDARƏETMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ İŞLƏR

İdarəetmə və investisiya qərarlarının qəbul edilməsinin və maliyyə-təsərrüfat fəaliyyətinin effektivliyinin artırılması məqsədilə, ASCO korporativ idarəetmə sisteminin tətbiqi və davamlı təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verir. ASCO yarandığı dövrdən korporativ idarəetmə sisteminin qurulması istiqamətində bu sistemin zəruri elementləri olan şəffaflıq və hesabatlılıq təmin edilmiş, beynəlxalq təcrübədə geniş tətbiq edilən normativ sənədlər bazası hazırlanaraq tətbiq olunmuş, kollegial qərar qəbulu üçün müvafiq sahələr üzrə komitələr təsis edilmiş və digər tədbirlər görülmüş və layihələr icra edilmişdir.

Hesabat dövründə Gəmiçiliyin Nizamnaməsi yenilənmişdir və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının 2022-ci il 8 iyul tarixli qərarı ilə təsdiq edilmiş, 2022-ci il 15 noyabr tarixində dövlət qeydiyyatından keçirilmişdir. Bundan əlavə, AİH-in Müşahidə Şurasının qərarı ilə ASCO-nun korporativ idarəetmə standartları təsdiq edilmişdir.

ASCO yarandığı dövrdən fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə və müvafiq uyğunluq sertifikatlarının əldə edilməsinə xüsusi diqqət göstərir. Bu istiqamətdə, Amerika Gəmiçilik Bürosu (ABS) tərəfindən ASCO-da çoxsaylı audit yoxlamaları keçirilmiş, və bu yoxlamaların nəticəsində Gəmiçilik müvafiq uyğunluq sertifikatlarına layiq görülmüşdür. Bundan əlavə, ASCO-nun fəaliyyətinin həmin sertifikatların tələblərinə uyğun təşkil edilməsi məqsədi ilə, ABS tərəfindən davamlı olaraq audit yoxlamaları həyata keçirilir. Hesabat dövründə, Böyük Britaniya-



nın LRQA (Lloyd's Register) beynəlxalq təsnifat cəmiyyətinin audit xidmətinin apardığı ilkin və təkrar yoxlamaların nəticələrinə əsasən, ASCO ISO 37001 – "Anti-korrupsiya idarəetmə sistemi" beynəlxalq standartı üzrə sertifikata layiq görülmüşdür. Ümumilikdə, hazırda ASCO aşağıdakı sertifikatlara sahibdir və müvafiq konvensiyaların tələblərinə cavab verir:

- ISO 9001:2015 (Keyfiyyətin idarə edilməsi)
- ISO 14001:2015 (Ekoloji idarəetmə)
- ISO 50001:2011 (Enerji səmərəliliyinin idarə edilməsi)
- ISO 45001:2018 (Sağlamlıq və təhlükəsizlik idarəetmə sistemi)
- ISO 37001:2016 (Anti-korrupsiya idarəetmə sistemi)
- ISM code 2018 (Təhlükəsizliyin beynəlxalq idarəetmə sistemi)
- ISPS code 2003 (Gəmi və Liman vasitələrinin mühafizəsi haqqında beynəlxalq məcəllə)
- SOLAS (Dənizdə həyat təhlükəsizliyi üzrə beynəlxalq konvensiya)
- MARPOL (Dəniz çirklənməsi əleyhinə konvensiya)
- STCW (Təlimləndirmə standartları, Sertifikatlaşma və Növbəçəkmə üzrə Beynəlxalq Konvensiya)

Gəmiçiliyin strateji inkişaf istiqamətlərinə uyğun olaraq, kredit reytinqinin alınması üçün ASCO beynəlxalq nüfuzlu reytinq agentlikləri ilə əməkdaşlıq etmişdir. ASCO 2016-cı ildə tarixində ilk dəfə Fitch Ratings şirkətindən kredit reytinqi almışdır və daha sonra 2019-cu ildə Moody's şirkəti dəvət olunaraq Gəmiçiliyin kredit reytinqi yenidən qiymətləndirilmişdir. Hesabat dövrü ərzində isə, 2022-ci ildə ASCO yenidən Fitch Ratings şirkəti ilə kredit reytinqinin əldə edilməsi üçün əməkdaşlıq etmişdir. Hər üç halda reytinq agentlikləri tərəfindən ASCO-nun biznes modeli təhlil edilmiş, çoxsaylı görüşlər keçirilərək araşdırmalar aparılmış, ASCO-nun likvidliliyi və öz kredit öhdəliklərini yerinə yetirmək qabiliyyətinin dayanıqlı olduğu müəyyənləşdirilmişdir.

ASCO-da biznes proseslərin avtomatlaşdırılması, innovativ elektron sistemlərin və proqram təminatlarının tətbiq edilməsinə xüsusi diqqət ayrılır. Bu istiqamətdə, SAP ERP və onun müvafiq modulları, eləcə də donanmanın istismarı, gəmi təmiri və layihələndirilməsi, insan resurslarının idarə edilməsi və ümumi inzibati işlər üzrə müxtəlif sistem və proqramlar tətbiq edilmişdir.

Hesabat dövründə, SAP ERP sisteminin PM - gəmi təmiri və texniki xidmətin planlaşdırılması modulu müvəffəqiyyətlə istifadəyə verilmişdir. Eyni zamanda, SAP ERP sistemi çərçivəsində məlumat mübadiləsinin operativliyinin artırılması məqsədi ilə, SAP serverləri "S4 / HANA" sisteminə keçirilmişdir.



Hal-hazırda, SAP sisteminin vergi uçotu modulunun tətbiqi üzərində iş davam etdirilir. Eyni zamanda, ASCO-nun əməkdaşları üçün elektron kabinet – "My ASCO" mobil tətbiqi istifadəyə verilmişdir. Bu mobil tətbiq əməkdaşlar üçün bir sıra xidmətlərin rəqəmsal platformaya keçirilərək istifadə rahatlığının və operativliyin təmin edilməsinə, elektron xidmətlərin ASCO-da çalışan dənizçilər üçün əlçatanlığının artırılmasına xidmət edir. Belə ki, "My ASCO" mobil tətbiqi Gəmiçiliyin personalı üçün ASCO ilə bağlı ən son məlumatları əldə etmək, mobil tətbiq üzərindən iş yerindən müxtəlif növ arayış və sənədlər sorğu etmək, ASCO əməkdaşları ilə birbaşa yazışmaq, müxtəlif növ toplu və fərdi bildirişlər, elanlar, sənəd və sertifikatların bitmə vaxtı barədə xatırlatma və digər vacib məlumatlar almaq, real vaxt rejimində aylıq əmək haqqı üzrə ətraflı onlayn çıxarış əldə etmək, məzuniyyət günləri barədə məlumat almaq və məzuniyyət üçün elektron formada müraciət etmək, şəxsi sənədlərin elektron surətini yükləmək, xidməti fəaliyyətin qiymətləndirilməsinin son illər ərzində nəticələri ilə tanış olmaq, eləcə də ASCO-nun daxili onlayn təlim platformasına keçid etmə və digər bir sıra rəqəmsal xidmətlərdən yararlanmaq imkanı verir. Bundan əlavə, ASCO-nun aparatı və struktur idarələrinə gələn və yaxud iş gününün sonunda çıxan, uyğun avtobus marşrutları, eləcə də hər gün aparatda və struktur bölmələrdə nahar zamanı təqdim edilən yeməklərin siyahısı, ASCO-da mövcud açıq vakansiyalar barədə məlumat əldə etmək və uyğun vakansiya üzrə müraciət göndərmək mümkündür. Həmçinin, "My ASCO" mobil tətbiqi dənizçilərə istənilən məkandan müxtəlif sorğu, təklif, şikayət, eləcə də Gəmiçiliyin rəhbərliyinin qəbuluna yazılmaq üçün elektron müraciət göndərmək imkanı yaradır. Eyni zamanda, əməkdaşlar arasında ünsiyyətin asanlaşdırılması məqsədi ilə, mobil tətbiq çərçivəsində korporativ sosial şəbəkə fəaliyyət göstərir.

## STRATEJİ İDARƏETMƏ

2022-ci ildə ASCO tərəfindən beynəlxalq nüfuzlu məsləhətçi şirkət KPMG ilə birgə Gəmiçiliyin 2022-2030-cu illəri əhatə edən Strategiyası yenilənmiş və ASCO-nun Müşahidə Şurasının 29 iyun 2022-ci tarixli iclasında ümumi konsepsiya nöqteyi-nəzərdən məqbul hesab edilmişdir. Sözügedən Strategiyaya uyğun olaraq qısamüddətli investisiya planı tərtib edilmiş və Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir.

2023-cü ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, ASCO-da özəl investisiyaların cəlb edilməsi istiqamətində layihənin icrasına başlanılmışdır. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi altında və AİH-in dəstəyi ilə həyata keçirilən layihənin icrasına beynəlxalq nüfuzlu məsləhətçi şirkət Boston Consulting Group (BCG) cəlb edilmişdir. Layihə çərçivəsində BCG tərəfindən ASCO-da müvafiq təhlillərin aparılması, özəl investisiyaların cəlb edilməsi üzrə mümkün istiqamətlərin müəyyən edilməsi və uyğun hesab edilən istiqamət üzrə özəl investisiyaların cəlb edilməsi üçün müvafiq hazırlıq işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur.



## ŞƏFFAFLIQ, HESABATLILIQ VƏ MƏLUMATLARIN AÇIQLANMASI

2014-cü ildən etibarən ASCO-da Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (IFRS) tətbiq edilmişdir. Bu standartlara uyğun hazırlanmış Gəmiçiliyin maliyyə hesabatları hər il beynəlxalq nüfuzlu audit şirkəti tərəfindən audit olunur və şəffaflıq prinsiplərinə uyğun olaraq, auditor rəyi ilə birgə ictimaiyyətə açıq şəkildə

ASCO-nun rəsmi internet səhifəsində dərc edilir. Konsolidasiya edilmiş maliyyə hesabatları ASCO-nun bütün struktur idarələrini və törəmə müəssisələrini əhatə edir.

Həmçinin, 2014-cü ildən başlayaraq ASCO-nun iki illik dövrü əhatə edən Dayanıqlı İnkişaf haqqında hesabatları hazırlanır. Gəmiçiliyin 2014-2015-ci illəri əhatə edən ilk Dayanıqlı İnkişaf haqqında da hesabatı 2016-cı ildə dərc edilmişdir və bununla da, ASCO Xəzər hövzəsində sosial korporativ məsuliyyəti üzrə fəaliyyətinə dair hesabatı açıqlayan ilk gəmiçilik şirkəti olmuşdur. Cari hesabat ASCO-nun Dayanıqlı inkişaf haqqında 5-ci hesabatıdır. Bütün bu hesabatlar da beynəlxalq audit şirkəti tərəfindən audit olunmuşdur, müsbət rəy təqdim edilmişdir və açıq şəkildə Gəmiçiliyin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

ASCO-da Maliyyə və əməliyyat nəticələrinin açıqlanmasını şərtləndirən Məlumatların açıqlanması Siyasəti tətbiq edilmişdir.

İctimaiyyət ilə şəffaf, səmərəli kommunikasiya əlaqələrinin yaradılması məqsədilə ASCO-da İctimai Məsləhətləşmələr Şurası fəaliyyət göstərir. Şuranın tərkibinə ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), media nümayəndələri, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları, beynəlxalq ekspertlər və məsləhətçilər, eləcə də fəaliyyətlərində fərqlənən, Gəmiçilikdə çalışmış qocaman və hazırda çalışan dənizçilər daxildir. ASCO-nun fəaliyyət dövrü ərzində əldə olunmuş iqtisadi və əməliyyat nəticələri barədə müzakirələrdə maraqlı tərəflərin iştirakının təmin edilməsi, onlara şəffaf və doğru şəkildə məlumat verilməsi və müzakirələrdə ictimaiyyət tərəfindən bildirilən fikir və təkliflərin nəzərə alınması birbaşa Şura tərəfindən həyata keçirilir. Əlavə olaraq, ASCO-nun nailiyyətləri və əməliyyat nəticələri, Gəmiçilikdə baş verən yeniliklər və önəmli hadisələr, görülən işlər haqqında məlumatlar ASCO-nun rəsmi internet səhifəsi və sosial şəbəkə hesabları üzərindən, o cümlədən digər tanınmış kütləvi informasiya vasitələri ilə ictimaiyyətə şəffaflıqla çatdırılır.

## MÜKAFATLANDIRMA SİSTEMİ

Beynəlxalq təcrübəyə uyğun olaraq, strateji hədəflərin icrası istiqamətində personalın illik fəaliyyətinin qiymətləndirilməsi, onların bu sahədə motivasiyası və həvəsləndirilməsi məqsədi ilə, 2017-ci ildən etibarən ASCO-da illik fəaliyyətin nəticələrinə əsaslanan mükafatlandırma sistemi tətbiq edilir. Bu çərçivədə Gəmiçiliyin strateji hədəflərinə və məqsədlərinə nail olmağa yönəlmiş balanslaşdırılmış "Fəaliyyətin Səmərəlilik Göstəriciləri" (KPI-lar), hər bir KPI üzrə onların xüsusi çəkisi və hədəf dəyərlərini əhatə edən pasportlar işlənib hazırlanmışdır. ASCO-nun Korporativ Əsas Səmərəlilik Göstəriciləri (ƏSG) və İdarə Heyətinin üzvlərinə kaskadlanmış ƏSG-lər üzrə hədəflər və çəki payları ASCO-nun Müşahidə Şurası tərəfindən illik əsasda təsdiq olunur və bunun bazasında personalın mükafatlandırılması prosesi təşkil edilir.



Mükafatlandırma prosesinin tənzimlənməsini və koordinasiyasını təmin etmək məqsədi ilə, ASCO-da Mükafatlandırma üzrə İşçi Qrup təsis edilmişdir. Gəmiçilikdə tətbiq olunan mükafatlandırma sistemi aşağıdakı meyar, prinsip və məqsədləri özündə cəmləşdirir:

- Gəmiçiliyin qarşısında müəyyən etdiyi strateji hədəf və məqsədlərə çatmaq;
- Əməkdaşları inkişaf və təkmilləşməyə həvəsləndirmək, onları daha da məhsuldar fəaliyyətə motivasiya etmək;
- Yüksəkixtisaslı və aparıcı kadrların ASCO-ya bağlılığını və loyallığını daha da artırmaq, yeni güclü kadrları Gəmiçiliyə cəlb etmək;
- Gəmiçiliyin gəlirliliyini və rentabelliyini təmin etmək;
- Fəaliyyətin qiymətləndirilməsi və mükafatlandırmada şəffaflığı, ədalətliliyi, obyektivliyi təmin etmək.

Mükafatlandırma prosesinin avtomatlaşdırılması istiqamətində, 2021-ci ildən etibarən KPI-ların nəticələrinin və bonus məbləğlərinin hesablanması elektron sistem üzərindən avtomatik şəkildə həyata keçirilir.

## SATINALMA SİSTEMİ

ASCO-da təchizatçıların seçilməsi üçün satınalma prosedurları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə, ASCO-nun daxili sənədlərinə, həmçinin satınalmalar üzrə beynəlxalq gəmiçilik sahəsində qabaqcıl prinsiplərə uyğun həyata keçirilir. Hesabat dövründə, 3 noyabr 2023-cü il tarixində ASCO-nun Müşahidə Şurası tərəfindən "Satınalma Qaydaları", 7 mart 2024-cü il tarixində isə "Satınalma Komissiyasının tərkibi" təsdiq edilmişdir. "Satınalma Qaydaları"na uyğun olaraq, təchizatçıların seçim prosesi çərçivəsində onların etibarlılığı, maliyyə vəziyyətlərinin sabitliyi və müsbət işgüzar nüfuzları qiymətləndirilir. Sözügedən prosedur çərçivəsində müsbət qiymətləndirilən tərəflər Gəmiçiliyin potensial təchizatçılar siyahısına, mənfi qiymətləndirilən tərəflər isə etibarsız (riskli) təchizatçılar siyahısına daxil olunur. Hesabat

dövründə 76 belə dəyərləndirmə proseduru həyata keçirilmişdir və dəyərləndirmə zamanı mənfi hallar aşkar olunmamışdır. Satınalma əməliyyatları zamanı şəffaflığın təmin edilməsi Gəmiçilik üçün böyük önəm daşıyır və bu məqsədlə, həyata keçirilən müsabiqələr ASCO tərəfindən ictimaiyyətə açıq şəkildə, Gəmiçiliyin rəsmi internet səhifəsində dərc edilir. Bütün səhmləri dövlətə məxsus olan gəmiçilik şirkəti olaraq, ASCO tərəfindən müvafiq keyfiyyət tələblərinə uyğunluq nəzərə alınmaqla, yerli mallar, işlər və xidmət təchizatçılarına üstünlük verilir. Ümumilikdə, ASCO-nun cəmi satınalma xərclərində yerli malgöndərən və podratçıların payı 2022-ci ildə 82%, 2023-cü ildə isə 75% təşkil etmişdir. Qeyd edək ki, 2022-ci ildə 298 ədədi yerli olmaqla, ümumilikdə 431 ədəd, 2023-cü ildə isə 300 ədədi yerli olmaqla, ümumilikdə 419 ədəd təchizatçı ASCO-ya xidmət göstərmişdir.

## DAXİLİ AUDİT VƏ NƏZARƏT SİSTEMİ

Korporativ idarəetmə sisteminin effektivliyinin təmin edilməsi üçün daxili audit və daxili nəzarət funksiyaları mühüm əhəmiyyət kəsb edir. Bu funksiyaların icrasını təmin etmək məqsədi ilə, ASCO-da Daxili Audit Departamenti və Daxili Nəzarət Departamenti fəaliyyət göstərir. Daxili Audit Departamenti Cəmiyyətin əməliyyatlarına dəyər qazandırılması və inkişaf etdirilməsi məqsədilə fəaliyyət göstərən müstəqil, obyektiv əminlik və məsləhət xidmətlərini həyata keçirən funksiyadır. Daxili Audit Departamenti Cəmiyyətin məqsədlərinə nail olması üçün risklərin idarə edilməsi, nəzarət və korporativ idarəetmə proseslərinin səmərəliliyinin qiymətləndirilməsi və inkişaf etdirilməsi üzrə sistemli və strukturlu yanaşma tətbiq edir.

ASCO-da daxili auditin aparılması prosesi Daxili audit haqqında Azərbaycan Respublikası Qanununa, ASCO-nun Daxili Audit Departamentinin Əsasnaməsinə və Daxili Auditin Beynəlxalq Peşəkar Təcrübə modelinə uyğun olaraq təşkil edilir. Daxili Audit Departamenti peşəkar fəaliyyəti zamanı Daxili audit Standartları, Etik Davranış Kodeksi və Cəmiyyətin Müşahidə Şurası tərəfindən təsdiq edilmiş Əsasnaməsində müəyyən edilən məqsəd və hədəfləri, funksiyaları, hüquq və vəzifələri rəhbər tutur. Daxili audit sahəsində ümumi nəzarət Müşahidə Şurası yanında Audit Komitəsi tərəfindən həyata keçirilir və komitə aşağıdakı səlahiyyətlərə sahibdir:

- Cəmiyyətin audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili;
- Cəmiyyətin maliyyə və iqtisadi fəaliyyətinə, o cümlədən maliyyə hesabatlarının tamlığı və düzgünlüyünə səmərəli auditor nəzarəti sisteminin qurulması;
- Cəmiyyətin daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin etibarlılığına və səmərəliliyinə, habelə korporativ idarəetmə sahəsində sənədlərin və tapşırıqların icrasına nəzarət;
- Cəmiyyətdə kənar və daxili auditin müstəqilliyinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə riayət olunmasının təmin edilməsi prosesinə nəzarət;

- İdarə Heyəti və aidiyyəti struktur bölmələrlə birlikdə kənar auditorun hesabatının təhlil və müzakirə edilməsi, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planının hazırlanması üzrə Müşahidə Şurasına təkliflərin verilməsi;
- Audit komitəsinin səlahiyyətlərinə daxil edilən məsələlərə dair hər hansı araşdırma başladılması və ya həyata keçirilməsi.

Hesabat dövründə, ASCO-nun daxili audit departamentinin Əsasnaməsi və Audit Metodologiyası hazırlanmış və administrativ və funksional idarəçilik sistemi müəyyənləşmişdir. ASCO-da daxili audit «üç səviyyəli müdafiə modeli»nin üçüncü nəzarət funksiyasını təmin edir və əsasən növbəti 2 əsas istiqamət üzrə fəaliyyət göstərir:

- Təminat (audit yoxlaması) xidmətləri
- Konsaltinq (məsləhət xarakterli) xidmətləri

ASCO-da daxili nəzarət funksiyası Daxili Nəzarət Departamenti tərəfindən həyata keçirilir. Daxili Nəzarət Departamenti tərəfindən Gəmiçiliyin aparatı və struktur bölmələrin fəaliyyətinin Azərbaycan Respublikasının qanunvericiliyinə, daxili sənəd və qaydalara uyğunluğuna nəzarət edilir, biznes proseslərin və nəzarət mexanizmlərinin səmərəliliyi qiymətləndirilir. Ümumilikdə, Gəmiçilikdə daxili nəzarət sistemi beynəlxalq təcrübədə tətbiq edilən “Treadway” Komissiyasının Sponsor Təşkilatları Komitəsinin modelinin (COSO modelinin) 5 əsas komponentinin (nəzarət mühiti, risklərin qiymətləndirilməsi, nəzarət tədbirləri, məlumat və kommunikasiya, monitorinq) səmərəli təşkili yolu ilə təmin edilir.



## RİSKLƏRİN İDARƏ OLUNMASI

ASCO-da risklərin idarə olunması sistemi aparıcı beynəlxalq təcrübəyə uyğun təşkil edilmişdir. Belə ki, burada COSO-nun Müəssisələrdə Risklərin İdarəedilməsi (Enterprise Risk Management) metodologiyası əsas götürülmüşdür. ASCO-da risklərin idarə edilməsi sistemi "Risklərin idarə edilməsi Siyasəti", "Risklərin idarə edilməsi Konsepsiyası", "Risklərin idarə edilməsi üzrə Təlimat" və "Risklərin aşkar edilməsi, qiymətləndirilməsi və monitorinqi üzrə Təlimat" sənədləri ilə tənzimlənir.

ASCO-da risklərin idarə edilməsi sahəsində nəzarəti və işlərin koordinasiyasını təmin etmək məqsədi ilə, şirkətdaxili kollegial qurum olan Risklər üzrə Komitə və Risklər üzrə İşçi Qrup fəaliyyət göstərir. Risklər üzrə Komitə tərəfindən risklərin idarə edilməsi prosesi ilə əlaqədar görülən işlər, risklərin monitorinqi planı və həyata keçirilməsi nəzərdə tutulan önləyici tədbirlər qiymətləndirilir.

Gəmiçiliyin korporativ Risklər Xəritəsində əhəmiyyətli risklər kateqoriyasına əsasən strateji, personal, mal-material və avadanlıq təchizatı, kommersiya, informasiya texnologiyaları, təhlükəsizlik, bazar, maliyyə, ekoloji risklər aiddir. Bu risklərin baş verməehtimalının minimuma endirilməsi üçün xüsusi qabaqlayıcı tədbirlər müəyyən edilərək risk pasportlarında qeyd olunur, aparılan rüblük monitorinqlər çərçivəsində risklərin reallaşması hallarına və önləyici tədbirlərin icrasına nəzarət edilir. Ümumilikdə, 2022-ci ildə 265 monitorinq, 2023-cü ildə isə 282 monitorinq təşkil olunmuşdur.



ASCO tərəfindən risklərin idarə edilməsi çərçivəsində, yerli qanunvericilik və beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, icbari və könüllü sığortadan istifadə edilir. Azərbaycan Respublikasının "İcbari sığorta haqqında" Qanununa uyğun olaraq, ASCO aşağıdakı hallar üzrə sığortalanmışdır:

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta
- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası
- Daşınmaz əmlakın icbari sığortası
- Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası
- Sərnişinlərin icbari fərdi qəza sığortası

Gəmiçilikdə beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında" və "Neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" sığorta növləri tətbiq edilmişdir. Həmçinin, ASCO-da "Könüllü Tibbi Sığorta" və "Gəminin gövdə və mexanizmlərinin sığortası" kimi könüllü sığorta müqavilələri tətbiq olunmuşdur.



## KOMPLAYENS, BİZNES ETİKASI VƏ NİZAM-İNTİZAM QAYDALARI

ASCO-da tətbiq edilmiş Biznes Etikası Məcəlləsi və Daxili İntizam Qaydaları əməkdaşların davranış etikası, etika normaları və onlara əməl edilməsi ilə bağlı münasibətləri, peşə fəaliyyəti zamanı etika prinsipləri üzrə əsas tələbləri müəyyən edir. Biznes Etikası Məcəlləsinin əsas prinsiplərinə aşağıdakılar aiddir:

- Vahid və dəqiq etika normaları və dəyərlərinin, eləcə də ASCO-nun daxilində və qarşı tərəflərlə, o cümlədən üçüncü şəxslərlə münasibətlərdə peşəkar davranış prinsiplərinin tətbiq edilməsi;
- ASCO-da doğruluq, düzlük, etibarlı və qarşılıqlı hörmət mühitinin yaradılması və dəstəklənməsi;
- ASCO-nun fəaliyyətində şəffaflığın təmin edilməsi və biznes tərəfdaşları, təchizatçılar, müştərilər, hakimiyyət orqanları və digər üçüncü tərəflər qarşısında etibarın qorunub saxlanılması;
- İşçilərin qeyri-etik davranışı və ya tətbiq edilən qanunvericiliyə zidd olan davranışı ilə bağlı Gəmiçiliyin nüfuzuna dəyə biləcək zərərlərin aradan qaldırılması.

Qeyri-etik və uyğunsuz davranışlar barədə şikayətlərin bildirilməsi üçün ASCO-da 24/7 rejimində fəaliyyət göstərən "Qaynar xətt" əlaqə mərkəzi, eləcə də ASCO-nun rəsmi internet səhifəsində elektron müraciət bölməsi mövcuddur. Bundan əlavə, 2022-ci ildə istifadəyə verilmiş korporativ sosial şəbəkə funksiyasını yerinə yetirən "My ASCO" mobil tətbiqində müvafiq şikayətlərin bildirilməsi funksiyası mövcuddur. "Qaynar xətt" əlaqə mərkəzi Gəmiçiliyin vəzifəli şəxslərinin və digər əməkdaşlarının hərəkətlərinin qanuna və ya etika qaydalarına uyğun olmamasına dair şübhələr, ASCO-nun Biznes Etikası Məcəlləsi və korrupsiya ilə mübarizəyə dair müvafiq daxili sənədlərinə riayət olunmaması barədə əsaslı şübhələr, habelə Gəmiçiliyə və ya onun işçilərinə maddi zərər və ya onların işgüzar nüfuzuna ziyan vura biləcək digər pozuntular barədə operativ və anonim qaydada məlumatların daxil olmasına xidmət edir.



ASCO-nun inzibati binalarında və gəmilərində açıq görünən sahələrdə, eləcə də ASCO-nun rəsmi internet səhifəsində "Qaynar xətt" əlaqə mərkəzinin telefon nömrələri barədə məlumat yerləşdirilmişdir. Eyni zamanda, Gəmiçiliyin əməkdaşlarının biznes etikası sahəsində maarifləndirilməsi və məlumatlandırılması çərçivəsində davamlı təlimlər təşkil edilir və işçilərə müvafiq təlimatlar verilir.

Qeyd edək ki, Gəmiçiliyə 2022-ci ildə 176, 2023-cü ildə isə 92 şikayət daxil olmuşdur. Bu şikayətlər əsasən əmək münasibətləri və sosial vəziyyətə dair şikayətlər olmuş və onlarla bağlı araşdırma aparılmış, tələb olunduğu hallarda hadisə şahidləri və aidiyyəti şəxslərin izahatı alınmış və şikayətlərdə qaldırılan məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə və ASCO-nun daxili normativ sənədlərinə uyğun olaraq həll edilmişdir. Daxili nizam-intizam qaydalarının az əhəmiyyətli pozulması hallarında, İnsan resurslarının idarə edilməsi departamenti və əməkdaşın birbaşa rəhbəri tərəfindən xəbərdarlıq, təlimatlandırma və digər tədbirlər həyata keçirilir.

İnsan haqlarının qorunması Azərbaycan Respublikasının Konstitusiyası və ölkənin digər qanunvericilik aktları, Gəmiçiliyin Biznes Etikası Məcəlləsi, eləcə də beynəlxalq konvensiyalar, o cümlədən İnsan Hüquqlarının və Azadlıqlarının Müdafiəsi Haqqında Avropa Konvensiyasının tələbləri ilə tənzimlənir. ASCO üzrə aparılan audit yoxlamaları zamanı, insan haqlarının pozulması halları yoxlanılır və pozuntu olduğu halda bu pozuntunun aradan qaldırılması və gələcəkdə belə halın baş verməməsi üçün tədbirlər görülür. Eyni zamanda, insan haqları sahəsində işçilərin təlimatlandırılması mütəmadi həyata keçirilir. Hesabat dövrü ərzində işçilərin azadlıq və şəxsi toxunulmazlıq haqlarının pozulması, kollektiv müqavilələrin istifadəsi haqqını risk altına atan hallar, əməkdaşların əmək hüququ, təhlükəsizlik, tətil və istirahət, sosial təminat, təhsil, fikir və söz azadlığı, şərəf və ləyaqətin müdafiəsi, vətəndaşlıq və digər bu kimi hüquqlarının pozulması halları, köləlik, məcburi əmək və uşaq əməyindən istifadə halları, eləcə də təchizatçılarla münasibətdə insan haqlarının pozulması halları qeydə alınmamışdır. Eyni zamanda, 2022-2023-cü illər ərzində sosial və iqtisadi sahədə yerli və beynəlxalq qanun və qaydalara uyğun olmayan hallar baş verməmişdir.

ASCO daxilində komplayens (uyğunluq) funksiyası Gəmiçiliyin fəaliyyətinin şirkətdaxili etik standartlara, yerli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğunluğunu təmin edir. Bu çərçivədə komplayens funksiyası əməliyyatların izlənilməsi, mümkün uyğunsuzluq risklərinin təhlil edilməsi və müvafiq qabaqlayıcı tədbirlərin görülməsi ilə, Gəmiçiliyin dayanıqlı inkişafına, eləcə də maraqlı tərəflər arasında ASCO-nun etibarlılığının artmasına xidmət edir. Hesabat dövründə komplayens funksiyasını həyata keçirən əməkdaşlar müvafiq təlimlərə cəlb olunmuşdur.

## KORRUPSİYAYA QARŞI TƏDBİRLƏR

ASCO tərəfindən anti-korrupsiya tədbirləri "Korrupsiya ilə mübarizəyə dair Təlimat", "Korrupsiyaya qarşı Mübarizə Siyasəti" və "Korrupsiyaya qarşı Mübarizə Qaydaları" ilə tənzimlənir. Eyni zamanda, mümkün pozuntular haqqında məlumatların verilməsinin asanlaşdırılması və operativliyin təmin edilməsi məqsədilə "Qaynar xətt" əlaqə mərkəzi yaradılmışdır. Gəmiçilik üzrə "Korrupsiya ilə mübarizəyə dair Təlimat", "Korrupsiyaya qarşı Mübarizə Siyasəti" və "Korrupsiyaya qarşı Mübarizə Qaydaları"nın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- işəgötürənlə işçi arasında etimadın möhkəmləndirilməsi;
- qanuna zidd vəzifələrin icrasına yol verilməməsi;
- korrupsiya ilə əlaqədar hüquqpozmanın törədilməsini istisna edən şəraitin yaradılması;
- ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunması;
- istənilən növ təzahürdə korrupsiya fəaliyyətinin ASCO tərəfindən qəbul edilməməsi haqqında bütün maraqlı tərəflərdə vahid anlayışın yaradılması;
- ASCO üzrə korrupsiya risklərinin minimuma endirilməsi, fəaliyyətdə şəffaflığın artırılması;
- korrupsiya əleyhinə başlıca hərəkət qaydalarının və normalarının formalaşdırılması.

Həmçinin 2022-ci ildə beynəlxalq nüfuzlu təsnifat cəmiyyəti - LRQA (Lloyd's Register) tərəfindən ASCO-da audit yoxlamaları aparılmışdır və yoxlamaların nəticələrinə əsasən, ASCO-ya ISO 37001 – "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartı üzrə sertifikat təqdim edilmişdir.

Hesabat dövründə ASCO-da korrupsiya halı üzrə şikayət daxil olmamışdır. Həmçinin, Gəmiçilyin 27 nəfər əməkdaşı anti-korrupsiya üzrə təlimlərə cəlb edilmişdir.



## GƏLƏCƏK PLANLAR

ASCO tərəfindən korporativ idarəetmə sisteminin daha da təkmilləşdirilməsi istiqamətində layihələrin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, ASCO bir sıra yeni beynəlxalq sertifikatların, o cümlədən ISO 31000 (Risklərin idarə edilməsi standartı), ISO 37301 (Uyğunluq/Komplayens idarəetməsi sistemləri standartı), ISO 56002 "Innovation management" sertifikatının alınması, ISO 27001 üzrə sertifikatın alınması (Information security management systems) üzrə uyğunluq sertifikatlarının, eləcə də ESG üzrə reytinqin əldə edilməsi planlaşdırılır. Bundan əlavə, "Zığ" və "Bibiheybət" gəmi təmiri zavodlarında ISO standartı üzrə sertifikatlaşma işlərinə başlanılması planlaşdırılır. Eyni zamanda, 2024-cü ildə Daxili audit metodologiyasının yenilənməsi planlaşdırılmışdır.

Eyni zamanda, AYİB ilə əməkdaşlıq çərçivəsində ASCO-da İqlim ilə əlaqədar korporativ idarəetmə sisteminin, eləcə də Komplayens funksiyasının təkmilləşdirilməsi istiqamətində layihələrin icra edilməsi nəzərdə tutulmuşdur.



# İNSAN RESURSLARININ İDARƏEDİLMƏSİ



# İNSAN RESURSLARININ İDARƏEDİLMƏSİ SİYASƏTİ

Güclü, peşəkar və səriştəli personal Gəmiçiliyin dayanıqlı inkişafının təmin edilməsində mühüm əhəmiyyətə malikdir. ASCO-da bu proseslər İnsan resurslarının idarəedilməsi Siyasəti və Qaydaları ilə tənzimlənir. Bu Siyasət və Qaydalar Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikası Əmək Məcəlləsinə və bu sahədə beynəlxalq təcrübəyə uyğun tərtib edilmişdir. ASCO-nun İdarəetmə Sisteminin prosedurlarına uyğun şəkildə işə qəbul, əməkdaşların karyera inkişafı və sağlam iş mühitinin yaradılması məsələləri həyata keçirilir.

2021-2023-cü illər üzrə ASCO-nun ümumi işçi qüvvəsi, həmçinin yeni işə qəbul edilən və işdən azad edilən işçilərin sayı haqqında məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.

ASCO-da insan resurslarının idarəedilməsi prosesi Azərbaycan Respublikası Əmək Məcəlləsinə, aparıcı beynəlxalq təcrübəyə və ASCO-nun daxili sənədləri - İnsan resurslarının idarəedilməsi Siyasəti və Qaydalarına uyğun olaraq tənzimlənir.

İnsan resurslarının idarəedilməsi Siyasəti aşağıdakı prinsipləri əhatə edir:

- Mövcud kadrların Gəmiçiliyə bağlılığının artırılması;
- İnsan resursları imkanlarından daha səmərəli istifadə edilməsi;
- İnsan resurslarının idarə edilməsi prosesində şəffaflığın təmin edilməsi
- Aparıcı gənc əməkdaşların karyera inkişafının nəzarətdə saxlanılması;
- Xidməti fəaliyyətin obyektiv qiymətləndirilməsi;
- Bütün əməkdaşlar üçün bərabər imkanlar və sağlam iş mühitinin təmin edilməsi.

İnsan resurslarının idarəedilməsi Qaydaları ilə aşağıdakı proseslər tənzimlənir:

- Vakansiyaların şəffaflıq prinsipi əsasında idarə olunması,
- İşə qəbul,
- Başqa işə keçirilmə,
- Ehtiyat Kadr Bazasının (EKB) formalaşdırılması,
- Əməyin ödənilməsi dərəcəsinin dəyişdirilməsi,
- İşçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsi,

| Göstərici | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| İşçilərin cəmi sayı, nəfər | 8,042 | 7,923 | 7,798 |
| İşə götürülən işçilərin sayı, nəfər | 446 | 407 | 420 |
| İşdən azad edilən işçilərin sayı, nəfər | 492 | 471 | 553 |
| Kadr axını əmsalı, % | 6% | 6% | 7% |

| İşçilərin təsnifat cədvəli, nəfər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Daimi işçilərin sayı | 8,042 | 7,923 | 7,798 |
| Müvəqqəti işçilərin sayı | 0 | 0 | 0 |
| Tam ştat işçilərin sayı | 7,991 | 7,875 | 7,755 |
| Yarım ştat işçilərin sayı | 51 | 48 | 43 |

Qaydaların icrasına nəzarət kollegial qurum olan Personalın İdarəedilməsi Komitəsi tərəfindən həyata keçirilir. Həmçinin, ASCO-nun Müşahidə Şurasının yanında Təyinat və Mükafatlandırma Komitəsi fəaliyyət göstərir ki, bu Komitə tərəfindən ASCO-da effektiv kadr siyasətinin, əmək-haqqı və mükafatlandırma sisteminin, personala sosial dəstəyin, onların peşəkar təlim və inkişafının təmin edilməsi kimi məsələlərə baxılır.





ASCO-da işə qəbul və başqa işə keçirilmə proseduru zamanı namizədlərin nəzəri biliklərinin yoxlanılması məqsədi ilə elektron test proqramından istifadə olunur. Proqram çərçivəsində namizədlərin biliklərini test (variantlı) və açıq (variantsız) suallarla yoxlamaq imkanı vardır. Vakansiyanın kriteriyalarına uyğun gələn namizədlər e-mail vasitəsi ilə test imtahanına dəvət olunur. İmtahan bitdikdən sonra nəticə barədə sənəd dərhal namizədə təqdim olunur. İmtahanı uğurla keçən namizədlər növbəti mərhələdə ixtisas üzrə müsahibəyə dəvət edilir və yüksək göstəricilərə malik olan namizədlər işə qəbul olunur, həmçinin digər namizədlər isə Ehtiyat Kadr Bazasına daxil edilir.

Gəmiçilikdə işə qəbul edilən işçilər üçün yeni iş mühitinə və daxili prosedurlara uyğunlaşmaları məqsədilə müvafiq təlimatlandırma prosedurları həyata keçirilir. Belə ki, yeni işçilərə ASCO-nun strukturu və mühüm daxili sənədləri, KSƏTƏMM qaydaları, Daxili nizam-intizam Qaydaları, geyim qaydaları və digər bir sıra vacib məsələlər barəsində məlumatlar çatdırılır.

ASCO-nun həm nəqliyyat, həm də ixtisaslaşmış ofşor gəmilərində çalışan dənizçilər üçün əməkhaqqının hesablanması “Üzən heyət üzvlərinin xüsusi iş vaxtının cəmlənmiş uçotu Qaydaları”na uyğun həyata keçirilir.

## TƏLİM VƏ TƏHSİL

ASCO-da əməkdaşların karyera inkişafı, onların peşəkarlıq və fərdi keyfiyyətlərinin davamlı təkmilləşdirilməsinə xüsusi diqqət ayrılır. Bu istiqamətdə Gəmiçilik tərəfindən mütəmadi olaraq müxtəlif tədbirlər görülür. Belə ki, ASCO-nun əməkdaşlarının müasir iş dünyasının tələblərinə uyğun inkişaf etdirilməsi məqsədilə Cəmiyyət üzrə bütün təlim ehtiyacları analiz edilir və tələbata uyğun təlimlər təşkil edilir. Bundan əlavə, rəhbər işçilər mütəmadi şəkildə mütəxəssislərlə görüşlər keçirirərək istehsalat təcrübələrini bölüşürlər. Bu həm Xidməti Fəaliyyətin Qiymətləndirilməsi, həm də davamçıların inkişaf etdirilməsi zamanı ASCO rəhbərlərinə qoyulan hədəflər sırasında öz əksini tapır.

Təlimlərin keçirilməsi məqsədilə ASCO yerli və beynəlxalq şirkətlər və təşkilatlarla əməkdaşlıq edir. Aşağıdakı cədvəldə, işçi kateqoriyaları üzrə 2021-2023-cü illər ərzində keçirilmiş təlimlərin həcmi əks olunmuşdur.

**İşçi kateqoriyaları üzrə keçirilən təlimlərin cəmi müddəti, gün**

| İşçi kateqoriyaları | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Sahil heyət:** | **1,088** | **617** | **2,104** |
| Rəhbər işçilər | 92 | 102 | 866 |
| Mütəxəssislər | 774 | 404 | 1,078 |
| Texniki icraçılar və fəhlələr | 222 | 111 | 160 |
| **Üzən heyət:** | **25,184** | **42,730** | **23,844** |
| Komandir heyət | 17,354 | 34,584 | 16,941 |
| Siravi heyət | 7,830 | 8,146 | 6,903 |

Ümumilikdə, hesabat dövründə ASCO-da aşağıdakı mövzular üzrə təlimlər təşkil edilmişdir. Türkiyədən dəvət olunmuş peşəkar təlimçi tərəfindən üst rəhbərlik üçün “Strateji Çeviklik” təlimi keçirilmişdir. Eyni zamanda, orta rəhbərlik üçün “Liderlik və Emosional Zəka ilə idarəetmə” mövzusunda təlim, ASCO-nun gənc kadrları üçün liderlik və idarəetmə keyfiyyətlərinin formalaşması və şəxsi inkişafla əlaqədar təlimlər, personalın xarici dil biliklərinin artırılması məqsədi ilə, ödənişsiz ingilis dili kursları təşkil olunmuşdur. Həmçinin, rəhbər heyət və mütəxəssislər üçün “Bureau De Qualite” tərəfindən ISO 37001 üzrə Korrupsiyaya qarşı mübarizə idarəetmə sistemi və Daxili auditor təlimləri tədris olunmuşdur.

Qeyd edək ki, ASCO-nun Təlim Tədris Mərkəzində (TTM) Dənizçilərin Sertifikatlaşdırılması üçün təlimlərin keçirilməsi, onların praktik məşqləri və qiymətləndirilməsi xidmətləri göstərilir. Mərkəz müasir trenajor və simulyatorlarla, eləcə də, açıq dənizdə baş verə biləcək müxtəlif hadisələr üzrə məşqlərin keçirilməsi üçün üzgüçülük hovuzu ilə təchiz edilib. TTM-də təlimlər azərbaycan, rus və ingilis dillərində təşkil edilir ki, bu təlimlərə yerli dənizçilərlə yanaşı, xarici vətəndaşlar də cəlb olunur. Böyük Britaniyanın nüfuzlu “The Nautical İnstitute” təşkilatı TTM-in Dinamik Mövqe Saxlama Simulyatoruna sertifikat verib. Bu sertifikat “DP İnduction” və “DP Simulator” təlimlərinin keçirilməsinə şərait yaradır ki, hazırda Təlim Tədris Mərkəzi dünyada sözügedən təlimlərin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır.

2021-2023-cü illər ərzində TTM-də keçirilmiş təlimlərin və dinləyicilərin sayı aşağıdakı diaqramlarda göstərilmişdir.









Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) təhsilin keyfiyyətinin yüksəldilməsi daim ASCO-nun diqqət mərkəzindədir. Bu istiqamətdə dünyanın tanınmış dənizçilik təhsili müəssisələri ilə əlaqələr qurulur, Akademiyanın maddi-texniki bazası davamlı olaraq təkmilləşdirilir, tələbələrin daha yaxşı təcrübi biliklərə yiyələnməsi üçün yerli və xarici şirkətlərlə əməkdaşlıq edilir, xüsusi fərqlənən tələbələr ilə mütəmadi görüşlər təşkil olunur, onları maraqlandıran suallar cavablandırılır.

Gəmiçilik ADDA tələbələrinin nəzəri bilik almalarına maddi və metodiki cəhətdən dəstək olur. Bundan əlavə, ASCO tərəfindən tələbələrin təhsil aldığı müddətdə ixtisaslarına uyğun olaraq praktiki bilik və bacarıqlara yiyələnmələri üçün şərait yaradılır. Belə ki, tələbələrin ASCO-nun struktur idarələrində və gəmilərində, o cümlədən BGTZ və ZGTTZ müxtəlif bölmə və sexlərində, DND və XDND-nin gəmilərində istehsalat təcrübələrində iştirak etmələri üçün imkan yaradılır. 2023-cü ildə ADDA-nın sonuncu kurs tələbələrindən 106 nəfəri DND-nin, 72 nəfəri isə XDND-nin gəmilərində diplomqabağı təcrübədə olmuş, o cümlədən, 30 nəfər tələbənin də ixtisaslarına uyğun olaraq Bakı Gəmiqayırma Zavodunda diplomqabağı istehsalat təcrübəsi keçməsi üçün ASCO tərəfindən şərait yaradılmışdır. 2023-cü ildə "Heydər Əliyev ili" ilə əlaqədar, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, ali təhsilin bakalavriat səviyyəsində əyani formada təhsil alan və təhsildə yüksək nailiyyətləri olan tələbələr üçün "Heydər Əliyev adına təqaüd" təsis edilmişdir. Sözügedən təqaüd 100 nəfər tələbəyə verilir ki, bu tələbələrdən biri də məhz ADDA-nın tələbəsi olmuşdur.

Hesabat dövrü ərzində ADDA-nın mətbəəsində yeni dərsliklər və dərs vəsaiti işıq üzü görmüşdür. Belə ki, "Gəmilərin avtomatlaşdırılmış layihələndirmə sistemləri" adlı dərs vəsaitində gəmi gövdəsinin CADMATIC proqram təminatından istifadə edərək layihələndirilməsi haqqında ətraflı məlumatlar öz əksini tapmışdır. "Dəniz Texnikası və texnologiyası



mühəndisliyi" ixtisası üzrə magistratura pilləsində təhsil alan tələblər üçün dərslik çap edilmişdir. Bu dərsliyə daxil edilən materiallar Beynəlxalq Dəniz Təşkilatının 3.17 Model kursunun tələblərinə, STCW Beynəlxalq Konvensiyasına edilmiş əlavələrə və Təsnifat Cəmiyyəti Qaydalarına uyğun hazırlanmışdır. İşıq üzü görən "Dəniz yolları cografiyası" adlı dərslikdə isə dünya okeanı, onun ayrı-ayrı hissələri, dəniz və daxili su yolları, okeanların iqtisadi zonaları və infrastrukturları, materiklər və regionlar üzrə dəniz dövlətləri, onların limanları haqqında ətraflı məlumatlar verilib. Dərslik tələbələrdən savayı kapitanlar, dənizçilik sahəsində çalışanlar və bu sahədə elmi tədqiqatla məşğul olanlar üçün nəzərdə tutulmuşdur.

## ƏMƏKDAŞLAR VƏ ONLARLA MÜNASİBƏT

İşçilər arasında effektiv kommunikasiyanın təmin olunmasına ASCO tərəfindən xüsusi diqqət yetirilir. Bu istiqamətdə fəaliyyət həm 2022-ci ildə yaradılan "My ASCO" mobil tətbiqi, həm müxtəlif proqram təminatları, həm də davamlı keçirilən tədbirlər üzərində qurulmuşdur. Elektron Sənəd Dövriyyəsi vasitəsi ilə ASCO rəhbərliyi tərəfindən qəbul olunan rəsmi qərarların geniş işçi kütləsinə çatdırılması təmin edilir. Bundan əlavə, toplu sms və korporativ sosial şəbəkə vasitəsi ilə əməkdaşlar həm ASCO tərəfindən yayımlanan yeniliklər ilə tanış ola bilər, həm də öz paylaşımlarını edə bilərlər. İşçi və rəhbər heyəti üçün təşkil olunan müxtəlif tədbirlərdə və onlayn görüşlərdə davamlı olaraq insan resurslarının idarəedilməsi əməliyyatlarının müzakirəsi həyata keçirilir, dəyişikliklərlə bağlı təkliflər dinlənir və bu istiqamətdə işlər həyata keçirilir. Periodik olaraq müxtəlif mövzular üzrə elektron sorğular keçirilərək kütləvi rəy alınır.



Gəmilərdə çalışan personal üçün lazımi şəraitin və infrastrukturun, o cümlədən kommunikasiya imkanlarının təmin edilməsi istiqamətində də müxtəlif işlər görülmüşdür. Belə ki, ASCO əməkdaşları, xüsusən dənizçilər hər hansı sənədin, o cümlədən müvafiq dənizçilik sertifikatının yenilənməsi zərurəti barədə "My ASCO" mobil tətbiqi və e-poçt vasitəsi ilə bildiriş alırlar. O cümlədən, ASCO-da çalışan dənizçilər və sahil işçiləri təyin edilmiş müddətlərdə tibbi müayinədən keçməlidirlər ki, bu müddətin bitməsindən 10 gün öncə həmin əməkdaşlara və struktur bölmə üzrə insan resursları mütəxəssislərinə müvafiq məlumat e-poçt və sms vasitəsilə avtomatik göndərilir.

Personalın həvəsləndirilməsi və motivasiyasının artırılması məqsədi ilə, ASCO-da mükafatlandırma sistemi tətbiq edilmişdir. Bu sistem barədə ətraflı məlumat "Korporativ İdarəetmə Sistemi" bölməsində təqdim edilmişdir. Bundan əlavə, işçilərə əməkdə fərqlənməyə, eləcə də orden, medal, fəxri ad və döş nişanlarına görə əlavə aylıq ödənişin verilməsi, həmçinin üzən heyət arasında "ilin ən yaxşıları" müsabiqəsində qaliblərin təyin edilməsi və digər bu kimi motivasiya mexanizmlərindən istifadə olunur.

ASCO-da aparıcı beynəlxalq təcrübəyə uyğun olaraq, illik xidməti fəaliyyətin qiymətləndirilməsi (XFQ) həyata keçirilir. XFQ prosesi daxili qayda və təhlükəsiz keyfiyyətli idarəetmə sistemləri əsasında təşkil olunmuşdur. Bu proses zamanı işçinin həm fərdi keyfiyyətləri, həm də peşəkarlıq bacarıqları qiymətləndirilir. Proses hər bir işçinin ən yaxın üst rəhbəri tərəfindən aşağıdakı kimi aparılır:

- Sahil heyəti: Rəhbər işçi ilin əvvəlində işçinin tutduğu vəzifəyə uyğun Saha üzrə bilik və bacarıq standartlarını və hədəfləri daxil edir. İşçi rəhbəri tərəfindən ona qoyulmuş hədəflərlə ilin əvvəlində elektron sistemdəki şəxsi kabi-



netində tanış olur. Rüblük bu hədəflərin icrası üçün çalışır. İl sonu rəhbəri tərəfindən 5 ballıq sistemlə qiymətləndirilir. Prosesə nəzarət təşkilatın İnsan Resursları Xidmətləri tərəfindən aparılır.

- Üzən heyət: Üzən heyət əməkdaşları da həmçinin fərdi keyfiyyətlər və peşəkarlıq bacarıqlara uyğun qiymətləndirilir. Qiymətləndirilmə Komandir heyəti və Sıravi heyət üçün ayrı formalar üzrə həyata keçirilir. Doldurularaq təsdiq olunmuş forma dənizçinin şəxsi işinə daxil edilir. Nəzarət eyni qaydada təşkilatın İnsan Resursları Xidməti tərəfindən aparılır.

Gəmiçilikdə işçilərin şikayəti üçün şəffaf mexanizm yaradılmışdır. Müasir müraciət metodu kimi My ASCO mobil tətbiqində işçilər üçün şikayətin bildirilməsi imkanı yaradılmışdır. Bu müraciət aidiyyatı sahə üzrə müvafiq struktur bölmə əməkdaşına yönəldilir və operativ cavablandırılır. İşçilər həmçinin şifahi, yazılı və elektron formada müraciət edə bilərlər. Şikayətlərə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır. Şifahi müraciətlər isə yerində qeydiyyata alınır və aidiyyatı üzrə müvafiq rəhbərlə görüş üçün vaxt təyin edilir. ASCO-da bütün şikayətlərin araşdırılıb, həll yolunun tapılması böyük əhəmiyyət kəsb edir.

## MÜXTƏLİFLİK VƏ BƏRABƏR İMKANLAR, GENDER BƏRABƏRLİYİ, İNSAN HAQLARI

Sağlam və bərabər hüquqlu kollektivin qurulması, şəffaf və çeşidli fikirlər əsasında qərarların qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar, Gəmiçilik tərəfindən personal arasında hər hansı bir ayrıseçkilik halının baş verməməsi, əməkdaşlar arasında bərabər imkanların təmin edilməsi ASCO-nun məqsədlərindən biridir.






ASCO-da irqindən, dinindən, fiziki görünüşündən və yaxud hər hansı xüsusi qrupa mənsubluğundan asılı olmayaraq, hər bir əməkdaşa karyera yüksəlişinə nail olması üçün şərait yaradılır. Gəmiçiliyin personalının xidməti fəaliyyətinin qiymətləndirilməsi personalın bacarığı, peşəkarlıq səviyyəsi, eləcə də göstərdiyi əmək nəticələri nəzərə alınmaqla və xüsusilə də heç bir ayrı-seçkiliyə yol verilməməklə həyata keçirilir. Bu istiqamətdə proseslər ASCO-nun Biznes Etikası Məcəlləsinə, Azərbaycan Respublikasının gender bərabərliyinin təmin edilməsi haqqında Qanununa, BMT və Beynəlxalq Əmək Təşkilatının “Eyni Əməyə görə Eyni Ödəniş” prinsipinə əsaslanan Konvensiya əsasında tənzimlənir.

Hesabat dövrü ərzində ASCO-da cinsinə, irqinə, dininə, siyasi baxışına, yaşına, eləcə də əlilliyinə və yaxud hər hansı xüsusi qrupa mənsubluğuna görə ayrıseçkilik halı ilə bağlı heç bir hadisə baş verməmiş və bununla bağlı şikayət daxil olmamışdır.

Hesabat dövrü ərzində 2022-ci ildə əlillik dərəcəsinə malik 131 nəfər, 2023-cü ildə isə 132 nəfər əməkdaş ASCO-da çalışmışdır.

ASCO-da da həssas qrupların, xüsusilə Vətən müharibəsi iştirakçıları və Şəhid ailəsinin üzvləri daim xüsusi diqqət altında saxlanılır və işə qəbul prosesində Vətən müharibəsi iştirakçılarına, Şəhid ailəsinin üzvlərinə üstünlük verilir. Belə ki:

- Vətən müharibəsində iştirak etmiş, həmçinin rayonların işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirərək təltif olunmuş,

gəmiçilik sahəsi üzrə uyğun təhsili olan vətəndaşların işəqəbul ilə bağlı müraciətlərinə fərdi qaydada baxılır və onlarla tanışlıq xarakterli müsahibə keçirilərək müvafiq tələblərə uyğun olduqları təqdirdə işə qəbulu təmin edilir;

- Eyni zamanda, məcburi köçkünlərə, əlilliyi olan insanlara, həmçinin vətən müharibəsi iştirakçılarına və şəhid ailələrinə işə qəbul prosesi zamanı üstünlük verilir. Məcburi köçkünlər Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq idarə, müəssisə və təşkilatlarda ştatların və işçilərin sayının ixtisarı zamanı işdə saxlanılmaq üçün üstünlük hüququna da malikdirlər;
- Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən yaradılmış və Dövlət Məşulluq Agentliyinin başlatdığı ASCO-nun da qoşulduğu "məşgulluq marafonu" çərçivəsində Vətən müharibəsi iştirakçıları həmçinin şəhid ailəsi üzvlərinin ASCO tərəfindən elan edilən vakansiyalara uyğun olaraq işlə təmin edilmələri həyata keçirilir.

ASCO-da gender bərabərliyinin təmin edilməsi də prioritet məsələlərdəndir və bu istiqamətdə davamlı müvafiq tədbirlər görülür. Bu işlərin, eləcə də şəhid ailələri, əlilliyi olan şəxslər və digər xüsusi həssas kateqoriya üzrə işçilərlə münasibətdə işlərin təşkil edilməsi və koordinasiyasının təmin edilməsi məqsədi ilə, 2023-cü ildə ASCO-da Gender məsələləri və xüsusi həssas qruplarla iş üzrə müvafiq vəzifə təsis edilmişdir.

Ümumiyyətlə gəmiçilik sahəsində kişilərin üstünlük təşkil etməsinin səbəbi, bu işin yüksək fiziki hazırlıq tələb etməsi və çox vaxtlarda iş şəraitinə bağlı olaraq uzun müddət ailəsindən uzaq dənizdə qalmaqlarıdır. Təbii olaraq, ASCO-da da oxşar hal müşahidə olunur. Buna baxmayaraq bütün vəzifələrə həm kişi, həm də qadın əməkdaşların cəlb olunması, gender bərabərliyinin təmin olunması, eləcə də rəhbər kateqoriyalı işçilər arasında qadın nümayəndələrin sayının artırılması istiqamətində ASCO tərəfindən lazımi şərait yaradılmışdır.

**2021-2023-cü illərdə işçilərin kateqoriyalar və cinslər üzrə sayı,**

| Kateqoriyalar | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|
| | qadın | kişi | qadın | kişi | qadın | kişi |
| **Sahil heyət:** | **660** | **3,026** | **648** | **2,952** | **611** | **2,921** |
| Rəhbərlər | 68 | 363 | 69 | 367 | 62 | 364 |
| Mütəxəssislər | 311 | 520 | 304 | 515 | 290 | 499 |
| Texniki icraçılar | 25 | 15 | 27 | 13 | 28 | 12 |
| Fəhlələr | 256 | 2,128 | 248 | 2,057 | 231 | 2,046 |
| **Üzən heyət:** | **22** | **4,334** | **18** | **4,305** | **33** | **4,233** |
| Komandir heyət | 1 | 2,416 | 1 | 2,407 | 1 | 2,408 |
| Sıravi heyət | 21 | 1,918 | 17 | 1,898 | 32 | 1,825 |
| **Cəmi** | **682** | **7,360** | **666** | **7,257** | **644** | **7,154** |

## 2021-2023-cü illər ərzində işçilərin ümumi sayının cinslər üzrə bölgüsü, %




## Yaş üzrə bölgü, nəfər

| | 2021 | | | 2022 | | | 2023 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşa qədər | 30-50 yaş | 50 yaşdan yuxarı | 30 yaşa qədər | 30-50 yaş | 50 yaşdan yuxarı | 30 yaşa qədər | 30-50 yaş | 50 yaşdan yuxarı |
| Cəmi işçilərin sayı | 1,187 | 3,824 | 3,031 | 1,125 | 3,704 | 3,094 | 1,019 | 3,726 | 3,053 |
| Cəmi işə götürülən işçilərin sayı | 250 | 126 | 70 | 230 | 117 | 60 | 140 | 182 | 98 |
| Cəmi işdən azad edilən işçilərin sayı | 34 | 185 | 273 | 89 | 192 | 190 | 80 | 164 | 309 |

## 2021-2023-cü illərdə işə qəbul edilmiş işçilərin cinslər üzrə sayı, nəfər

| | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|
| | qadın | kişi | qadın | kişi | qadın | kişi |
| Cəmi işə götürülən işçilərin sayı | 60 | 386 | 48 | 359 | 365 | 55 |
| Cəmi işdən azad edilən işçilərin sayı | 108 | 384 | 65 | 406 | 472 | 81 |

## Rəhbər qadınların sayı, nəfər

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Rəhbər vəzifədə çalışan qadınların sayı | 69 | 70 | 63 |

## İdarə Heyətinin yaş üzrə bölgüsü, nəfər

| | 2021 | | | 2022 | | | 2023 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 30 yaşa qədər | 30-50 yaş | 50 yaşdan yuxarı | 30 yaşa qədər | 30-50 yaş | 50 yaşdan yuxarı | 30 yaşa qədər | 30-50 yaş | 50 yaşdan yuxarı |
| İdarə Heyəti | 0 | 2 | 4 | 0 | 3 | 4 | 0 | 3 | 4 |

## İdarə Heyətinin üzvlərinin cinslər üzrə sayı, nəfər

| | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|
| | qadın | kişi | qadın | kişi | qadın | kişi |
| İdarə Heyəti | 0 | 6 | 0 | 7 | 0 | 7 |

ASCO-nun ali idarəetmə orqanının bütün üzvləri Azərbaycan Respublikasının vətəndaşlarıdır və yerli əhaliyə mənsubdur.

## GƏLƏCƏK PLANLAR

Gəmiçilikdə İnsan Resursları sahəsində davamlı inkişafın təmin edilməsi ilə bağlı bir sıra planlar vardır ki, növbəti hesabat dövründə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Belə ki, hal-hazırda davamçıların hazırlanması sisteminin qurulması ilə bağlı işlər həyata keçirilməkdədir. Vakansiyaların idarəedilməsi ilə əlaqədar istər daxili, istərsə də xarici namizədlərin müraciətlərinin elektron bazasının formalaşdırılması, müsabiqənin mərhələlərində göstərdikləri nəticənin vahid bazaya qeyd edilməsi, ASCO-nun rəsmi saytında namizədlərin qeydiyyatını asanlaşdırmaq üçün "şəxsi kabinet"-in yaradılması gözlənilən layihələr sırasındadır. O cümlədən, ASCO-da gələcəkdə görülməsi planlaşdırılan layihələr aşağıdakılardır:

- ASCO - da yeni təşkilati struktur, biznes proseslərin yenilənməsi və restrukturizasiya ilə bağlı tədbirlər planı işlənib hazırlanır;
- İşçilərin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi haqqında Tədbirlər planı (staj, təhsil, XFQ və sair üstünlük göstəricilərinə görə əlavə ödənişlərin təyin edilməsi və avtomatlaşdırılması nəzərdə tutulub);
- Respublikanın aparıcı universitetlərində karyera günlərinin təşkili və dənizçilik sahəsinin təbliği;
- ASCO-nun gənc işçiləri arasında məmnuniyyət sorğusunun keçirilməsi;
- Personalın "Karyera inkişaf" xəritəsinin effektiv izlənilməsi və onunla bağlı tədbirlərin görülməsi üçün elektron sistemin tətbiq edilməsi planlaşdırılır. Bu sistem vasitəsi ilə perspektivli kadrların karyera inkişafına nəzarət etmək imkan yaranacaqdır;
- Təlimlərin elektron platforma (E-təlim) vasitəsi ilə təşkil olunması;
- ADDA-da beynəlxalq tələblərə cavab verən təhsil sisteminin inkişaf etdirilməsi, gəmiçilik sahəsində dünyanın qabaqcıl təhsil ocaqları ilə əməkdaşlıq edilməsi, ingilis dilində tədrisin genişləndirilməsi, həmçinin tələbələrin Dayanıqlı İnkişaf Məqsədləri barədə maarifləndirilməsi və s. nəzərdə tutulur.



# SOSİAL FƏALİYYƏT



Gəmiçiliyin korporativ sosial məsuliyyəti çərçivəsində fəaliyyəti aşağıdakı istiqamətləri əhatə edir:



**Maliyyə dəstəyi və xeyriyyəçilik**

**İşçilərin rifahı və sağlamlığına dəstək**

**Ölkədə idmanın inkişafına dəstək**

**Gənclərə dəstək**

**Ölkədə dənizçi peşəsinin təbliği**

## MALİYYƏ DƏSTƏYİ VƏ XEYRİYYƏÇİLİK

ASCO korporativ sosial məsuliyyəti çərçivəsində hər il mütəmadi olaraq kimsəsiz uşaqlara, maddi durumu ağır ailələrə, müharibə veteranlarına və əmək qabiliyyətini itirmiş insanlara maddi yardımlar edir. Bu istiqamətdə işlər Gəmiçiliyin “Maddi yardımın verilməsi haqqında Əsasnamə”sinə uyğun olaraq həyata keçirilir və kollegial qərarların qəbul edilməsinin təmin edilməsi məqsədi ilə, Maddi yardım üzrə Komissiya fəaliyyət göstərir. Sözügedən Komissiyanın hər ay keçirilən iclaslarında daxil olan maddi yardımın verilməsi üzrə müraciətlərə baxılır. Bu cür müraciətlər həm ASCO-nun əməkdaşlarından, həm də sıravi vətəndaşlardan daxil olur. Belə müraciətlər əsasında 2021-2023-cü illər ərzində ASCO tərəfindən göstərilən maddi yardım üzrə məlumatlar aşağıdakı cədvəllərdə təqdim edilmişdir.

**Maddi yardım alanların sayı, nəfər:**

| Struktur idarə | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| ASCO aparat | 25 | 38 | 16 |
| DND | 30 | 42 | 42 |
| XDND | 33 | 93 | 86 |
| BGTZ | 23 | 33 | 23 |
| ZGTTZ | 30 | 47 | 32 |
| ADDA | 5 | 20 | 10 |
| İXİ | 19 | 22 | 21 |
| ZQYL | 1 | 1 | - |
| “ASCO Mühafizə” MMC | 19 | 16 | 20 |
| “ASCO Nəqliyyat” MMC | 36 | 29 | 28 |
| "Dənizçi Təmir-Tikinti" MMC | 5 | 14 | 20 |
| "Dənizçi" Mənzil-Tikinti Kooperativi | 1 | 1 | 1 |
| "ASCO Logistics" MMC | - | 1 | - |
| Yaxt klub | - | 8 | 4 |
| ASCO Mühəndislik | 2 | 4 | 2 |
| Sabiq işçilər | 10 | 10 | 10 |
| Kənar şəxslər | - | 2 | - |
| **Yekun:** | **239** | **381** | **315** |

**Maddi yardımın məbləği, AZN:**

| Struktur idarə | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| ASCO aparat | 34,100 | 47,550 | 20,480 |
| DND | 30,900 | 42,950 | 60,490 |
| XDND | 45,600 | 107,100 | 116,020 |
| BGTZ | 21,050 | 26,350 | 18,250 |
| ZGTTZ | 30,250 | 42,150 | 32,410 |
| ADDA | 4,500 | 27,700 | 11,330 |
| İXİ | 21,750 | 23,900 | 28,640 |
| ZQYL | 500 | 500 | - |
| “ASCO Mühafizə” MMC | 16,000 | 12,800 | 17,840 |
| “ASCO Nəqliyyat” MMC | 35,550 | 30,650 | 25,450 |
| "Dənizçi Təmir-Tikinti" MMC | 5,350 | 15,600 | 16,450 |
| "Dənizçi" Mənzil-Tikinti Kooperativi | 1,000 | 800 | 1,000 |
| ASCO Mühəndislik | 5,500 | 5,300 | 3,500 |
| "ASCO Logistics" MMC | - | 2,500 | - |
| Yaxt klub | - | 8,100 | 4,760 |
| Sabiq işçilər | 6,300 | 7,700 | 14,000 |
| Kənar şəxslər | - | 2,600 | - |
| **Yekun:** | **258,350** | **404,250** | **370,620** |

Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda gedən döyüşlərin iştirakçılarına və bu döyüşlərdə şəhid olanların ailələrinə ASCO tərəfindən davamlı diqqət və qayğı göstərilir. Belə ki, 1-ci və 2-ci Qarabağ müharibəsi və 20 Yanvar faciəsi zamanı şəhid olmuş şəxslərin vərəsələrinə, müharibə veteranlarına və əlilliyi olan şəxslərə, ümumilikdə 872 nəfərə ASCO tərəfindən aylıq əlavə ödənişlər edilir. Bayram günlərində şəhid ailələrinə ərzaq yardımları edilir. Bundan əlavə, 2-ci Qarabağ müharibəsi iştirakçısı olmuş ADDA-nın 8 tələbəsinə təhsil haqqının ödənişində ASCO tərəfindən güzəşt edilmiş və onlar Akademiyanın yataqxanasından istifadə üzrə ödənişlərdən azad olunmuşdur.





ASCO həmçinin, istehsalat zamanı əmək qabiliyyətini itirən şəxslərə yaxud həyatını itirən işçilərinin yardıma ehtiyaclı uşaqlarını, o cümlədən, yardıma ehtiyacı olan digər uşaqların bir qismini öz himayəsinə götürmüşdür. 2021-2023-cü illər ərzində Gəmiçilik tərəfindən himayə olunan uşaqların sayı haqqında məlumat aşağıdakı cədvəldə göstərilmişdir. Eyni zamanda, 2022-ci ildə olan artımın səbəbi vəfat edən işçilərin azyaşlı uşaq sayının çox olması, 2023-cü ildə olan azalmanın səbəbi isə himayədə olan uşaqların yaş həddini başa vurmasıdır.

**Maddi yardım alanların sayı, nəfər:**

| Struktur idarə | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| DND | 28 | 33 | 31 |
| XDND | 75 | 78 | 72 |
| ZGTTZ | 7 | 9 | 6 |
| BGTZ | 11 | 14 | 12 |
| İXİ | 6 | 4 | 4 |
| ADDA | 1 | 1 | 1 |
| “ASCO Mühafizə” MMC | 1 | 1 | 1 |
| “ASCO Nəqliyyat” MMC | 2 | 1 | 2 |
| **Cəmi:** | **131** | **141** | **129** |

Hesabat dövrü ərzində, ASCO-ya məxsus gəmilərdə çalışmış və hazırda təqaüddə olan veteran dənizçilərə böyük diqqət göstərilmiş, əlamətdar günlərdə onlar Gəmiçilik tərəfindən təşkil edilən tədbirlərə dəvət olunmuş, həmçinin 2022-ci ildə 17 nəfər, 2023-cü ildə isə 8 nəfər olmaqla cəmi 25 nəfər sabiq işçi doğum (yubiley) günlərində ASCO və Həmkarlar İttifaqı əməkdaşları tərəfindən ziyarət olunaraq təbrik edilmişdir.

COVID-19 pandemiyası dövründə, o cümlədən 2022-ci ildə ASCO-nun sosial durumu və maddi vəziyyəti çətin olan veteran işçiləri ilə mütəmadi əlaqə saxlanılmış və ehtiyacı olan şəxslərə ərzaq payları göndərilmişdir. Ümumilikdə, 2022-ci ildə ASCO tərəfindən 107 nəfərə, o cümlədən Aparat üzrə – 1 nəfər, DND üzrə – 35 nəfər, XDND üzrə – 25 nəfər, “Zığ” GTTZ üzrə – 20 nəfər, “Bibiheybət” GTZ üzrə – 26 nəfər yaşlı işçilərə və təqaüdçü şəxslərə ərzaq yardımları edilmişdir.

## İŞÇİLƏRİN RİFAHI VƏ SAĞLAMLIĞINA DƏSTƏK

ASCO-nun varisi olduğu təşkilatlar üzrə mənzil növbəsində qeydiyyatda olan əməkdaşlar əsasında 1100 nəfərdən ibarət Gəmiçilik üzrə vahid mənzil növbəsi siyahısı tərtib edilmişdir. Bu şəxslərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədi ilə, ASCO tərəfindən 5 binadan ibarət yaşayış kompleksi inşa edilmiş və 10 may 2023-cü il tarixində, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi günündə təhvil verilmişdir. Bakı şəhərinin Xətai rayonunda yerləşən kompleksdə 487 mənzil yeni sahiblərinə təqdim edilmişdir. Şəffaflığın təmin edilməsi məqsədilə mənzillərin sahibləri püşkatma yolu ilə təyin edilmişdir. Mənzillər yüksək tələblərə uyğun təmir olunmuş, mətbəx mebeli ilə təchiz edilmiş və daimi su, elektrik və təbii qazla təmin edilmişdir. Yaşayış kompleksində avtomobillər üçün yeraltı dayanacaq da mövcuddur. Burada uşaq bağçası və digər sosial infrastruktur imkanlarının yaradılmasına da başlanılmışdır.















Mənzillərin verilməsi və güzəştlərin təyin edilməsi prosesi ASCO-da yaradılmış Mənzil Məsələləri Komissiyası tərəfindən, "Dənizçi" MTK-ya üzv olma haqqında Qaydalara uyğun aparılmışdır. Bu Qaydalara əsasən tətbiq edilən güzəştin həcmi şəxsin növbəyə qeydiyyata alındığı tarixə əsasən təyin edilir.

ASCO əməkdaşlarına sağlam həyat tərzinin aşılanması, onların bədən tərbiyəsi və idmana olan marağının artırılması məqsədilə illik iş planı təsdiq edilir və təsdiqlənmiş plana uyğun şəkildə mütəmadi olaraq idman tədbirləri və müxtəlif yarışlar təşkil edilir. Bura futbol, voleybol, kəndirdartma, stolüstü tennis, şahmat, dama və digər idman növləri üzrə yarışları misal göstərmək olar. Eyni zamanda, 2022-ci ildə "Dənizçi" istirahət bazasının ərazisində futbol meydançası tikilib istifadəyə verilmişdir. Həmçinin, 2023-cü ildə "Zığ" GTTZ-nin ərazisində yerləşən idman meydançasının

paltardəyişmə və xidməti otaqlarının yenidən qurulması işləri həyata keçirilmişdir.

Gəmiçiliyin əməkdaşlarının sağlamlığının təmin edilməsi məqsədi ilə, ASCO-da könüllü tibbi sığorta tətbiq olunur. Bu sığorta əsasında ölkənin bir sıra klinika və xəstəxanalarında ASCO-nun əməkdaşlarına tam ödənişsiz, onların ailə üzvlərinə isə 50%-dək güzəştlərlə müayinə və müalicə almaq imkanı təqdim olunur.

Həmçinin, Gəmiçiliyin əməkdaşlarının iş yerlərinə gətirilməsi və iş yerlərindən yaşadıqları ünvanlara yaxın ərazilərə çatdırılması məqsədilə şəhərin müxtəlif istiqamətləri üzrə hərəkət qrafiki olan avtobus xidmətləri fəaliyyət göstərir.

Bundan əlavə, ASCO-nun Aparatında və struktur bölmələrində çalışan əməkdaşlar iş günlərində isti yeməklə təmin edilir. Əməkdaşların səmərəli istirahətinin təşkil edilməsi məqsədi ilə, ASCO-nun İstehsalat Xidmətləri İdarəsinin balansında olan, Xaçmaz rayonunda yerləşən “Dənizçi” istirahət bazasına göndərişlər təqdim edilir. Sözügedən göndərişlər əsasında 2022-ci ildə 2,281 nəfər, 2023-cü ildə isə 2,497 nəfər əməkdaşa xidmət göstərilmişdir.

ASCO-nun gəmilərində və sahil müəssisələrində sanitar-gigiyenik vəziyyətin normalara uyğun saxlanılması məqsədilə, müvafiq ixtisaslaşdırılmış şirkətlərlə bağlanmış müqavilələrə əsasən mütəmadi dezinfeksiya, dezinseksiya və deratizasiya işləri aparılır.

ASCO tərəfindən hər il könüllü qanvermə aksiyası təşkil olunur. Humanitar aksiyada toplanan qan nümunələri laboratoriyada müayinə olunduqdan sonra Respublika Qan Bankına təhvil verilir. Qeyd etmək lazımdır ki, qanvermə aksiyası Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi “Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı” Dövlət Proqramına, həmçinin Heydər Əliyev Fondunun “Talassemiyasız həyat naminə” proqramı çərçivəsində təşkil olunur.



Hesabat dövründə bu aksiyalarda 2022-ci ildə 77 nəfər, 2023-cü ildə isə 143 nəfər iştirak etmişdir. 2023-cü ildə görkəmli oftalmoloq, Akademik Zərifə Əliyevanın 100 illiyi ilə əlaqədar ASCO-da göz müayinəsi aksiyası keçirilmişdir. "Dünyaya sağlam baxaq" devizi altında təşkil olunan tibbi aksiya ASCO-nun bütün stukturlarını əhatə edib. Tədbir çərçivəsində gözlərini müayinə etdirən əməkdaşlara, onların nəticələrinə uyğun olaraq həkimlər tövsiyələr də veriblər.

## ÖLKƏDƏ İDMANIN İNKİŞAFINA DƏSTƏK

Respublikada idman sahəsinin inkişaf etdirilməsinə dəstəyin verilməsi korporativ sosial məsuliyyəti çərçivəsində ASCO-nun həyata keçirdiyi istiqamətlərdən biridir.

Ölkədə futbolun inkişaf etdirilməsi məqsədilə ASCO "Səbail" Peşəkar Futbol Klubuna sponsorluq edir. Sponsorluq müqaviləsi çərçivəsində, komandanın ev oyunlarının təşkil olunduğu stadiona "ASCO Arena" adı verilmiş, futbolçular üzərində ASCO loqosu olan müvafiq forma və idman vasitələri ilə təmin edilmişdir. Həmçinin, 2023-cü ildə ASCO-nun İdarə Heyətinin Sədri Rauf Vəliyev "Səbail" Peşəkar Futbol Klubunun Müşahidə Şurasının sədri seçilmişdir. Eyni zamanda, ASCO Azərbaycan Respublikası Yelkənli İdman Federasiyası İctimai Birliyinə də sponsorluq etməklə ölkədə bu idmanın inkişafına töhfə verir. Sponsorluq çərçivəsində ASCO beynəlxalq, habelə yerli miqyaslı tədbirlərin maliyyələşdirilməsində iştirak edir.

Eyni zamanda, ASCO-nun tərkibində "Xəzər" Yelkənli Qayıqlar İdman Klubu fəaliyyət göstərir ki, bu klub Azərbaycanda yelkən idmanının inkişaf etdirilməsinə, respublikanın milli yığma komandaları üçün idmançıların hazırlanmasına və ölkəmizin beynəlxalq yarışlarda təmsil olunmasına xidmət edir.



ASCO həm də Azərbaycan Respublikası Atçılıq Federasiyasına ianələr etməklə, Federasiyanın müxtəlif tədbirləri təşkil etməsinə dəstək olur.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Minifutbol Federasiyasının dəstəyi ilə təşkil edilmiş, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş dövlət qurumları arasında futbol turnirində ASCO-nun işçilərindən ibarət komandası da iştirak etmişdir.

## GƏNCLƏRƏ DƏSTƏK

ASCO gənclərə dəstək çərçivəsində, onların fərdi və peşəkarlıq keyfiyyətlərinin yaxşılaşdırılması, gənclərin davamlı olaraq motivasiyanın yüksək saxlanması və Gəmiçiliyin fəaliyyəti ilə dərindən tanış olmaları məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bu istiqamətdə, "Suraxanı" Gəmi-Muzeyində mütəmadi olaraq, şəhid övladları, kimsəsiz uşaqlar və digər həssas kateqoriyadan olan gənclər üçün açıq qapı günləri keçirilir.

ASCO tərəfindən Azərbaycan Dövlət Dəniz Akademiyasının öz bilik və bacarıqları ilə fərqlənən tələbələrin işlə təmin olunmasına xüsusi diqqət yetirilir. Belə ki, ASCO-nun rəhbərliyi ilə bu tələbələr və əmək fəaliyyətində fərqlənən gənc işçilərlə mütəmadi olaraq səmimi görüşlər təşkil olunur, onların karyera inkişafı, ixtisasartırma, təcrübə mübadiləsi və digər mövzularla bağlı müzakirə aparılır. Qeyd edək ki, hazırda ASCO-da yaşı 35-ə qədər olan min nəfərdən çox ADDA məzunu çalışır ki, onların təxminən 85%-i üzən heyətin üzvüdür. ASCO-da Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə 2 fevral 2023-cü ildə Gənclər Günündə "Gəncliyimiz gələcəyimizdir" adlı "Breyn Rinq" intellektual oyunu keçirilmişdir. İntellektual oyunun əsas məqsədi Ulu öndər Heydər Əliyev irsini təbliğ etmək, onları Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 165 illik zəngin tarixi haqqında daha geniş mə-



lumatlandırmaq, əməkdaşların intellektual səviyyəsinin, dünya görüşünün, zehni inkişafının yüksəldilməsinə şərait yaratmaq, onlara komanda şəklində işləmək bacarıqlarını aşılamaq və sağlam rəqabət hissini formalaşdırmaqdan ibarət olmuşdur. Yarışda hər birində 5 nəfər olmaqla 8 komanda öz biliyini sınamış və qaliblərə diplom və hədiyyələr təqdim olunmuşdur.

## ÖLKƏDƏ DƏNİZÇİ PEŞƏSİNİN TƏBLİĞİ

ASCO dənizçi peşəsinin təbliğ edilməsi, Azərbaycanın dənizçilik tarixinin öyrənilməsi və dənizçilik ənənələrinin qorunub saxlanması məqsədi ilə, müxtəlif tədbirlər həyata keçirir.

ASCO tərəfindən 2021-ci ildən etibarən Dənizkənarı Milli Park ərazisində "Suraxanı" gəmi-muzeyi fəaliyyət göstərir. Xəzərdə ilk gəmi-muzey, dünyada isə ilk tanker-muzey olan "Suraxanı" qədim dənizçilik ənənələrinə malik müasir Azərbaycanın keçmişi ilə gələcəyi arasında körpü rolunu oynayır. Gəmi-muzeyin ekspozisiyasında nümayiş olunan istər audio-video, istərsə çap materialları Azərbaycan, İngilis və Rus dillərində sərgilənir. Burada təşkil edilən ekskursiyalar da üç dildə aparılır. 2023-cü ildə beynəlxalq məşhur "TripAdvisor" turizm və səyahət platformasının istifadəçilərinin rəyinə əsasən ölkəmizin 220 turistik-cəlbedici məkanının siyahısı tərtib edilmişdir ki, bu siyahıda "Suraxanı" gəmi-muzeyi birinci yerə layiq görülmüşdür.

Eyni zamanda, Gənclər və İdman Nazirliyinin dəstəyi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO), Azərbaycan Yelkən Federasiyasının və "Xəzər" Yelkənli Qayıqlar İdman Klubunun birgə təşkilatçılığı ilə "Baku Sailing Regatta-2023" tədbiri keçirilmişdir. "Xəzər bizi səsləyir" devizi ilə Bakı buxtasında (Yaxt klub ərazisində) təşkil olunan Regatta çərçivəsində yarışlarda 39 yelkənçi iştirak etmişdir.



2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar, müvafiq tədbirlər planı tərtib edilmiş və il ərzində silsilə tədbirlər həyata keçirilmişdir.

Belə ki, bu çərçivədə müxtəlif mövzularda sərgilər, ağacəkmə və iməclik aksiyaları, idman yarışları, "Ulu Öndər Heydər Əliyev və Milli Gəmiçilik siyasəti" kitabının təqdimatı, Vətən Müharibəsində iştirak edən ASCO əməkdaşlarının "Heydər Əliyev" zirvəsinə səfəri, ADDA-da beynəlxalq elmi-texniki konfrans təşkil edilmişdir.

2023-cü ildə Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi, eləcə də milli gəmiçiliyin əsasının qoyulmasının 165 illiyi və Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkədə iki böyük gəmiçilik şirkətinin birləşdirilməsi yolu ilə yenidən təşkil edilən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasının 10 illiyinə həsr olunmuş "Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti" mövzusunda tədbir keçirilib. ASCO-nun təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif dövlət strukturlarının rəhbərləri, qurumun əməkdaşlıq etdiyi yerli və xarici şirkətlərin nümayəndələri, ictimai-siyasi xadimlər, qocaman və qazi dənizçilər, Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri iştirak ediblər. Tədbirdə gəmiçiliyin 165 illik tarixi, milli dənizçilik ənənələri, gəmiçiliyin müasir dövrdəki inkişafından bəhs edən "Üç əsrə şahid" adlı qısametrajlı bədii-sənədli film də təqdim olunub. Tədbirdə tanınmış incəsənət xadimlərinin ifasında Ulu Öndər Heydər Əliyevin sevdiyi, dəniz haqqında mahnılar səsləndirilib.




## GƏLƏCƏK PLANLAR

Gələcəkdə, mənzil növbəsində olan və həyata keçirilmiş ilk layihədən mənzil almayan şəxslərin güzəştli şərtlərlə mənzillə təminatı üçün 2-ci yaşayış kompleksinin tikintisi nəzərdə tutulur. Bundan əlavə, "Dənizçi" istirahət bazasında otel binasının və üzgüçülük hovuzunun inşa edilməsi planlaşdırılır. Həmçinin, ASCO əməkdaşlarının iş yerinə aparıb-gətirilməsini həyata keçirən avtobusların yeni, müasir, ekoloji təmiz yanacaqla çalışan avtonəqliyyat vasitələri ilə əvəz edilməsi nəzərdə tutulmuşdur.

# SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ



## SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİNİN İDARƏ EDİLMƏSİ

ASCO-nun fəaliyyəti boyunca diqqət mərkəzində saxladığı ən mühüm aspektlərdən biri fəaliyyətinin əhatə dairəsində olan bütün işlərin icrasının çalışanların sağlamlığına hər hansı bir zərər yaxud itki olmadan və qəza hadisələrinə yol verilmədən güvənli şəkildə təmin edilməsidir. Hər bir şirkətdə sağlamlıq və əməyin təhlükəsizliyinin idarəolunması mütləq şəkildə yerli qanunvericilik, normalar və beynəlxalq tələblər, konvensiyalar əsasında tənzimlənir ki, ASCO-nun mövcud İdarəetmə Sistemi də bu əsasda tərtib edilmişdir. İdarəetmə Sistemi Beynəlxalq Dəniz Təşkilatının "Dördlü Sütunu" adlanan 4 əsas konvensiyasının MARPOL, SOLAS, STCW, MLC (Dəniz Əmək Konvensiyası), həmçinin Beynəlxalq Təhlükəsizliyin İdarə Olunması Kodeksinin (ISM Code), Gəmi və Liman vasitələrinin mühafizəsi haqqında beynəlxalq məcəllə (ISPS code 2003), ISO 45001:2018 standartının və eləcə də Texniki Təhlükəsizlik Haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələblərinə uyğun şəkildə tətbiq edilir. Yeni tələblər və standartlar qüvvəyə mindikcə İdarəetmə Sistemindəki forma və prosedurlar da müvafiq olaraq təkmilləşdirilərək yenilənir və zərurət yarandığı təqdirdə yeni forma və prosedurlar sistemə əlavə edilir. Bununla bağlı olaraq 2022-2023-cü illər ərzində ümumilikdə 19 forma və 37 prosedurda müxtəlif dəyişikliklər edilərək təkmilləşdirilmiş, 7 ədəd yeni forma və 2 ədəd yeni prosedur tərtib edilərək İdarəetmə Sisteminə əlavə edilmişdir.



Bu dəyişiklik və yeniliklər əsasən korporativ risklər və imkanlar, emissiyaların monitorinqi, hesabatı və təsdiqi, həmçinin yeni siyasətlərin əlavə olunması məsələlərindən ibarətdir.

Sağlamlıq və əməyin təhlükəsizliyi sahəsində ASCO-da mütəmadi olaraq müvafiq xarici auditlər aparılır. 2022-ci ildə ASCO-nun baş aparatında və gəmilərində Amerika Gəmiçilik Bürosu (ABS) tərəfindən audit keçirilmişdir. Auditin nəticəsində ASCO-nun mövcud İdarəetmə Sisteminin malik olduğu beynəlxalq tələblərə uyğunluğu təsdiq edilmişdir.

Bununla yanaşı, İdarəetmə Sisteminin effektivliyini, lazımi şəkildə tətbiq olunma səviyyəsini müəyyən etmək və sistemin aktiv şəkildə tətbiqini təmin etmək üçün şirkətdaxili audit yoxlamaları da keçirilir. 2022-2023-cü illər ərzində ASCO-da ümumilikdə 214 olmaqla idarəetmə aparatında 3, gəmilərdə 209, Dəniz Nəqliyyat Donanmasında 1, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda 1 daxili yoxlamalar həyata keçirilmişdir. Aparılan auditlər zamanı bir sıra nöqsanlar aşkar edilmişdir ki, hesabat dövrü ərzində nöqsanların aradan qaldırılması istiqamətində mütəmadi tədbirlər görülmüş və əksər ciddi uyğunsuzluqlar aradan qaldırılmışdır.

ASCO-nun bütün əməkdaşları Gəmiçiliyin hesabına vaxtaşırı olaraq dövri tibbi müayinədən keçirlər. Eyni zamanda, bütün ASCO əməkdaşları üçün könüllü tibbi sığorta müqaviləsi təmin olunmuşdur. Tibbi siğorta vasitəsilə ailə üzvləri də daxil olmaqla bütün işçilər, ölkənin müəyyən klinika və xəstəxanalarında ödənişsiz yaxud müəyyən güzəştli şərtlərlə tibbi xidmətlərdən yararlanmaq imkanına sahibdirlər.





Eyni-zamanda, ASCO-da ballar əsasında aşpazların qiymətləndirilməsi də həyata keçirilir. Qiymətləndirmə aşpazın təhsili, təcrübəsi, sanitar normalara və gigiyenik qaydalara riayət etməsi və bir sıra digər meyarlar əsasında 20-42 ballıq sistem üzrə aparılır. Belə ki, hesabat dövrü ərzində gəmilərdə ümumilikdə 143 aşpaz yoxlaması aparılmışdır.

SƏTƏM əməkdaşları tərəfindən sağlamlıq və əməyin təhlükəsizliyi sahəsində işçilərin biliklərinin təkmilləşdirilməsi və onların təhlükəszilik texnikası tələbləri ilə bağlı yeniliklərdən xəbərdar olmaları üçün mütəmadi daxili təlimlər keçirilir. Hesabat dövrü ərzində işçilərə müxtəlif SƏTƏM əsaslı daxili təlimlər o cümlədən, işə icazə, risk qiymətləndirilməsi, yanğın təhlükəsizliyi, enerji təcridi, qapalı sahələrə giriş və qapalı sahədən xilasetmə, suya və enerjiyə qənaət, cəmiyyətin siyasətləri, sürüşmə və yıxılma, ofis təhlükəsizliyi, əl və barmaqların qorunması, ilməçi siqnalçı, isti hava təhlükələri, sıxılmış qaz balonları ilə iş zamanı davranış qaydaları, zərbə xətti və atqı nöqtələrinin plomblanması mövzularında təlimlər keçirilmişdir. Hesabat dövrü ərzində, ümumilikdə, 19 mövzuda daxili təlimlər keçirilmiş və 4,789 nəfər bu təlimlərdə iştirak etmişdir. O cümlədən, 371 nəfər SƏTƏM əməkdaşı müxtəlif təyinatlı 80 xarici təlimdə iştirak etmişdir. Keçirilmiş xarici təlimlərə əməyin mühafizəsi, alternativ dəniz yanacağı, ISO 45001:2018 daxili auditor, asbestin idarəolunması, sağlamlıq üçün təhlükəli maddələrə nəzarət, tikinti sənayesinin idarə edilməsində əməyin təhlükəsizliyi və sağlamlığın mühafizəsi, Bakı Dəniz Limanının yaşıl liman konsepsiyasının həyata keçirilməsinə və əməliyyat imkanlarının gücləndirilməsinə dəstək, beynəlxalq məhdu-




diyyətlər və gəmi müfəttişliyi və digər bir sıra gəmiçilik və SƏTƏM mövzuları ilə bağlı təlimlər daxildir.

KSƏTƏMM departamenti tərəfindən ASCO-da rübdə bir dəfə olmaqla "Təhlükəsizlik günü" tədbiri təşkil edilir. Tədbirdə ASCO-nun rəhbərliyi, bütün departament rəisləri, struktur idarələrin rəhbərləri və digər aidiyyəti şəxslər iştirak edirlər. Tədbir zamanı rüb ərzində baş vermiş hadisələr, açıq qalan nöqsanlar və onların bağlanmasının mümkün həlləri, keçirilən audit yoxlamaları, görülmüş işlər, əldə edilən bütün nailiyyətlər haqqında məlumat verilir və müxtəlif yeni fikir və təkliflər müzakirə edilir. ASCO-nun İdarəetmə Sistemində ümumilikdə 7 siyasəti vardır ki, onlardan ikisi "Qısnama və zorakılığa qarşı mübarizə və ayrı-seçkiliyə yol verilməməsi" və "Korrupsiyaya Qarşı Mübarizə" Qaydaları hesabat dövrü ərzində tərtib edilmişdir. Həmçinin KSƏTƏMM siyasəti, "Narkotik vasitələr, qumar oyunları, spirtli içkilərə dair siyasət" və "Tütün məmulatlarının istifadəsinə dair siyasət"i də daxil olmaqla bütün siyasətlər idarəetmə aparatında, bütün struktur idarələrin inzibati binalarında və gəmilərdə aidiyyəti üzrə hər kəsin asanlıqla görüb oxuya biləcəyi yerlərdə asılmışdır. Siyasətlər həmçinin ASCO-nun rəsmi vebsaytında hamıya rahatlıqla əlçatan olması üçün müvafiq bölmədə dərc edilmiş və yeni işə qəbul olunan hər bir əməkdaşa keçirilən "Giriş" təlimatında bütün siyasətlər barəsində ətraflı təlimat keçirilmişdir.

İşçilərin maarifləndirilməsi və onlar arasında SƏTƏM mədəniyyətinin düzgün formalaş-

ması, həmçinin hər hansı bir hadisənin baş verməməsi, yaxud təkrarlanmaması üçün şirkət daxilində müvafiq təhlükəsizlik bülletenləri hazırlanaraq bütün ASCO əməkdaşları arasında elektron qaydada yayımlanır və bu barədə SƏTƏM nümayəndələri tərəfindən gəmi və sahil heyəti üçün aidiyyəti üzrə təlimatlar keçirilir. Həmçinin IMCA, BP, SAIPEM və Equinor kimi beynəlxalq qurumlar və şirkətlər tərəfindən hazırlanan bülletenlər də müvafiq olaraq şirkət daxilində yayımlanır və beynəlxalq təcrübələrin mənimsənilməsi məqsədilə işçilər arasında müzakirə edilir. Belə ki, hesabat dövrü ərzində 19 daxili və 6 xarici təhlükəsizlik bülleteni tərtib edilərək bütün şirkət işçiləri arasında yayımlanmışdır.
2022-ci ildə ASCO-nun "My ASCO" mobil tətbiqi yaradılmış və bütün işçilərin istifadəsinə verilmişdir. Belə ki, mobil tətbiqdə "KSƏTƏMM müraciət" bölməsində inzibati binalarda, ərazilərdə, gəmilərdə, istehsalat sahələrində və bölmələrdə müşahidə edilən istənilən müsbət və ya mənfi halların operativ şəkildə aidiyyəti üzrə məlumat verilməsi mümkündür.

ASCO hər il təhlükəsizlik texnikası və əməyin mühafizəsi sahəsində təminatın dəstəyinə müəyyən xərclər ayırır. Bununla bağlı Gəmiçiliyin ayırdığı xərclər aşağıdakı cədvəldə öz əksini tapmışdır. Bu xərclər həmçinin bədbəxt hadisələrə və istehsalatda xəsarətlərə qarşı xəbərdarlıq tədbirlərini, əmək şəraitinin yaxşılaşdırılması tədbirlərini və bütün növ lazımi fərdi mühafizə vasitələrinin təmin edilməsini əhatə edir.

**2021-2023-cü illəri əhatə edən təhlükəsizlik texnikası və əməyin mühafizəsi xərcləri, AZN:**

| Xərclər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Təhlükəsizlik texnikası və əməyin mühafizəsi xərcləri o cümlədən | 2,680,291 | 1,829,510 | 1,726,451 |
| Əmək şəraitinin yaxşılaşdırılması üçün ayrılan xərclər | 1,798,718 | 1,068,269 | 1,120,700 |
| Fərdi mühafizə vasitələri üçün ayrılan xərclər | 575,802 | 761,241 | 605,751 |

## QƏZA HALLARI

İstismar zamanı gəmilərdə və istehsalat prosesində müxtəlif tipli qəza və hadisələr o cümlədən, yanğın, saya oturma və toqquşma kimi hallar gəmilərin istismarı zamanı baş verən xarakterik hadisələrdir. Digər tərəfdən, sürüşmə və yıxılma, cərəyan vurması, peşə xəstəlikləri, avadanlığın nasazlığı kimi hadisələr itirilmiş iş gününə səbəb hadisələr kimi qiymətləndirilir.

Hesabat dövrü ərzində ASCO-nun fəaliyyəti boyunca heç bir ölüm hadisəsi baş verməmişdir. 2022-ci ildə itirilmiş iş gününə səbəb olan hadisə sayı 5, 2023-cü ildə isə bu göstərici 4 olmuşdur. Bu hadisələrin hamısı gəmilərdə baş vermiş və hadisələrə səbəb isə ehtiyatsızlıq və əməyin mühafizəsi qaydalarına əməkdaşlar tərəfindən tam riayət olunmaması halları olmuşdur.




Hesabat dövrü ərzində, ümumilikdə gəmi toqquşması hadisəsi üzrə 1, avadanlığın itirilməsi üzrə 3 hadisə baş vermişdir. Toqquşma hadisəsi, ASCO-nun STB-1 barjasının yedəkdə yanalma əməliyyatı zamanı obyektlərlə toqquşmasıdır ki, hadisəyə səbəb təhlükələrin düzgün idarə olunmaması və iş fəaliyyətinin yanlış qiymətləndirilməsi olmuşdur. Hadisənin araşdırılmasından sonra aidiyyəti bölmələr tərəfindən müvafiq tədbirlər görülmüşdür. Avadanlığın itirilməsi üzrə baş verən hadisələrə isə küləkli hava şəraiti ilə əlaqədar, texniki nasazlıq nəticəsində lövbər zəncirinin qırılması və lövbərin itirilməsi halları aiddir. Qeyd olunan hadisələrdə xəsarət alan olmamışdır.

Qeyd olunan bütün hadisələrin səbəbi araşdırılmış, müvafiq təlimatlandırma xarakterli işlər görülmüş və baş vermiş hadisələrdə təqsirli şəxslər barəsində islahedici tədbirlər tətbiq edilmişdir.

Aşağıdakı cədvəldə hesabat dövrü ərzində sağlamlıq və əməyin təhlükəsizliyi sahəsi üzrə əsas məhsuldarlıq göstəriciləri əks etdirilmişdir.

**2021-2023-cü illər üzrə əməyin təhlükəsizliyi sahəsində məhsuldarlıq göstəriciləri:**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Cəmi zədə almış əməkdaşların sayı | 5 | 6 | 4 |
| Cəmi həlak olmuş işçilərin sayı | 0 | 0 | 0 |
| Peşə xəstəliklərlərinin sayı | 0 | 0 | 0 |
| Bədbəxt hadisələrə görə itirilmiş günlərin cəmi sayı | 463 | 422 | 302 |
| Xəstəliklə əlaqədar buraxılmış iş günlərinin cəmi sayı | 459,094 | 26,916 | 23,221 |
| Əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə nəticələnən zədələnmələrin ümumi sayı * | 5 | 5 | 4 |
| Personalın sayı | 8,042 | 7,923 | 7,798 |
| Cəmi işlənmiş saat | 12,706,380 | 14,205,772 | 14,210,210 |
| Cəmi işlənmiş gün | 1,588,298 | 1,775,721 | 1,767,328 |
| LTİ üzrə tezlik əmsalı (hər 1,000,000 işlənmiş saata)* | 0.4 | 0.35 | 0.28 |
| İtirilmiş iş günləri əmsalı (hər 1,000,000 işlənmiş saata) | 36.4 | 30 | 21 |
| İtirilmiş iş gününə səbəb olan hadisələrin tezlik əmsalı (hər 1,000 nəfər işçiyə düşən hadisələrin sayı) | 0.6 | 0.8 | 0.5 |
| İtirilmiş iş gününə səbəb olan hadisələrin ağırlıq əmsalı (hər hadisəyə düşən itirilmiş iş günlərinin sayı) | 92.6 | 70.3 | 75,5 |
| İş yerində olmama əmsalı (hər 1,000,000 işlənmiş günə) | 289,048 | 15,158 | 13,139 |
| Peşə xəstəliklərinin əmsalı (hər 1,000,000 işlənmiş saata) | 0 | 0 | 0 |

*2023-cü il ərzində LTI hadisələrindən 3 hadisə istirahət zamanı, 1 hadisə isə iş şəraitində baş vermişdir. Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən istirahət zamanı baş vermiş hadisələr istehsalat hadisəsi kimi qeydə alınmamışdır.

## GƏLƏCƏK PLANLAR

Növbəti hesabat dövründə Gəmiçiliyin bütün əməkdaşları üçün daxili SƏTƏM təlimlərinin və maarifləndirmə xarakterli iclasların keçirilməsinin davam etdirilməsi və SƏTƏM əməkdaşlarının özlərinin də xarici təlimlərə cəlb edilməsi nəzərdə tutulur.

Digər tərəfdən, Beynəlxalq tələblərin yenilənməsi, həmçinin keçiriləcək daxili və xarici audit yoxlamaları nəticəsində Gəmiçiliyin İdarəetmə Sistemində gərəkli olan təkmilləşdirmə işlərinin görülməsi planlaşdırılır.



# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ


NEPTÜN

## ƏTRAF MÜHİTƏ TƏSİRİN İDARƏ EDİLMƏSİ

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. ASCO əməliyyatların ətraf mühitə təsirinin minimuma endirilməsinə hər zaman yüksək önəm vermişdir və ekoloji idarəetmə sahəsində qabaqcıl təşəbbüslərinin tətbiq edilməsi ASCO-nun strateji hədəflərindən biridir. Bu istiqamətdə, ASCO su, enerji və digər ətraf mühit aspektlərini əhatə edən resurslardan qənaətlə istfadə edilməsi üçün tədbirlər görür, o cümlədən gəmilərdə və sahil obyektlərində bu sahə üzrə müəyyən innovasiyaların tətbiqi istiqamətində davamlı işləyir.

Gəmiçiliyin fəaliyyəti zamanı ətraf mühitin mühafizəsi ilə bağlı məsələlər yerli qanunvericilik, beynəlxalq konvensiyalar və ASCO-nun daxili Siyasət və Qaydaları ilə tənzimlənir. Belə ki, yerli qanunvericilikdə Ətraf Mühitin Mühafizəsi haqqında, İstehsalat və məişət tullantıları haqqında, Təhlükəli tullantıların daşınması haqqında, Atmosfer havasının mühafizəsi haqqında və Yaşıllıqların mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunlarına istinad edilir. Eyni zamanda, Dənizin gəmilərdən çirklənməsinin qarşısının alınması haqqında (MARPOL 73/78), Ballast sularının idarə edilməsi haqqında, Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında, Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında Beynəlxalq Konvensiyalar və digər aidiyyəti sənədlərin tələbləri Gəmiçiliyin idarəetmə sisteminə tətbiq edilmişdir.







ASCO-da ətraf mühitin mühafizəsi ilə bağlı KSƏTƏMM siyasəti və Enerjiyə qənaət siyasəti tətbiq olunmuşdur. Eyni zamanda, yuxarıda qeyd edilən yerli və beynəlxalq tələblər əsasında, eləcə də ISO 14001:2015 Ekoloji idarəetmə və ISO 50001:2011 Enerji səmərəliliyinin idarə edilməsi beynəlxalq standartlarının tələblərinə uyğun olaraq müvafiq prosedurlar və sənədlər hazırlanaraq ASCO-nun idarəetmə sistemində tətbiq edilmişdir. Bundan əlavə, ASCO 32 aspekt əsasında bütün ətraf mühitə təsirlərini qiymətləndirmiş və həmin aspektlərdən 5-i mühüm, 27-si isə orta səviyyədə müəyyən edilmişdir.

Gəmiçiliyin fəaliyyəti ilə əlaqədar yaranan müxtəlif növ tullantıların, su, enerji və emissiyaların idarə olunması, eləcə də bu sahədə gəmilərə tətbiq olunan tələblərlə bağlı geniş məlumat aşağıda təqdim edilmişdir.

## TULLANTILAR

Gəmilərin və sahil qurğularının istismarı nəticəsində meydana gələn müxtəlif növ maye və bərk tullantıların, o cümlədən məişət və qida tullantıları, məişət çirkab suları, işlənmiş yağlar, neftli döşəməaltı sular, şlam tullantıları, elektron və digər çirkləndiricilərin idarə edilməsi, onların minimal səviyyədə saxlanılması sahəsində işlər ölkə qanunvericiliyinin və beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq tənzimlənir. Gəmilərdə yaranan və təhvil verilən tullantılar barədə məlumatlar ekoloji jurnallarda (“Zibil əməliyyatları jurnalı”, “Neft əməliyyatları jurnalı hissə 1 və 2”, “Çirkab su əməliyyatları jurnalı”) qeyd olunur. Eyni zamanda, ətraf mühitin mühafizəsi üzrə Gəmiçiliyin sahil obyektlərinin ərazilərində, o cümlədən gəmi təmiri zavodları, donanmalar və digər inzibati ərazilərində mütəmadi olaraq iməcliklər təşkil edilir, ərazilərin tullantılardan təmizlənməsi, abadlaşdırılması və yaşıllaşdırılması işləri aparılır. Bundan əlavə, ASCO-nun ixtisaslaşmış donanmasında olan “Bulvar 1” gəmisi ilə mütəmadi olaraq donanmalar və zavodların, eləcə də Dənizkənarı Milli Parkın akvatoriyasında dənizin səthində olan bərk tullantıların yığılması həyata keçirilir. 2022-2023-cü illər ərzində “Bulvar 1” gəmisi tərəfindən 117,04 m³ müxtəlif ölçülü tullantı yığılıb təhvil verilmişdir.



ISO 14001:2015 Ekoloji idarəetmə beynəlxalq standartının tələbləri və yerli ekoloji qanunlara uyğun olaraq, Gəmiçiliyin ərazisində və gəmilərdə yaranan bərk və maye tullantılar müqavilələr əsasında müvafiq ixtisaslaşmış şirkətlərə təhvil verilir. Tullantıların təhvil verilməsi nəzərdə tutulan aidiyyəti şirkətlərlə müqavilə bağlanmazdan öncə həmin şirkətlərdə auditlər keçirilir, onların utilizasiya imkanları, icazə sənədləri və lisenziyaları yoxlanılır. Bundan əlavə, müqavilə bağlanılmış şirkətlərdə aparılan mütəmadi audit yoxlamaları zamanı fəaliyyətlərində hər hansı ciddi ekoloji nöqsanlar aşkarlanarsa, Gəmiçilik tərəfindən bu şirkətlərlə müqaviləyə xitam verilir. Hesabat dövründə bu cür audit yoxlamaları zamanı uyğunsuzluqlar aşkar edilməmişdir.

ASCO-nun gəmilərinin fəaliyyəti nəticəsində yaranan müxtəlif növ tullantılar, o cümlədən məişət və qida tullantıları, məişət çirkab suları, işlənmiş yağlar, neftli döşəməaltı sular ASCO-nun donanmasında olan müvafiq ixtisaslaşmış "SLV" tipli gəmilər vasitəsilə dənizin çirklənməsinə yol verilmədən toplanır və sahil qəbul məntəqələrində aidiyyəti qurumlara təhvil verilir. Bundan əlavə, ASCO tərəfindən Xəzərdən kənarda fəaliyyət göstərən gəmilərlə yanaşı, 2022-2023-cü illərdə "Akademik Xoşbəxt Yusifzadə", "Azərbaycan" və "İsrafil Hüseynov" gəmilərində məişət çirkab sularını təmizləyən qurğu üçün "Buraxıla bilən axıntı həddi" pasportları hazırlanıb, Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən təsdiq olunaraq gəmilərə verilmişdir. Bununla yanaşı, 2023-cü ildə Marpol 73/78 Beynəlxalq Konvensiyasının 4-cü əlavəsinə əsasən ASCO tərəfindən Xəzər Dəniz Neft Donanmasının kiçik su tutumlu 10 gəmisində məişət təsərrüfat su sistemləri quraşdırılmışdır.

Əvvəlki illərdə, "Bibiheybət" Gəmi Təmiri Zavodunda yaranan məişət çirkab suları müqavilə əsasında təhvil verilirdi ki, bu da bəzən müəyyən çətinliklərə, həm də əlavə xərclərə səbəb olurdu. 2023-cü ildə BGTZ-nin Bakı şəhər kanalizasiya sisteminə qoşulması tamamlanmışdır ki, nəticədə bu problem öz həllini tapmışdır. Hazırda, ASCO-nun Təlim Tədris Mərkəzinin Bakı Şəhər kanalizasiya sisteminə qoşulması istiqamətində işlər görülür.
Aşağıdakı cədvəldə 2021-2023-cü illər ərzində Gəmiçilikdə yaranıb formalaşan və təhvil verilən müxtəlif növ tullantılar barədə məlumat təqdim olunmuşdur.

**ASCO-nun donanmalarının və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan və təhvil verilən müxtəlif növ tullantıların miqdarı ton:**

| Tullantının növü | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Yaranmış təhlükəli tullantıların həcmi | 9,182 | 8,044 | 7,201 |
| Yaranmış təhlükəsiz tullantıların həcmi | 3,493 | 4,734 | 4,786 |
| Təhvil verilmiş təhlükəli tullantıların həcmi | 9,975 | 7,901 | 7,030 |
| Təhvil verilmiş təhlükəsiz tullantıların həcmi | 3,493 | 4,735 | 4,797 |

Qeyd edək ki, yerli qanunvericiliyin, MARPOL və ya hər hansı digər beynəlxalq konvensiyanın tələblərinə əsasən gəmilərdə yaranan məişət tullantı sularının Xəzər dənizinin neytral sularında dənizə atılması qadağan edilmir. Buna baxmayaraq, təbii sərvətimiz olan Xəzər dənizinin çirklənməsinin qarşısının alınması, onun bioloji ehtiyatlarının və biomüxtəlifliyinin qorunması məqsədi ilə, ASCO tərəfindən könüllü olaraq hətta Xəzərin neytral sularında belə öz gəmilərindən bu tip tullantıların dənizə atılmasına qadağa qoyulmuşdur. Bu tullantılar yığılaraq, yalnız gəmi sahilə qayıtdıqdan sonra müvafiq sahə üzrə ixtisaslaşmış qurumlara təhvil verilir.

Bundan əlavə, registr təşkilatlarının və müvafiq beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, Gəmiçiliyin həm nəqliyyat, həm də ixtisaslaşmış ofşor donanmasının gəmiləri müəyyən vaxt periodu ilə tərsanə və əsaslı təmirə cəlb olunurlar. Gəmilərin fəaliyyəti nəticəsində ətraf mühitə təsirlərin azaldılması məqsədi ilə, sözügedən təmir zamanı gəmilərin gövdələri təmizlənir, əsas və köməkçi mühərrikləri müasir, daha az tullantılı, ətraf mühitə daha az təsirə malik olan mühərriklərlə əvəzlənir. 2022-2023-cü illər ərzində 180 gəminin gövdəsi təmizlənmiş, 33 ədəd köməkçi, 7 ədəd əsas mühərrik alınaraq gəmilərə quraşdırılmışdır. İstismar müddətini bitirmiş gəmilər isə müvafiq qaydada təmizlənir, doğranılaraq təkrar emal müəssisələrinə təhvil verilir. 2022-2023-cü illər ərzində 9,481 ton qara metal, 15.2 ton əlvan metal təkrar emala göndərilmişdir.

2021-ci ildən etibarən Gəmiçiliyin yeni inzibati binasında plastik qabların və işlənmiş kağızların toplanması üçün müvafiq qutular quraşdırılmışdır və 2022-2023-cü illərdə 1.3 ton plastik qab, 1.1 ton işlənmiş kağız toplanaraq təkrar emal üçün bu sahədə ixtisaslaşmış müvafiq şirkətlərə təhvil verilmişdir.

## SU

ASCO təmiz və içməli sudan səmərəli istifadə olunmasının əhəmiyyətini dərk edir. Gəmiçilik tərəfindən həm Xəzərdə, həm də Xəzərdən kənarda beynəlxalq sularda fəaliyyət zamanı gəmilərdə, eləcə də sahildəki müvafiq struktur bömələrdə içməli sudan qənaətlə istifadə edilməsi ilə yanaşı, su hövzələrinin qorunmasına və çirkləndirilməməsinə xüsusi diqqət yetirilir. Həm Xəzərdə, həm də Xəzərdən kənarda beynəlxalq sularda fəaliyyət zamanı gəmilərdə, eləcə də sahil obyektlərində içməli sudan səmərəli istifadə olunması və su hövzələrinin çirklənmədən qorunması üçün ASCO-da İdarəetmə Sistemi çərçivəsində davamlı tədbirlər həyata keçirilir.

Pandemiya dövrünün bitməsi ilə əlaqədar, istehsalatda artım, eləcə də evdən iş rejiminin ləğv edilməsi 2022-ci ildə su sərfiyyatının artmasına səbəb olmuşdur. Lakin, 2023-cü ildən etibarən su sərfiyyatı yenidən stabilləşmiş və 2022-ci il ilə müqayisədə 12% azalmışdır.

İçməli su sərfiyyatına nəzarətin təmin edilməsi məqsədi ilə, bütün su xətləri üzərində su sayğacları yenilənmiş və ASCO-nun hər bir struktur idarəsi üzrə məsul şəxslər təyin edilmişdir. Məsul şəxslər tərəfindən içməli suyun qəbulu və sərfiyyatı ilə bağlı qeydiyyatlar aparılır və aylıq hesabatlar tərtib edilir. İçməli sudan qənaətlə istifadə edilməsi barədə ASCO-nun gəmilərində və struktur idarələrdə əməkdaşlarla mütəmadi maarifləndirmə işləri aparılır. Bu çərçivədə, müvafiq yerlərdə suya qənaət barədə məlumat posterləri asılmışdır.

**Gəmiçilikdə su sərfiyyatı, min m3**




*Su sərfiyyatı üzrə göstəricilər ASCO-nun əsas inzibati binasını, XDND, DND, ZGTTZ, BGTZ və İXİ-ni əhatə edir.

Gəmiçilikdə dəniz suyundan yanğınsöndürmə xətlərində, mühərriklərin soyudulması və ballastın qəbulunda istifadə olunur və bu proses MARPOL beynəlxalq konvensiyasının tələblərinə uyğun olaraq tənzimlənir. Aşağıdakı cədvəldə 2021-2023-cü illər ərzində dəniz suyundan istifadə barədə məlumat təqdim edilmişdir.

**2021-2023-cü illər ərzində Gəmiçilikdə dəniz suyundan istifadə, min m3:**

| Struktur vahidi | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| DND | 5,221 | 5,220 | 5,300 |
| XDND | 10,322 | 10,322 | 10,322 |
| ZGTTZ | 8.5 | 8.7 | 8.7 |
| BGTZ | 174 | 174 | 174 |

Dəniz mühitinin ballast suları ilə çirklənməsinin qarşısının alınması məqsədi ilə, ASCO tərəfindən gəmilərdə müasir tələblərə cavab verən ballast suların təmizlənməsi sistemləri quraşdırılır və aparılan hər ballast əməliyyatı üzrə məlumatlar məsul şəxslər tərəfindən "Ballast əməliyyatları" jurnallarında qeyd edilir. 2022-2023-cü illərdə DND-nin Xəzərdən kənar hövzələrdə fəaliyyət göstərən 6 gəmisində bu cür ballast təmizləmə qurğusunun quraşdırılması tamamlanmışdır. Yanğınsöndürmə xətləri və mühərriklərin soyudulmasında istifadə edilən dəniz suyu isə çirklənməyə məruz qalmır və hər hansı xüsusi təmizləmə proseduru tələb etmir.

Bir neçə müxtəlif su hövzəsi arasında hərəkət edən gəmilərin gövdəsinə dənizdə yaşayan bioloji varlıqların və canlıların yapışması ilə onların hövzələr arasında mübadiləsi və bunun ekosistemə və biomüxtəlifliliyə mənfi təsirlə nəticələnməsi riski mövcuddur. Belə halların qarşısınının alınması məqsədilə, ASCO tərəfindən müvafiq konvensiya və standartların tələblərinə uyğun olaraq, müxtəlif hövzələr arasında hərəkəti nəzərdə tutulan gəmilərin gövdələrinin təmizlənməsi işləri həyata keçirilir.

## ENERJİ

ASCO üzrə istehsalat prosesində elektrik enerjisi, isitilik enerjisi, təbii qaz və müxtəlif növ yanacaqlardan istifadə olunur. Gəmiçiliyin əsas fəaliyyət istiqamətinə uyğun olaraq, gəmilərin sahil elektrik enerjisi təchizatının və gəmi təmiri və tikintisi işləri üçün körpülərin, istismar sahələrinin, tərsanələrin, yük qaldırıcı qurğularının sənaye gərginlikli elektrik enerjisi təchizatının dayanıqlığının təmin edilməsi, eyni zamanda təbii qaz, su təchizatı, kompressor stansiyasının və istilik sistemlərinin istismarı müvafiq normativ sənədlər, istismar qayda və normaları əsasında elektrotexniki və mexaniki heyət tərəfindən aparılır. Gəmiçiliyin enerji səmərəliliyi prosedurları ISO 50001 standartının tələblərinə tam cavab verir. Bu istiqamətdə ASCO-da Elektrik enerjisindən istifadə Qaydaları, Elektrik və istilik qurğularının texniki istismar Qaydaları, Elektrik qurğularının quraşdırılması Qaydası, Elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydaları və Qaldırıcı qurğuların quruluşu və təhlükəsiz istismarı Qaydaları kimi yerli normativ sənədlər tətbiq olunur.

Növbəti səhifədə diaqramda ASCO-nun donanmalarında 2021-2023-cü illər üzrə sərf edilən yanacağın miqdarı ilə bağlı məlumatlar əks olunmuşdur.




**Donanmaların fəaliyyəti üçün istifadə olunmuş yanacağın miqdarı, ton**




Qrafikdən də göründüyü kimi atmosferə mənfi təsirləri nəzərə alınaraq ağır yanacaqdan istifadə kəskin şəkildə azaldılmışdır və əsasən dizel yanacağına üstünlük verilir. Hesabat dövrü ərzində Xəzər Dəniz Neft Donanmasının gəmilərində yalnız dizel yanacağından, Dəniz Nəqliyyatı Donanmasının gəmilərində isə az miqdarda da olsa ağır yanacaqdan istifadə edilmişdir.

Gəmilərdə enerji sərfiyyatının səmərəliliyinin artırılması və nəzarətdə saxlanılması üçün MARPOL konvensiyasının VI əlavəsinin tələbinə uyğun olaraq gəmilər üçün 3 hissədən ibarət olan "Gəmi Enerji Effektivliyinin İdarəolunması Planı" tərtib edilir. Bu planın ən sonuncu, yəni üçüncü hissəsinin tətbiq edilməsi tələbi 2023-cü ildən qüvvəyə minmişdir və bu tələb qros tonajı 5000 tondan yuxarı olan gəmilərə şamil edilmişdir.

ASCO-nun 31 ədəd gəmisi bu tələbin əhatə dairəsinə düşmüşdür ki, müvafiq sənədlər hazırlanaraq bütün bu gəmilərə təqdim edilmişdir. Gəmilərdə yanacaq sərfiyyatının optimallaşdırılması məqsədi ilə, gəmilərin sualtı hissəsi tərsanə baxışı və təmir zamanı təmizlənir, yeni tikilən gəmilər enerjiyə qənaət edən qurğularla təmin edilir, mövcud gəmilərdə də bu kimi qurğuların təmir zamanı quraşdırılması imkanı dəyərləndirilir, həmçinin gəmi kapitanları tərəfindən gəminin istismarı zamanı yanacaq sərfiyyatına qənaət etməyə imkan verən optimal marşrut və sürətin seçilməsinə üstünlük verilir.

Eyni zamanda, ASCO-nun balansında olan avtonəqliyyat vasitələri tərəfindən də yanacaq sərfiyyatı mövcuddur. Avtonəqliyyat vasitələri tərəfindən sərf edilən yanacağın miqdarı barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir.

**2021-2023-cü illər ərzində avtonəqliyyatda sərf edilən yanacağın miqdarı, ton:**

| Yanacağın növü | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Dizel | 454 | 432 | 308 |
| Benzin | 385 | 369 | 304 |

2021-2023-cü illər ərzində yanacaq istehlakı tədricən azalmışdır. Ümumilikdə, 2021-ci il ilə müqayisədə 2023-cü ildə dizel yanacağının sərfiyyatında 32%, benzin yanacağının sərfiyyatında isə 21% qənaət əldə edilmişdir. Buna səbəb isə avtonəqliyyatın istifadəsi zamanı daha optimal marşurutların seçilməsi, bu istiqamətdə nəzarətin artırılması və avtonəqliyyat vasitələrindən şəxsi istifadə üçün istifadənin qarşısının alınması tədbirləri olmuşdur.



Şirkət daxilində müxtəlif texniki və iaşə məqsədlərilə əlaqədar olaraq təbii qaz və elektrik enerjisindən də istifadə olunur. 2021-2023-cü illəri əhatə edən elektrik enerjisi və təbii qaz sərfiyyatı aşağıdakı diaqramlarda, enerji intensivliyi haqqında göstəricilər isə aşağıdakı cədvəldə əks olunmuşdur.

ASCO-nun sərf etdiyi elektrik enerjisi, min Kvt/saat




ASCO-nun sərf etdiyi təbii qaz, min m3




*Elektrik və təbii qaz istehlakı üzrə göstəricilər ASCO-nun əsas inzibati binasını, XDND, DND, ZGTTZ, BGTZ və İXİ-ni əhatə edir

**2021-2023-cü illər üzrə enerji intensivliyi əmsalı (işçi sayına görə min kVt*saat elektrik enerjisindən istifadə):**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| ASCO üzrə | 3.3 | 3.5 | 3.0 |

Göründüyü kimi, 2021-ci il ilə müqayisədə 2023-cü ildə elektrik enerjisi istehlakı azalmışdır ki, bu əsasən XDND, BGTZ və ZGTTZ körpülərində təmirdə və gözləmədə olan gəmilərin minimal sayda və müddətdə dayanmaları, eyni zamanda mühəndis texniki işçilər tərəfindən qənaətin əldə edilməsi istiqamətində aparılan texniki qənaət tədbirləri nəticəsində yaranmışdır.

2021-ci il ilə müqayisədə 2023-cü ildə təbii qaz istehlakının azalmasının səbəbi isə istehsalat sahələrində təbi qazla işləyən sahələrdə xidməti işlərə tələbatın nisbətən azalması və eyni zamanda mühəndis texniki işçilər tərəfindən səmərəliliyin artırılması istiqamətində görülən qənaət tədbirləri olmuşdur.

## EMİSSİYALAR

Havaya atqıların azaldılması və İstixana effekti yaradan qazların minimallaşdırılması son illərin ən çox müzakirə olunan mövzularından biridir ki, bu məsələ ilə bağlı çox saylı təkliflər irəli sürülmüş və ölkələr arasında müvafiq razılaşmalar əldə edilmişdir. Belə ki, bu razılaşmalardan ən əhəmiyyətlisi BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyasına əsasən 2020-ci ildən etibarən atmosferə atılan karbon dioksidin azaldılmasına dair tədbirləri tənzimləyən Paris iqlim Sazişidir. Sazişə Azərbaycan Respublikası da daxil olmaqla 194 ölkə qoşulmuşdur. Bununla yanaşı, Birləşmiş Dənizçilik Təşkilatı tərəfindən emissiyaların azaldılması məqsədi ilə müxtəlif tələblər tətbiq edilir.

Yuxarıda qeyd olunan beynəlxalq tələbləri və onların icrasının əhəmiyyətini nəzərə alaraq, beynəlxalq bazarda fəaliyyət göstərən ASCO ölkənin iri gəmiçilik şirkəti olaraq bu tələblərin yerinə yetirilməsinə ciddi nəzarət edir və müvafiq tədbirlər görür.




Görülən tədbirlərə gəmilərə, onların mühərriklərinə, yağ və yanacaq separatorlarına gecikmələr olmadan uyğun vaxtda və keyfiyyətli texniki xidmətin göstərilməsi və xüsusən də ağır yanacaqdan istifadənin əhəmiyyətli dərəcədə azaldılması, istismar zamanı əlavə yanacaq sərfiyyatını azaltmaq üçün gəmilərin  sürətinin optimallaşdırılması, limana gəliş və çıxış vaxtlarında gecikmələrin qarşısının alınması tədbirlərini misal göstərmək olar.

Emissiyaların idarə edilməsi ilə bağlı 2023-cü ilin yanvar ayının 1-dən etibarən BDT-nin və Avropa Birliyinin Ölçmə, Hesabatlılıq və Verifikasiyaya (Aİ MRV) dair qaydalarına gəmilərdə tətbiqi zəruri olan Karbon İntensivliyi Göstəricisinə (CII indeksi) və onun hesablanma metodologiyasını əhatə edən "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"na III hissənin əlavə olunmasına dair tələblər tətbiq olunmağa başlanılmışdır. Hər iki tələbin məqsədi gəmiçilik şirkətlərini gəmilərdən yaranan karbon emissiyalarının azaldılması istiqamətində tədbirlər görməyə təşviq etməkdir. Hazırda BDT-nin tələblərinə uyğun olan "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"nın III hissəsi 5000 tondan yuxarı və beynəlxalq sularda üzən gəmilərə, Aİ MRV qaydalarına uyğun hazırlanan planlar Avropa limanlarına daxil olan gəmilərə şamil edilir. Buna uyğun olaraq, artıq ASCO-nun 31 gəmisinə CII əhatə edən "Gəminin enerji səmərəliliyinin idarə olunması planı"na III hissə, 5 gəmisinə isə CII və Aİ MRV-yə dair tələbləri əhatə edən planlar verilib.

Aşağıdakı diaqramlarda ASCO-nun 2021-2023-cü illər üzrə fəaliyyəti zamanı yaranan birbaşa və dolayı CO2 emissiyalarının göstəriciləri əks olunmuşdur. Birbaşa emsissiyalar qəbul olunmuş beynəlxalq əmsallara və illik yanacaq sərfiyyatına əsasən hesablanmışdır. Sərf edilən elektrik enerjisinin və müvafiq düsturların əsasında isə dolayı emissiyalar hesablanmışdır.

**Birbaşa emissiyalar (CO2 ekvivalentində), ton**




**Dolayı emissiyalar (CO2 ekvivalentində), ton**




İEYQ emissiyaları yükdaşımaların həcmində artım olduğuna görə 2021-ci ilə nəzərən 2022-ci ildə artmışdır. Həmçinin, 2022-ci ilə nəzərən 2023-cü ildə də yükdaşımaların həcminin artmasına baxmayaraq əlavə nəzarət tədbirləri sayəsində emissiyaların artımının qarşısı alınaraq stabilləşdirilmişdir. Başqa sözlə, emissiyaların azalmasının səbəbi uyğun olaraq yanacaq sərfinin azalması və həmçinin emissiyaların azaldılması istiqamətində görülən hava şəraiti nəzərə alınmaqla sürətin optimallaşdırılması, optimal marşurutun seçilməsi kimi daha az yanacaq sərfinə imkan verən istismar tədbirlərinin tətbiqidir. Həmçinin, gəmilərin sualtı hissəsi hər tərsanə baxışı və təmir zamanı təmizlənir ki, bu da öz növbəsində mühərrikin işinin yaxşılaşmasına və emissiyaların azalmasına töhfə vermişdir.

**2021-2023-cü illər ərzində donanmaların fəaliyyəti nəticəsində atmosferə atılan emissiyaların həcmi, ton**

| Emissiya növü | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Karbon dioksidi (CO2) | 231,887 | 289,100 | 243,990 |
| Azot oksidi (NO2) | 3,338 | 4,162 | 3,512 |
| Karbon oksidi (CO) | 1,307 | 1,629 | 1,375 |
| Karbohidrogenlər (CH) | 0.822 | 1.025 | 0.865 |
| Bərk maddələr (PM) | 0.286 | 0.357 | 0.301 |
| Kükürd oksidi (SO2) | 1,284 | 1,601 | 1,351 |

**2021-2023-cü illər ərzində avtonəqliyyat vasitələrindən atmosferə atılan karbon dioksidi, ton**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| CO2 | 2,602 | 2,514 | 1,922 |

**2021-2023-cü illər üzrə karbon intensivliyi əmsalı (işçi sayına görə CO2 ekvivalentində emissiyalar), ton:**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| ASCO üzrə | 28,8 | 36,5 | 31,3 |

## YAŞIL ENERJİ

Son illərdə beynəlxalq təşkilatlar və böyük şirkətlər yaşıl enerjiyə keçid prosesinin sürətləndirilməsinin vacibliyini vurğulayır. Qlobal istiləşmənin əsas səbəbi havaya atılan emissiyalardır ki, emissiyaların yaranmasının mənbəyi yanacağın yanması prosesidir. Buna görə də mövcud enerji resurslarından yaşıl enerjiyə keçid edilməsi emissiyaların ciddi dərəcədə azalması və qlobal isinmənin qarşısının alınması deməkdir.

Azərbaycan Respublikası bərpa olunan enerji mənbələrinin tətbiqi ilə bağlı Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq edir və müqavilələr bağlayaraq çoxsaylı layihələrin başlanması istiqamətində işlər görür. Bu sadalananları nəzərə alaraq, ASCO da öz fəaliyyətinə uyğun olaraq yaşıl enerjinin tətbiqinə başlamağa start vermişdir. Şirkət daxilində emissiyaların idarəedilməsindən savayı yaşıl enerjiyə keçid prosesinin imkanları və bu prosesin mərhələləri barəsində görülən işlər də hesabatın yuxarıda "Ekoloji Sosial İdarətmə'" bölməsində qeyd olunan Ekoloji Sosial İdarəetmə (ESİ) qrupu tərəfindən həyata keçirilir Belə ki, qrupun üzvləri tərəfindən bir neçə alternativ enerji mənbələrinin gəmilərdə tətbiqilə bağlı layihələr işlənilir. Misal olaraq, artıq layihəsi hazırlanmış və ASCO tərəfindən tikiləcək növbəti dalğıc gəmisində hibrid yəni ikili yanacağın dizel və elektrik şəklində tətbiqi planlaşdırılmışdır. Bu gəmilərdə istismar zamanı əsasən elektrik enerjisindən və yalnız gərəkli olduğu təqdirdə xüsusi hallar üçün dizeldən istifadə olunması nəzərdə tutulmuşdur. Bununla yanaşı, ASCO-nun Xəzər Dənizində istismar olunan Akademik Zərifə Əliyeva və Azərbaycan gəmilərində Mayeləşdirilimiş Təbii Qaz (LNG) yanacağına keçid edilməsi layihəsi üzərində işlənilir.

ASCO gəmilərdən başqa istehsalat sahələrində də alternativ enerjinin tətbiqini hədəfləmişdir. Günəş panellərinin istehsalat sahələrində maksimum şəkildə tətbiqi və ərazilərdə ən çox istifadə edilən çəngəlli avtoyükləyicilərin mərhələli şəkildə elektrik mühərriklə olan növlərinə keçid edilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, elektrik mühərrikli avtomobillərin istifadəsinin işçilər arasında təşviq edilməsi məqsədilə şirkət tərəfindən enerji doldurma stansiyalarının alınması və ASCO-nun və struktur idarələrinin inzibati binalarında və digər müvafiq sahil obyektlərində quraşdırılması planlaşdırılmışdır. Belə ki, artıq istifadə üçün ümumi tutumu 60 kvt olan 2 ədəd enerji doldurma stansiyası alınaraq ASCO-nun inzibati binasının parklama məntəqəsində quraşdırılmışdır.

Yuxarıda qeyd olunan tədbirlər artıq şirkət daxilində razılaşdırılmış və icrasına başlanmaq üzrədir. Qeyd edilənlərdən əlavə bir sıra təkliflər də vardır ki, hal-hazırda müzakirə dövründə olduğu üçün icrası qərarlaşdırıldıqdan sonra növbəti hesabat dövründə qeyd olunması məqsədə uyğundur.



## NEFT DAĞILMALARI VƏ FÖVQƏLADƏ TƏDBİRLƏR

Beynəlxalq təcrübədə gəmiçilik sahəsində neft və neft məhsullarının daşınması, gəmilərin yanacaqla təchiz edilməsi prosesi zamanı dəniz səthinin, eləcə də sahil ərazisinin neft və neft məhsulları ilə çirkləndirilməsi riski mövcuddur. ASCO-nun Xəzər hövzəsində ən böyük daimi donanmaya malik olduğu, Gəmiçiliyin tanker gəmilərinin Xəzər hövzəsində neft və neft məhsullarının daşınmasında iştriak etdiyi nəzərə alınaraq, Xəzər dənizinin ekosisteminin qorunması məqsədi ilə, ASCO tərəfindən neft dağılmaları və bu tip hadisələrin qarşısınının alınması istiqamətində davamlı olaraq müvafiq önləyici tədbirlər görülür. Belə ki, il boyunca gəmi heyəti üçün bu istiqamətdə müvafiq təlimlər təşkil edilir, audit zamanı neftlə çirklənməyə dair bütün aspektlər yoxlanılıb nəzərdən keçirilir və neftlə çirklənmənin qarşısını almaq üçün gəmidə lazımi ləvazimatlar yenilənərək təmin edilir. MARPOL konvensiyasının I əlavəsinin tələbi olan Neftlə Çirklənməyə qarşı Gəmi Fövqəladə Mübarizə Planı bütün aidiyyəti ASCO gəmilərində təmin olunmuşdur. Bu planda neft çirklənmə hadisəsi zamanı gəmi heyətinin öhdəlikləri və gərəkli olan bütün neftlə mübarizə ləvazimatları haqqında prosedurlar əhatə edilmişdir. Uyğun olaraq, həmin gəmilərə müvafiq Neftlə Çirkləndirmənin Qarşısının Alınması Haqqında Beynəlxalq Şəhadətnamə də verilmişdir. Eyni zamanda, dənizə axıntıların qarşısının alınması məqsədilə, ASCO-nun gəmilərində atqı nöqtələrində plomblar quraşdırılmışdır.

ASCO-nun gəmiləri "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət ilə bağlı sığorta və digər maliyyə təminatı haqqında sertifikat", həmçinin "Neftlə çirklənmədən vurulan zərərə görə mülki məsuliyyətin maliyyə təminatı haqqında şəhadətnamə" ilə təmin edilmişdir.

ASCO-da neftlə çirklənməyə qarşı mübarizə tədbirləri hər il analiz edilir, uyğun olan yeni üsullar Ekoloji tədbirlər planına əlavə edilir.

Hesabat dövrü ərzində neft və neft məhsullarının dağılması hadisəsi yalnız bir ASCO gəmisində qeydə alınmışdır. Bu hadisə gəmidən gəmiyə bunker yanacağı ötürülməsi zamanı baş vermişdir. Hadisədən sonra işçilərin bu sahə üzrə təlimatlandırılması aparılmış, müvafiq intizam tənbehləri görülmüş və anoloji hadisələrin təkrarlanmaması üçün hadisə ilə bağlı Təhlükəsizlik Bülleteni hazırlanaraq bütün gəmilərə göndərilmişdir.

## GƏLƏCƏK PLANLAR

Ətraf mühitin idarəolunması geniş, aktual və xüsusilədə müasir dövrdə cərəyan edən qlobal ekoloji məsələlərdən dolayı diqqət mərkəzində olan sahə olduğundan bu istiqamətdə mütəmadi xarakter daşıyan tədbirlərdən başqa bir sıra ekoloji innovasiyaların ASCO-da tətbiq olunması istiqamətində işlərin fasiləsiz olaraq davam etdirilməsi növbəti illərdə də nəzərdə tutulur. Növbəti hesabat dövründə Gəmiçilik prioritet olaraq karbon marketinin tətbiqini, su sərfiyyatının optimallaşdırılmasını, plastik su butulkalarının sayının azaldılmasını, gəmilərdən yaranan CO2 emissiyalarının azaldılması və bu sahədə yeni akkreditasiya və sertifikatların alınmasını planlaşdırır.

# GRI STANDARTLARI CƏDVƏLİ



| GRI standartları və açıqlamalar (göstəricilər) | SƏHİFƏ / QEYD |
|---|---|
| **GRI 2: Ümumi açıqlamalar** | |
| 2-1. Təşkilati təfərrüatlar | səh.3 |
| 2-2. Təşkilatın dayanıqlı inkişaf hesabatlarına daxil edilmiş müəssisələr | səh. 40-41 |
| 2-3. Hesabat dövrü, tezliyi və əlaqə vasitəsi | səh. 1, 13, 85-86 |
| 2-4. Əvvəlki hesabatlarda əks olunmuş məlumatların dəyişdirilməsi | səh. 130, 137 |
| 2-5. Müstəqil əminlik xidmətləri | səh. 156, 157 |
| 2-6. Fəaliyyət, dəyər zənciri və digər işgüzar münasibətlər | səh. 30 |
| 2-7. İşçilər | səh. 107-108 |
| 2-8. İşçi olmayan şəxslər | Hesabat dövründə müvafiq hallar aşkar edilməmişdir. |
| 2-9. İdarəetmə strukturu və tərkibi | səh. 38-39 |
| 2-10. Ali idarəetmə orqanının namizədliyinin irəli sürülməsi və seçilməsi | Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətindədir. |
| 2-11. Ali idarəetmə orqanının sədri | ASCO-nun ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Ümumi Yığıncağın səlahiyyətləri Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan İnvestisiya Holdinqi arasında bölüşdürülmüşdür. səh. 80-81 |
| 2-12. Ali idarəetmə orqanının təsirlərin idarə olunmasında rolu | səh. 80-81 |
| 2-13. Təsirlərin idarə olunması məsuliyyətinin ötürülməsi | səh. 80-81 |
| 2-14. Ali idarəetmə orqanının dayanıqlı inkişaf üzrə hesabatlılıq prosesində rolu | Dayanıqlı İnkişaf hesabatı təsdiq üçün Müşahidə Şurasına təqdim olunur. |
| 2-15. Maraqların toqquşması | Gəmiçiliyin "Biznes Etikası Məcəlləsi" maraqların toqquşması məsələsi ilə bağlı ASCO üzrə müvafiq qayda və görülməli olan tədbirləri müəyyən edir. səh. 92-93 |
| 2-16. Mühüm məsələlərin bildirilməsi | səh. 92-93, 105-106 |
| 2-17. Ali idarəetmə orqanının kollektiv bilikləri | Gəmiçiliyin ali idarəetmə orqanı müvafiq səriştə və təcrübəyə malik nümayəndələrdən təşkil olunmuşdur. Müşahidə Şurası və onun Komitələrinin iclaslarında Gəmiçilik barəsində mütəmadi aidiyyəti məlumatlar bölüşülür və kollektiv bilik qorunub saxlanılır. |
| 2-18. Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi | səh. 86-87 |
| 2-19. Mükafatlandırma siyasətləri | səh. 86-87 |
| 2-20. Mükafatın müəyyən edilməsi prosesi | səh. 86-87 |
| 2-21. İllik ümumi kompensasiya əmsalı | Konfidensial səbəblərdən dolayı hesabatda qeyd olunmamışdır. |
| 2-22. Dayanıqlı inkişaf strategiyası haqqında bəyanat | səh. 10-14 |
| 2-23. Siyasət üzrə öhdəliklər | səh. 92-93 |
| 2-24. Siyasət üzrə öhdəliklərin icrası | səh. 92-93 |
| 2-25. Mənfi təsirlərin aradan qaldırılması prosesləri | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| 2-26. Məsləhətləşmə və problemlərin bildirilməsi mexanizmləri | 16-17, 85-86, 92-93 |
| 2-27. Qanun və qaydalara əməletmə | səh. 92-93 |
| 2-28. Üzvlük assosiasiyaları | səh. 49 |
| 2-29. Maraqlı tərəflərin cəlb edilməsi yanaşması | səh. 44-47 |
| 2-30. Kollektiv əmək müqavilələr | səh. 106 |

| | |
|---|---|
| **GRI 3: Əhəmiyyətli mövzular** | |
| 3-1. Əhəmiyyətli mövzuları müəyyən edilməsi prosesi | səh. 44 |
| 3-2. Əhəmiyyətli mövzuların siyahısı | səh. 44 |
| 3-3. Əsas mövzuların idarə edilməsi | səh. 44 |
| **GRI 201: İqtisadi göstəricilər** | |
| 201-1. Əldə edilmiş və paylaşdırılmış birbaşa iqtisadi dəyər | səh. 66-67 |
| 201-2. İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, digər risklər və imkanlar | Qarşıdakı dövrlər üçün nəzərdə tutulmuşdur. |
| 201-3. Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər təqaüd planları | ASCO-da DSMF-ə ödənişlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir. |
| **GRI 202: Bazarda mövcudluq** | |
| 202-1 Yerli minimum əmək haqqı ilə müqayisədə cinslər üzrə standart ilkin əmək haqqı | ASCO-da əməkhaqqı müvafiq yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənir. |
| 202-2 Yerli əhalidən olan rəhbər işçilərin payı | səh. 108 |
| **GRI 203: Dolayı iqtisadi təsirlər** | |
| 203-1. İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər | səh. 66-67, 72-75 |
| 203-2. Əhəmiyyətli dolayı iqtisadi təsirlər | səh. 44 |
| **GRI 204: Satınalma təcrübələri** | |
| 204-1. Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti | səh. 49 |
| **GRI 205: Antikorrupsiya** | |
| 205-1. Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar | səh. 94-95 |
| 205-2. Anti-korrupsiya siyasət və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya | səh. 94-95 |
| 205-3. Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər | Hesabat dövrü ərzində korrupsiya halı qeydə alınmamışdır. |
| **GRI 206: Anti-rəqabət davranışı** | |
| 206-1. Sağlam olmayan rəqabət davranışları etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər | ASCO 100% səhmləri dövlətə məxsus gəmiçilik şirkətidir və hər hansı qeyri-sağlam rəqabət davranışı, etimadsızlıq və ya monopoliya halları mövcud deyildir. |
| **GRI 207: Vergi** | |
| 207-1. Vergi yanaşması | səh. 67 |
| 207-2. Verginin idarə edilməsi, nəzarət və risklərin idarə edilməsi | səh. 67, 90-91 |
| 207-3. Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı məsələlərin idarə edilməsi | səh. 67 |
| **GRI 301: Materiallar** | |
| 301-1. İstifadə olunan materiallar, həcm və ya çəki ilə | Əsas fəaliyyət sahələrində istifadə olunan materiallar (yanacaq və sürtkü materialları, su və s.) hesabatda açıqlanmışdır. Digər həcmi az olan materiallar əhəmiyyətlilik nəzərə alınmaqla daxil edilməmişdir. |
| 301-2. Təkrar istifadə olunan materiallar | Şirkətin fəaliyyətinə uyğun olmadığı üçün qeyd edilməmişdir. |
| 301-3. Geri toplanmış məhsullar və qablaşdırma materialları | Şirkətin fəaliyyətinə uyğun olmadığı üçün qeyd edilməmişdir. |
| **GRI 302: Enerji** | |
| 302-1. Təşkilat üzrə enerji sərfiyyatı | səh. 139-142 |
| 302-2. Təşkilat xaricində enerji istehlakı | Şirkətdən kənarda enerji istehlakı ilə bağlı məlumatları konsolidə edilmir. |
| 302-3. Enerji intensivliyi əmsalı | səh. 142 |
| 302-4. Enerji sərfiyyatının azaldılması | səh. 139-142 |
| 302-5. Məhsulların və xidmətlərin enerjiyə tələbatında azalma | səh. 140-142 |

| | |
|---|---|
| **GRI 303: Su və çirkab suları** | |
| 303-1. Su ümumi istifadə mənbəyi kimi | səh. 138-139 |
| 303-2. Suyun axıdılması ilə bağlı təsirlərin idarə edilməsi | səh. 138-139 |
| 303-3. Suyun götürülməsi | səh. 138-139 |
| 303-4. Suyun axıdılması | səh. 138-139 |
| 303-5. Su istehlakı | səh. 138-139 |
| **GRI 304: Biomüxtəliflik** | |
| 304-1. Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya bitişik ərazilərdə mövcud olan əməliyyat sahələri | ASCO-nun fəaliyyəti qorunan və ya yüksək biomüxtəliflik dəyərinə malik olan əraziləri əhatə etmir. |
| 304-2. Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri | ASCO-nun fəaliyyəti qorunan və ya yüksək biomüxtəliflik dəyərinə malik olan əraziləri əhatə etmir. |
| 304-3. Qorunan və ya bərpa olunan ərazilər | ASCO-nun fəaliyyəti qorunan və ya bərpa olunan əraziləri əhatə etmir. |
| 304-4. Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Siyahısına və milli qoruqların siyahısına düşmüş növlərin mövcudluğu | Hesabat dövründə, ASCO-nun fəaliyyət göstərdiyi ərazilərdə Beynəlxalq Təbiəti Qoruma İttifaqının Qırmızı Siyahısına düşmüş heyvan və ya bitki növləri mövcud deyildir. |
| **GRI 305: Emissiyalar** | |
| 305-1. Birbaşa (Sahə 1) İEYQ emissiyaları | səh. 144 |
| 305-2. Dolayı İEYQ emissiyaları (Sahə 2) | səh. 144 |
| 305-4. İQ emissiyalarının intensivliyi | səh. 144 |
| 305-5. İQ emissiyalarında azalma | səh. 144 |
| 305-6. Ozon qatını məhv edən emissiyalar (ODS) | səh. 144 |
| 305-7. Azot oksidləri (NOx), kükürd oksidləri (SOx) və digər əhəmiyyətli hava emissiyaları | səh. 144 |
| **GRI 306: Tullantılar** | |
| 306-1. Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər | səh. 135-137 |
| 306-2. Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarə edilməsi | səh. 135-137 |
| 306-3. Yaranan tullantılar | səh. 137 |
| 306-4. Utilizasiyadan ayrılmış tullantılar | səh. 137 |
| 306-5. Utilizasiyaya yönləndirilmiş tullantılar | səh. 137 |
| **GRI 308: Təchizatçının ətraf mühit üzrə qiymətləndirilməsi** | |
| 308-2. Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər | səh. 87-88 |
| **GRI 401: Məşğulluq** | |
| 401-1. Yeni işə götürülən işçilər və işçi dövriyyəsi | səh. 98, 107-108 |
| 401-2. Müvəqqəti və ya yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar | Tamştat işçilərə tətbiq olunan bütün əlavə ödənişlər, güzəştlər və imtiyazlar müvəqqəti və yarımştat işçilərə də şamil olunur. |
| 401-3. Valideynlik məzuniyyəti | Valideynlik məzuniyyəti qanunvericiliyə əsasən aidiyyəti şəxslərə müvafiq qaydada təmin edilir. |

| | |
|---|---|
| **GRI 402: İşçi və rəhbər əlaqələri** | |
| 402-1. Əməliyyat dəyişiklikləri ilə bağlı minimum bildiriş müddətlər | səh. 105-107 |
| **GRI 403: Əməyin təhlükəsizliyi və sağlamlıq** | |
| 403-1. Əməyin təhlükəsizliyi və sağlamlığın idarə edilməsi sistemi | səh. 124-125 |
| 403-2. Təhlükələrin müəyyən edilməsi, risklərin qiymətləndirilməsi və hadisələrin araşdırılması | səh. 127-129 |
| 403-3. Əməyin mühafizəsi xidmətləri | səh. 124-129 |
| 403-4. Əməyin təhlükəsizliyi və sağlamlıqla bağlı işçilərin iştirakı, məsləhət xidmətləri və əlaqələrin yaradılması | səh. 127-129 |
| 403-5. İşçilərə əməyin təhlükəsizliyi və sağlamlıq üzrə təlim | səh. 126 |
| 403-6. İşçilərin sağlamlığının təbliği | səh. 126-128 |
| 403-7. İşgüzar əlaqələrlə birbaşa əlaqəli olan əməyin təhlükəsizliyi və sağlamlıq məsələlərinin təsirlərinin qarşısının alınması və azaldılması | səh. 128, 130 |
| 403-8. Əməyin təhlükəsizliyi və sağlamlığın idarə edilməsi sistemi ilə əhatə olunan işçilər | səh. 130 |
| 403-9. Əmək fəaliyyəti ilə bağlı zədələnmələr | səh. 130 |
| 403-10. Əmək fəaliyyəti ilə bağlı xəstəliklər | səh. 130 |
| **GRI 404: Təlim və təhsil** | |
| 404-1. Bir işçi üçün orta illik təlim saatları | səh. 100-101 |
| 404-2. İşçi bacarıqlarının artırılması və keçidə dəstək proqramları | səh. 100-101 |
| 404-3. Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə nəzərdən keçirilmiş işçilərin faizi | səh. 100, 108 |
| **GRI 405: Müxtəliflik və bərabər imkanlar** | |
| 405-1. İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi | səh. 107-108 |
| **GRI 406: Ayrı-seçkiliyin olmaması** | |
| 406-1. Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər | Hesabat dövrü ərzində heç bir ayrı-seçkilik hadisəsi aşkar edilməmişdir. səh. 105-106 |
| **GRI 407: Birləşmə və kollektiv danışıqlar aparmaq azadlığı** | |
| 407-1. Fəaliyyət çərçivəsində birləşmək və kollektiv danışıqlar aparmaq azadlığından istifadə haqqını risk altına salan əməliyyatlar və təchizatçılar | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 408: Uşaq əməyi** | |
| 408-1. Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |

| | |
|---|---|
| **GRI 409: Məcburi və ya icbari əmək** | |
| 409-1. Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 410: Təhlükəsizlik təcrübələri** | |
| 410-1. İnsan hüquqlarına dair siyasət və prosedurlar üzrə təlim keçmiş təhlükəsizlik heyəti | Mühafizə işçiləri üçün işə qəbul zamanı müvafiq təlimlər, o cümlədən insan haqları siyasəti və prosedurları üzrə təlimlər təşkil edilir. |
| **GRI 411: Yerli sakinlərin hüquqları** | |
| 411-1. Yerli sakinlərin hüquqlarının pozulması halları | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 413: Yerli icmalar** | |
| 413-1. Yerli icmaların cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları | səh. 118-120 |
| 413-2. Yerli icmalara mövcud və potensial əhəmiyyətli mənfi təsirləri olan əməliyyatlar | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 414: Təchizatçıların sosial qiymətləndirilməsi** | |
| 414-2. Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 415: İctimai siyasət** | |
| 415-1. Siyasi xarakterli ödənişlər | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi** | |
| 416-1. Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi | ASCO tərəfindən sağlamlığa və təhlükəsizliyə mənfi təsir edən xidmətlər təqdim olunmur. |
| 416-2. Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 417: Marketinq və etiketləmə** | |
| 417-2. Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| 417-3. Marketinq əlaqələri ilə bağlı uyğunsuzluq halları | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |
| **GRI 418: Müştərilərin məxfiliyi** | |
| 418-1. Müştərilərin məxfiliyinin pozulması və müştəri məlumatlarının itməsi ilə bağlı əsaslandırılmış şikayətlər | Hesabat dövrü ərzində müvafiq hallar aşkar edilməmişdir. |



Deloitte.

## MÜSTƏQİL ƏMİNLİK HESABATI

**Müstəqil icraçı Deloitte & Touche MMAC ("Deloitte") tərəfindən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin ("Şirkət") İdarə Heyətinin Sədrinə 1 yanvar 2022-ci ildən 31 dekabr 2023-cü il tarixinədək olan dövr üçün 2022-2023 Dayanıqlı İnkişaf Hesabatı üzrə məhdud əminlik hesabatı:**

### Əminliyin əhatə dairəsi

Şirkət 1 yanvar 2022-ci ildən 31 dekabr 2023-cü il tarixinədək olan dövr üçün Qlobal Hesabatlılıq Təşəbbüsü (GRI) Davamlı İnkişaf üçün Hesabatlılıq Standartlarının tələblərinə uyğun hazırlanmış "ASCO 2022-2023 Dayanıqlı İnkişaf Hesabatı"nda ("Hesabat") təqdim olunan seçilmiş məlumatların doğruluğu ilə bağlı məhdud əminliyin təmin edilməsi üzrə 3000 saylı (düzəliş edilmiş) Əminlik Tapşırıqlarına dair Beynəlxalq Standarta (ISAE) ("Standart") uyğun olaraq əminlik layihəsinin yerinə yetirilməsi üçün bizi təyin etmişdir.

### Əminlik prosedurları və vəzifələr

Biz 2022-2023-cü illərə aid olan və Hesabata daxil olunmuş aşağıdakı məlumatların doğruluğunu təsdiq etmək üçün məhdud əminlik layihəsini yerinə yetirdik:

(1) Aşağıda "Məhdud əminlik üçün qeyri-maliyyə fəaliyyətinə dair seçilmiş məlumatlar" bölməsində göstərilmiş seçilmiş əsas fəaliyyət göstəriciləri, və
(2) Şirkətin Hesabatı, həmin Hesabatın "Hesabat haqqında" alt bölməsində qeyd edilən GRI Davamlı İnkişaf üçün Hesabatlılıq Standartlarının tələblərinə uyğun hazırlanmasına dair şəxsi bəyanatı.

### Əsas əminlik prosedurlarımız

Məhdud əminliyə nail olmaq üçün, Standart bizdən tapşırığın əhatə dairəsinə aid sahələrin təşkilində istifadə olunan prosesləri, sistemləri və bacarıqları nəzərdən keçirməyi tələb edir. Əhəmiyyətli səhvin mövcudluğu riskini nəzərə alaraq, əminliyə dair nəticəni yetərli sübutla əsaslandırmaq üçün zəruri hesab etdiyimiz bütün məlumat və izahları əldə edərək işimizi planlaşdırdıq və yerinə yetirdik.

Nəticələrimizi hazırlamaq üçün aşağıdakı prosedurları həyata keçirdik:

- Davamlı inkişaf üzrə seçilmiş fəaliyyət göstəricilərinin yığılması, ümumiləşdirilməsi, yoxlanması və hesabatlaşdırılması ilə əlaqədar əsas sistemləri, prosesləri, siyasətləri və nəzarət mexanizmlərini seçmə üsulu ilə təhlil etdik;
- Şirkətin davamlı inkişaf fəaliyyətlərinə, siyasətlərinə və müvafiq hesabatlılığına cavabdeh olan işçiləri ilə müsahibələr apardıq;
- Əldə olunmuş məlumatların seçilmiş əsas fəaliyyət göstəriciləri üzrə doğruluğunu təsdiqləmək üçün seçmə üsulu ilə əsaslı yoxlamalar apardıq;
- Davamlı inkişaf məsələlərinin müəyyən edilməsi, idarə edilməsi və hesabatlaşdırılması ilə əlaqədar ümumi idarəetmə və daxili nəzarət mühiti, risklərin idarə edilməsi, əhəmiyyətliliyin qiymətləndirilməsi və maraqlı tərəflərin cəlb olunması prosesləri barədə anlayışın əldə edilməsi üçün rəhbərlik və baş idarə heyəti ilə sorğular apardıq;
- Hesabatda olan açıqlamaların GRI Davamlı İnkişaf üçün Hesabatlılıq Standartlarına uyğunluğunu seçmə üsulu ilə nəzərdən keçirdik.

Biz hesab edirik ki, əldə etdiyimiz sübut məhdud əminliyə dair nəticəmizin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

**Səciyyəvi məhdudiyyətlər**
Məlumatların seçmə üsulu ilə təhlil edilməsi səbəbindən bütün əminlik tapşırıqlarında səciyyəvi məhdudiyyətlər mövcuddur. Buna görə də fırıldaqçılıq, səhv və ya uyğunsuzluq halları mövcud ola və aşkar edilməyə bilər. Əlavə olaraq, hesabatlara daxil edilən qeyri-maliyyə məlumatlarının müəyyən edilməsi, hesablanması və seçilməsi və ya qiymətləndirilməsi üçün istifadə edilən xüsusiyyətləri və metodları nəzərə alsaq, qeyri-maliyyə məlumatları maliyyə məlumatlarına nisbətdə daha çox belə səciyyəvi məhdudiyyətlərə malikdir.

Tapşırığı yerinə yetirərkən işimiz başqa məqsədlər barədə deyil, məhz bu Hesabatda bizdən təqdim edilməsi tələb olunan məsələlər barədə Şirkətə məlumat vermək olmuşdur. Biz, qanunla icazə verilən bütün hallarda öz işimizə, hazırkı Hesabata və ya hazırladığımız nəticələrə görə Şirkətdən başqa hər hansı digər tərəf qarşısında məsuliyyət daşımırıq və ya belə məsuliyyəti qəbul etmirik.

Bizim tapşırığımız Standart əsasında məhdud əminliyi təmin etməkdir. Məhdud əminlik tapşırığı çərçivəsində yerinə yetirilən prosedurlar öz mahiyyəti və müddətinə görə kifayət qədər əminlik tapşırığındakı prosedurlardan fərqlənir və daha az dərəcədə əhatəlidir və nəticə etibarilə, məhdud əminlik tapşırığı zamanı əldə olunmuş əminlik səviyyəsi kifayət qədər əminlik tapşırığı zamanı əldə olunan əminlikdən əhəmiyyətli dərəcədə aşağıdır.

**Vəzifələr və öhdəliklər**
Şirkətin direktorları Hesabatda əks olunan davamlı inkişafa dair məlumatların və bəyannamələrin hazırlanmasına, doğruluğuna və tamlığına görə məsuliyyət daşıyır. Onlar Şirkətin davamlı inkişafla bağlı məqsədlərinin müəyyən edilməsinə və hesabat olunan məlumatların əldə olunduğu uyğun fəaliyyətin idarə edilməsi və daxili nəzarət sistemlərinin qurulmasına və saxlanmasına cavabdehdirlər.

Bizim məsuliyyətimiz həyata keçirdiyimiz prosedurlar əsasında seçilmiş məlumatlara dair müstəqil şəkildə nəticə bildirməkdən ibarətdir. Biz tapşırığı Beynəlxalq Audit və Əminlik Standartları Şurası tərəfindən buraxılan Keçmiş dövrlər üzrə Maliyyə Məlumatlarının Auditi və Təhlilindən başqa Əminlik Tapşırıqları adlı 3000 saylı (düzəliş edilmiş) ISAE-yə uyğun olaraq yerinə yetirdik.

**Müstəqillik və keyfiyyətə nəzarət**
Biz bu tapşırığı Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası tərəfindən buraxılmış düzgünlük, obyektivlik, peşəkar bacarıqlar, lazımi səviyyədə araşdırma, məxfilik və peşəkar davranış kimi fundamental prinsiplərə əsaslanan Peşəkar Mühasiblər üçün Etika Məcəlləsində müəyyən olunan müstəqillik və digər etik tələblərə uyğun şəkildə yerinə yetirdik.

Deloitte 1 saylı Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartını tətbiq edir və müvafiq olaraq etika tələblərinə, peşə standartlarına, lazımi hüquqi-normativ tələblərə uyğunluq ilə bağlı sənədləşdirilmiş siyasət və prosedurları əhatə edən kompleks keyfiyyətə nəzarət sisteminə malikdir.

**Məhdud əminlik üçün qeyri-maliyyə fəaliyyətinə dair seçilmiş məlumatlar**
Biz Şirkət tərəfindən Hesabatda əks olunmuş 2022-2023-cü hesabatlılıq illəri üzrə aşağıdakı əsas fəaliyyət göstəricilərinə dair məlumatların doğruluğu ilə bağlı məhdud əminlik prosedurlarını yerinə yetirmək üçün təyin edilmişik:

| | |
|---|---|
| **İşçilər** | • İşçilərin cəmi sayı<br>• Cinsə görə işçilərin cəmi sayı, kişi<br>• Cinsə görə işçilərin cəmi sayı, qadın<br>• İşə götürülən işçilərin sayı<br>• İşdən azad edilən işçilərin sayı<br>• Kadr axını əmsalı<br>• Daimi işçilərin sayı<br>• Müvəqqəti işçilərin sayı<br>• Tam ştat işçilərin sayı<br>• Yarım ştat işçilərin sayı<br>• Rəhbərlik vəzifəsində çalışan qadınların sayı |
| **Sağlamlıq və təhlükəsizlik** | • Cəmi işlənmiş saatlar<br>• Cəmi ölüm halları, əməkdaşlar<br>• Qeydə alınan xəsarətlərin ümumi sayı<br>• Əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə nəticələnən zədələnmələrin (LTİ) ümumi sayı<br>• LTİ üzrə tezlik əmsalı (hər 1,000,000 işlənmiş saata görə)<br>• Xəsarət/qəza hadisələri nəticəsində itirilmiş iş günlərinin sayı |
| **Ətraf-mühit** | • Birbaşa CO2 emissiyalarının ümumi miqdarı<br>• Əmələ gəlmiş təhlükəsiz tullantılar<br>• Əmələ gəlmiş təhlükəli tullantılar<br>• Neft dağılmalarının sayı<br>• Cəmi su istehlakı*<br>• Elektrik enerjisi istehlakı*<br>• Cəmi təbii qaz istehlakı*<br>• Dizel istehlakı<br>• Benzin istehlakı |
| **Təchizat zənciri** | • Təchizatçıların ümumi sayı<br>• Yerli təchizatçıların sayı<br>• Yerli təchizatçılara/podratçılara ayrılan satınalma büdcəsinin faizi |

***Bu göstəriciləri əsas istehlakçı müəssisələr olan Dəniz Neft Donanması, Xəzər Dəniz Neft Donanması, Bibiheybət Gəmi Təmiri Zavodu, Zığ Gəmi Təmir Tikinti Zavodu, İstehsalat Xidmətləri İdarəsi və Baş aparatı əhatə edir.**

## Məhdud əminliyə dair nəticə

İşimizin əhatə dairəsinə və yerinə yetirdiyimiz əminlik prosedurlarına əsasən nəticəyə gəldik ki, yuxarıda "Vəzifələr və öhdəliklər" bölməsində qeyd edilmiş məhdud əminliyin təmin edilməsi məqsədilə cəlb edildiyimiz tapşırığın əhatə dairəsinə aid olan yuxarıda qeyd olunmuş seçilmiş qeyri-maliyyə performans məlumatlarında əhəmiyyətli təhriflərin olduğunu hesab etməyə səbəb olan heç bir fakt qarşımıza çıxmamışdır.

Deloitte + Touche MMC

DELOITTE & TOUCHE MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ AZERBAIJAN

**21 may 2024**



# İXTİSARLAR (ABREVİATURALAR)

ABS – American Bureau of Shipping (Amerika Gəmiçilik Bürosu)
ADDA – Azərbaycan Dövlət Dəniz Akademiyası
ADK – Azərbaycan Dənizçilik Kolleci
Aİ MRV – Avropa Birliyinin Ölçmə, Hesabatlılıq və Verifikasiya planı
AİH – Azərbaycan İnvestisiya Holdinqi
ASCO / Gəmiçilik / Cəmiyyət – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
AYİB – Avropa Yenidənqurma və İnkişaf Bankı
BGTZ – "Bibiheybət" Gəmi Təmiri Zavodu
BGZ – Bakı Gəmiqayırma Zavodu
BMT – Birləşmiş Millətlər Təşkilatı
COSO – "Treadway" Komissiyasının Sponsor Təşkilatları Komitəsi (Committee of Sponsoring Organization)
DİM – Dayanıqlı İnkişaf Məqsədləri
DND – Dəniz Nəqliyyat Donanması
DP – Dynamic Positioning (Dinamik Mövqe Saxlama Sistemi)
EBITDA – Earnings before interest, taxes, depreciation, and amortization (faiz, vergi və amortizasiya hesablanmazdan əvvəlki mənfəət)
EKB – Ehtiyat Kadrlar Bazası
ESİ – Ekoloji, Sosial, İdarəetmə
GRI – Global Reporting Index (Qlobal Hesabatlılıq Standartları)
XDND – Xəzər Dəniz Neft Donanması
XDNLA ETİ – Xəzər Dəniz Nəqliyyat Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutu
XFQ – Xidməti fəaliyyətinin qiymətləndirilməsi
IFRS – International Financial Reporting Standards (Maliyyə Hesabatlarının Beynəlxalq Standartları)
IMO – International Maritime Organisation (Beynəlxalq Dəniz Təşkilatı)
ISM – International safety management (Təhlükəsizliyin beynəlxalq idarəetmə sistemi)
ISO – International organization for standardization (Beynəlxalq standartlaşdırma təşkilatı)
İEYQ – İstixana effekti yaradan qazlar

İXİ – İstehsalat Xidmətləri İdarəsi
KİG – Karbon İntensivlik Göstəricisi
KPI – Key performance indicators (Fəaliyyətin Səmərəlilik Göstəriciləri)
QAIP – Keyfiyyətin təminatı və inkişaf proqramı (Quality assurance and improvement program)
MARPOL – International convention for the prevention of pollution from ships (Dəniz çirklənməsi əleyhinə konvensiya)
MLC –Maritime Labour Convention (Dəniz Əmək Konvensiyası)
MTK – Mənzil-Tikinti Kooperativi
PM – Plant Maintenance (Təmirin planlaşdırılması)
SG – Səmərəlilik Göstəriciləri
SOLAS – Safety of life at sea (Dənizdə həyat təhlükəsizliyi üzrə beynəlxalq konvensiya)
STCW – International convention on standards of training, certification and watchkeeping for seafarers (Təlimləndirmə standartları, Sertifikatlaşma və Növbəçəkmə üzrə Beynəlxalq Konvensiya)
TBNM – Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu
TRACECA – Transport Corridor Europe-Caucasus-Asia (Avropa–Qafqaz–Asiya Beynəlxalq Nəqliyyat Dəhlizi)
TTM – Təlim və Tədris Mərkəzi
ZGTTZ – “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu

Mikayıl Useynov küçəsi  2
AZ1003 Bakı, Azərbaycan

Tel: (+994 12) 4043700
Fax:(+994 12) 4043800

E-mail: contact@asco.az
Web: www.asco.az